AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

21 NOYABR 2018-ci il ÇƏRŞƏNBƏ № 260 (6293) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Prezident İlham Əliyev Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini vurğulayaraq ölkələrimizin dövlət başçıları arasında müntəzəm görüşlərin əlaqələrimizin möhkəmlənməsində xüsusi rol oynadığını qeyd etdi və bu görüşlərin ölkələrimizi bir-birinə daha da yaxın etdiyini bildirdi. Prezident İlham Əliyev bildirdi ki, bu il Bakıda Türkiyə zabitlərinin də iştirak etdiyi iki hərbi paradın keçirilməsi, xüsusilə Bakının işğaldan azad edilməsi ilə bağlı təşkil edilmiş hərbi parad bütün dünyada böyük maraqla izlənilib və bu tədbirlər bir daha Türkiyə-Azərbaycan birliyini nümayiş etdirib. Dövlətimizin başçısı hərbi sahədə əməkdaşlığımızın genişlənməsində Azərbaycan ilə Türkiyənin birgə hərbi təlimlərinin böyük önəm daşıdığını bildirdi. Prezident İlham Əliyev Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülerin səfərinin ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Güler Azərbaycana səfərindən və Prezident İlham Əliyevlə görüşdən böyük qurur hissi keçirdiyini bildirdi. Yaşar Güler qeyd etdi ki, bir millət, iki dövlət olan Türkiyə ilə Azərbaycan ortaq tarixə, mədəniyyətə malikdirlər və ölkələrimiz arasında strateji iş birliyi gündən-günə möhkəmlənməkdədir. O, bir daha Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100 illik yubileyi münasibətilə dövlətimizin başçısını təbrik etdi və bu əlamətdar hadisədən Türkiyənin də qürur hissi keçirdiyini vurğuladı. Yaşar Güler Azərbaycanın gələcəkdə də böyük inkişafa nail olacağına əminliyini ifadə etdi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan Yaşar Güler qeyd etdi ki, bu, Azərbaycan üçün önəmli olduğu qədər Türkiyə üçün də önəmli məsələdir.

Söhbət zamanı noyabrın 21-də Bakıda keçiriləcək Azərbaycan-Türkiyə-Gürcüstan ordu rəhbərlərinin görüşünün əməkdaşlığın genişlənməsi baxımından önəmi qeyd edildi.

Sonda Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Güler dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

**AZƏRTAC**

## Azərbaycan Respublikası hakimlərinin və ədliyyə orqanları işçilərinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan ədliyyəsinin yaranmasının 100 illiyi münasibətilə və hakim vəzifəsini nümunəvi yerinə yetirdiklərinə, ədliyyə orqanlarında qulluq keçərkən fərqləndiklərinə, ədliyyə sistemində elm, səhiyyə sahələrinin inkişaf etdirilməsində və cəza-icra siyasətinin həyata keçirilməsində fəal iştiraklarına görə aşağıdakı şəxslər təltif edilsinlər:

**1-ci dərəcəli**
**"Vətənə xidmətə görə" ordeni ilə**

Məmmədov Fikrət Fərrux oğlu
Rzayev Ramiz Yaqub oğlu

**2-ci dərəcəli**
**"Vətənə xidmətə görə" ordeni ilə**

Cəfərov Azər Məmməd oğlu
Əliyev Məhərrəm Abış oğlu
Musayev Toğrul Sirac oğlu

**3-cü dərəcəli**
**"Vətənə xidmətə görə" ordeni ilə**

Əliyev Adil Şirməmməd oğlu
Qasımov Elçin Lütvəli oğlu
Mehdiyev Rəfail İbrahim oğlu
Məmmədov İlqar Kamil oğlu
Muradov Aslan Nüsrət oğlu
Yusifov Şahin Yaşar oğlu

**"Tərəqqi" medalı ilə**

Abbasov İlqar Eyvaz oğlu
Əkbərov Mübariz Dosməmməd oğlu
Əliyev Alı Yusif oğlu
Əliyev Kəramət Fətəli oğlu
Hacıyev Əfqan Niyətulla oğlu
Həsənov Həbib Bəhram oğlu
Xələfov Elçin Abuzər oğlu
İsayev Məhərrəm Əli oğlu
İsgəndərova İradə Həbib qızı
İsmayılov Eldar Herov oğlu
Kazımov Araz Nurəddin oğlu
Kərimov Səyyub Həsən oğlu
Məmmədov Fazil İbrahim oğlu
Məmmədov Hüseyn Məmməd oğlu
Muradov Hicran Xasay oğlu
Nəcəfov Mehdi Ağabala oğlu
Paşayev Tofiq Temir oğlu
Tağıyev Xəqani Qəhrəman oğlu
Vəliyev Hümmət Telman oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Abasquliyev İlham Aydın oğlu
Bəşirova Aygün Rafiq qızı
Cəfərov Anar Ələmşah oğlu
Cəfərov Azər Vəliyulla oğlu
Fərəcova Aybəniz Məhərrəm qızı
Fərzəliyev Rəşad Xaliyəddin oğlu
Hadıyeva Güney İmran qızı
Həsənov Rasim Aydın oğlu
Hüseynov Kamal Eldar oğlu
İbrahimov Elnur Elman oğlu
Qafarov Fikrət Məhəmməd oğlu
Qədirova Səbinə Mübariz qızı
Qənbərov Natiq Zərbi oğlu
Məmmədov Xaqani Əli oğlu
Məmmədov İlqar Həbib oğlu
Məmmədova Səbinə Firudin qızı
Nağıyev Həsən Xanəli oğlu
Nəbiyeva Firuzə Mansur qızı
Nəcəfov İlkin Abdulxeyir oğlu
Paşayev Qədir Gülnəzər oğlu
Rzayev Gülmalı Umud oğlu
Sadıqov Xəqani Şababa oğlu
Salmanlı Şəfəq Yaqub qızı
Seyidov Mirsaleh Miradil oğlu
Şahbazov Xalıq Həsən oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 20 noyabr 2018-ci il.**

# Prezident İlham Əliyev Rusiyanın Jurnalistlər İttifaqının sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Rusiya Federasiyasının Jurnalistlər İttifaqının sədri Vladimir Solovyovu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Rusiya arasında digər sahələrdə olduğu kimi, kütləvi informasiya vasitələri nümayəndələrinin arasında da ənənəvi olaraq uğurlu əməkdaşlıq həyata keçirildiyini bildirdi, eyni zamanda, bu sahədə əlaqələrin daha da fəallaşdırılmasının vacibliyini qeyd etdi. Bu baxımdan Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Respublikası və Rusiya Federasiyası KİV nümayəndələrinin mütəmadi qarşılıqlı səfərləri ictimaiyyətin ölkələrimizdə baş verən proseslər barədə daha çox məlumatlı olması işinə kömək edə bilər. Eyni zamanda, dövlətimizin başçısı qeyd etdi ki, bu cür səfərlər ölkələrimiz arasında bu gün çox uğurla inkişaf edən ikitərəfli münasibətlərin daha da genişləndirilməsi baxımından da önəmlidir. Prezident İlham Əliyev əlaqələrimizin möhkəmlənməsində Azərbaycanın və Rusiyanın dövlət başçılarının qarşılıqlı səfərləri və mütəmadi görüşlərinin xüsusi rol oynadığını qeyd etdi. Dövlətimizin başçısı Vladimir Solovyovun səfərinin jurnalistika sahəsində əməkdaşlığın möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

Rusiya Federasiyasının Jurnalistlər İttifaqının sədri Vladimir Solovyov Prezident İlham Əliyevlə görüşündən dərin məmnunluq hissi keçirdiyini bildirdi. O qeyd etdi ki, bu gün Azərbaycan ilə Rusiya arasında ikitərəfli əlaqələr uğurla inkişaf edir və çox yüksək səviyyədədir. Qonaq Azərbaycanda Rusiya mədəniyyətinə, mətbuatına böyük hörmətlə yanaşıldığını qeyd edərək, məmnunluq hissi ilə ölkəmizdə bütün Rusiya televiziya kanallarının yayımlandığını bildirdi. O, Rusiya jurnalistlərinin azərbaycanlı həmkarları ilə daim qarşılıqlı əlaqələr saxlamaq istəyində olduqlarını dedi. Vladimir Solovyov bu baxımdan noyabrın 19-da Azərbaycan Mətbuat Şurası və Rusiya Federasiyası Jurnalistlər İttifaqı arasında imzalanmış əməkdaşlıq haqqında Memorandumun əhəmiyyətini vurğuladı.

**AZƏRTAC**

*Belarus KİV-ləri:*

# Azərbaycan Prezidentinin Belarusa səfəri iki ölkənin strateji tərəfdaşlıq münasibətlərində yeni səhifələr açır


Беларусь и Азербайджан совместно выходят на рынки третьих стран


Системное сотрудничество: Лукашенко и Алиев провели переговоры в Минске


АРГУМЕНТЫ И ФАКТЫ AIF.BY

Каковы основные итоги встречи Лукашенко и Алиева?

Встреча президента Беларуси Александра Лукашенко и главы Азербайджана Ильхама Алиева состоялась 19 ноября 2018 года в Минске.

Встреча лидеров двух стран прошла в формате "один на один" и в расширенном составе с участием членов делегаций. Президенты обсудили состояние и перспективные направления развития отношений между двумя странами.

Глава Беларуси отметил, в частности, тот факт, что Беларусь и Азербайджан намерены совместно осваивать рынки третьих стран.

По словам белорусского президента, у стран заложена основа для широкой производственной кооперации:

«Достойный пример такой работы продемонстрировали флагманы белорусского машиностроения - МТЗ и МАЗ, а также Гянджинский автомобильный завод. В Гяндже уже собраны более 10 тыс. тракторов и 3,5 тыс. единиц автомобильной техники. Сегодня мы готовы приступить к принципиально новому этапу сотрудничества - совместному освоению рынков третьих стран».

**Azərbaycan Prezidenti İlham Əliyevin Belarusa rəsmi səfəri bu ölkənin aparıcı kütləvi informasiya vasitələrində geniş işıqlandırılıb.**

AZƏRTAC xəbər verir ki, BELTA informasiya agentliyi, "Belarus seqodnya" qəzetinin rəsmi saytı Prezident İlham Əliyevin səfərinə dair 40-a yaxın məqalə yayıb. "Sputnik" agentliyi, "Komsomolskaya Pravda", "Arqumentı i faktı" "Narodnaya qazeta", "Respublika" qəzetləri, "Belarus 1", "NTV Belarus" və digər telekanallar, yazılı mətbuat orqanları dövlətimizin başçısının Belarusa səfərinin əhəmiyyəti barədə geniş məlumatlar yayıblar.

Qeyd edilib ki, bu səfər iki ölkənin strateji tərəfdaşlıq münasibətlərində yeni səhifələr açır. Yayılan məqalə və süjetlərdə Azərbaycan-Belarus əməkdaşlığından, strateji xarakter daşıyan tərəfdaşlıqdan, əlaqələrin genişləndirilməsində Prezident İlham Əliyevin xidmətlərindən, iki ölkə arasında olan dostluq, qarşılıqlı hörmət və dəstəkdən bəhs edilir.

**AZƏRTAC**

## Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Ceyhun Əkbər oğlu Həsənova ədliyyə general-leytenantı ali xüsusi rütbəsi verilsin.

**2.** Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin aşağıdakı əməkdaşlarına

III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin:

Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi Adil Fazil oğlu Əbilova

Bələdiyyələrlə iş mərkəzinin rəisi Zahir Məmməd oğlu Əlizadəyə

İcra baş idarəsinin rəisi Nurəddin Yusif oğlu Mustafayevə.

**3.** Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidməti rəisinin müavinləri Məhərrəm Allahverdi oğlu Qafarova və Oqtay İlyas oğlu Məmmədova ədliyyə general-mayoru ali xüsusi rütbəsi verilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 noyabr 2018-ci il.**

## Azərbaycan Respublikasının hakimlərinə və ədliyyə orqanları işçilərinə fəxri adların verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan ədliyyəsinin yaranmasının 100 illiyi münasibətilə və Azərbaycan Respublikasının məhkəmə və ədliyyə orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar hüquqşünas"**

Cavadov Fuad Musa oğlu
Mirzəliyev Əsəd Abdulla oğlu
Nəsibov Hafiz Qənbər oğlu
Zahirov Vilayət Həsən oğlu

**"Əməkdar mühəndis"**

Məmmədov Çingiz Ələddin oğlu

**"Əməkdar həkim"**

Qurbanov İftixar İlham oğlu

**"Əməkdar tibb işçisi"**

Əsgərov Səttar Ələsgər oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 noyabr 2018-ci il.**

## B.H.Salayevin Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasının rəisi təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Baba Hacı-Baba oğlu Salayev Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasının rəisi təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 noyabr 2018-ci il.**

## P.H.Süleymanovun Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasının rəisi vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Pənah Hüseyn oğlu Süleymanov Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasının rəisi vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 noyabr 2018-ci il.**

## "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1312-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 5 noyabr tarixli 139 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1312-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 5 noyabr tarixli 139 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 11, maddə 903; 2007, N 3, maddə 229, N 6, maddə 607; 2014, N 7, maddə 799; 2017, N 5, maddə 774) aşağıdakı dəyişikliklər edilsin:

*3.1.* aşağıdakı məzmunda 3.5-1-ci bənd əlavə edilsin:

"3.5-1. həmin Qanunun 32.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti və Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirirlər;";

*3.2.* 3.9-cu bəndə "Dövlət Təhlükəsizliyi Xidməti" sözlərindən sonra "(xarici dövlətlərdə müvəqqəti yaşayan vətəndaşlara münasibətdə Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəyini nəzərə almaqla)" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 noyabr 2018-ci il.**

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında" 2002-ci il 12 dekabr tarixli 823 nömrəli, "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2004-cü il 5 mart tarixli 597-IIQD nömrəli Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 23 aprel tarixli 53 nömrəli, "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2004-cü il 5 mart tarixli 597-IIQD nömrəli Qanununun icrasının təmin edilməsi barədə" 2005-ci il 18 iyul tarixli 262 nömrəli və "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1181-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2018-ci il 18 iyul tarixli 212 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının "Sərhəd qoşunları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2018-ci il 12 iyun tarixli 1180-VQD nömrəli və "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" 2018-ci il 12 iyun tarixli 1181-VQD nömrəli qanunlarının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 12 dekabr tarixli 823 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 12, maddə 718; 2007, N 5, maddə 460, N 11, maddə 1117; 2008, N 6, maddələr 496, 497; 2009, N 12, maddə 983; 2010, N 2, maddə 83, N 3, maddə 182; 2011, N 2, maddə 85; 2012, N 11, maddə 1115; 2014, N 10, maddə 1180; 2015, N 8, maddə 913; 2016, N 5, maddə 880, N 6, maddə 1031; 2017, N 3, maddə 388, N 6, maddə 1070, N 9, maddə 1636; 2018, N 5, maddə 943) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

*1.1.* 3-cü hissədə və 17.9-cu bənddə "çevik qüvvələr" sözləri "çevik hərəkət qüvvələri" sözləri ilə əvəz edilsin;

*1.2.* 9.3-cü bənddə "Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Hava hücumundan müdafiə qoşunları və hərbi hava qüvvələrinə onlar tərəfindən " sözləri "Azərbaycan Ordusuna" sözləri ilə əvəz edilsin;

*1.3.* 9.6-cı bənddə "Sərhəd qoşunları" sözləri "Sərhəd mühafizə orqanları" sözləri ilə əvəz edilsin;

*1.4.* 9.19-cu bənddə "Müdafiə Nazirliyi" sözləri "Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti" sözləri ilə əvəz edilsin;

*1.5.* 11.10-cu bənddə "sərhəd xidməti orqanları" sözləri "sərhəd mühafizə orqanları" sözləri ilə əvəz edilsin;

*1.6.* 17.8-ci bənddə "çevik qüvvələrin" sözləri "çevik hərəkət qüvvələrinin" sözləri ilə əvəz edilsin;

*1.7.* 17.27-ci bənddə "Silahlı Qüvvələrə" sözləri "Azərbaycan Ordusuna" sözləri ilə əvəz edilsin.

**2.** "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2004-cü il 5 mart tarixli 597-IIQD nömrəli Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 aprel tarixli 53 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 4, maddə 233; 2008, N 3, maddə 168; 2009, N 7, maddə 532; 2018, N 9, maddə 1831) aşağıdakı dəyişikliklər edilsin:

*2.1.* 2.1.2-ci yarımbənd üzrə:

2.1.1. "9-cu maddənin birinci hissəsində," sözləri çıxarılsın;

2.1.2. "birinci və ikinci hissələrində" sözləri "ikinci hissəsində" sözləri ilə, "5-ci və 6-cı" sözləri "5-ci (birinci halda) və 6-cı (ikinci halda)" sözləri ilə əvəz edilsin;

2.1.3. "dördüncü" sözündən sonra və "cümlələrində" sözündən əvvəl "(birinci halda)" sözləri əlavə edilsin;

*2.2.* 2.6-cı bənddə "Sərhəd qoşunları" sözləri "Sərhəd mühafizə orqanları" sözləri ilə əvəz edilsin;

*2.3.* 2.6.1-ci yarımbənddən "və 12-ci maddənin ikinci hissəsində" sözləri çıxarılsın;

*2.4.* 2.6.2-ci yarımbənddə "hissəsində" sözü "hissəsinin birinci cümləsində və ikinci cümləsində (ikinci halda)" sözləri ilə əvəz edilsin;

*2.5.* 2.6.3-cü yarımbənddə "ikinci və üçüncü hissələrində" sözləri "üçüncü hissəsində" sözləri ilə, "Müdafiə Nazirliyi" sözləri "Müdafiə Sənayesi Nazirliyi" sözləri ilə əvəz edilsin;

*2.6.* 2.6.4-cü yarımbəndə "dördüncü hissəsində" sözlərindən sonra "(birinci halda)" sözləri əlavə edilsin;

*2.7.* 2.6.5-ci yarımbənd ləğv edilsin.

**3.** "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2004-cü il 5 mart tarixli 597-IIQD nömrəli Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 18 iyul tarixli 262 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, N 7, maddə 598; 2008, N 6, maddə 496; 2017, N 5, maddə 800) 1.5-ci bəndi ləğv edilsin.

**4.** "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1181-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 212 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, N 7 (I kitab), maddə 1498) 3.2-ci bəndində "5-ci, 6-cı" sözləri "5-ci (ikinci halda), 6-cı (birinci halda)" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 20 noyabr 2018-ci il.**

*Hikmət Hacıyev:*

# Prezident İlham Əliyevin Belarusa rəsmi səfəri ikitərəfli əlaqələrimizin strateji tərəfdaşlıq xarakteri daşıdığını bir daha təsdiq etdi

**Azərbaycan Respublikası ilə Belarus Respublikası arasındakı münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır. Bu münasibətlərin formalaşmasında və inkişafında dövlətlərimizin başçıları arasındakı səmimi dostluq münasibətləri, dialoq və qarşılıqlı anlaşma mühüm rol oynayır.**

Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasına rəsmi səfərinin nəticələri barədə AZƏRTAC-a açıqlama verən Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev qeyd edib ki, dövlət başçıları tərəfindən müəyyən olunan tapşırıqlar əsasında əməkdaşlığın hərtərəfli inkişafının məqsədləri müəyyənləşdirilir. İndiyədək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Belarusa beş dəfə, Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko isə Azərbaycana dörd dəfə rəsmi səfər edib. Bu rəsmi səfərlərin intensivliyi Azərbaycan-Belarus əlaqələrinin inkişaf dinamikasından xəbər verir.

"Dövlətimizin başçısının Belarusa budəfəki rəsmi səfəri ilə bağlı bir məqamı xüsusilə qeyd etməliyəm ki, protokola görə dövlət başçıları arasında təkbətək görüş 45 dəqiqə nəzərdə tutulsa da, həmin görüş 2 saatdan artıq davam etdi. Bir daha qeyd etmək istərdim ki, bu, prezidentlər arasında olan səmimi dostluğun və Belarus-Azərbaycan əməkdaşlığının məzmun və mahiyyətinin, necə zəngin xarakter daşımasının növbəti bariz nümunəsidir", - deyə o əlavə edib.

Prezident Administrasiyasının rəsmisi deyib ki, səfər zamanı dövlət başçılarının iştirakı ilə 9 sənəd imzalandı. Bu sənədlər Azərbaycan ilə Belarus arasında iqtisadiyyat, ticarət, nəqliyyat, energetika, hüquq-mühafizə, hərbi-texniki və digər sahələrdə əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur. Ən vacib sənəd isə dövlət başçıları tərəfindən imzalanmış birgə bəyanatdır. Bəyanatın 6-cı maddəsində Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə əlaqədar məqamlar öz əksini tapıb. Bəyanatda qeyd olunur: "Tərəflər, yəni dövlət başçıları Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn qəbul edilmiş norma və prinsipləri, xüsusilə dövlətlərin suveren bərabərliyi, tərəflərin toxunulmazlığı, ərazi bütövlüyü və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və ATƏT-in qərarları əsasında tezliklə sülh yolu ilə həllinin vacibliyini qeyd edirlər". Bu, bir daha onu göstərir ki, beynəlxalq ictimaiyyət, o cümlədən Belarus Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəkləyir. Münaqişənin həllinin əsasları da beynəlxalq ictimaiyyət üçün aydın xarakter daşıyır ki, bu da Azərbaycanın ərazi bütövlüyü və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələridir. Həmçinin Belarus ilə Azərbaycan arasında olan yüksək etimadın təcəssümü və göstəricisidir ki, ölkələrimiz üzv olmadığı beynəlxalq təşkilatlarda da biri-birini dəstəkləyir. Dövlətimizin başçısı mətbuata bəyanatında da qeyd etdi ki, bu, sanki avtomatik xarakter daşıyır. Yəni, hər hansı bir məsləhətləşmə olmadan belə, Azərbaycan və Belarus üzv olmadıqları, biri üzv olmadığı beynəlxalq təşkilatlarda öz dəstəyini verir və bu dəstək mütəmadi, davamlı xarakter daşıyır. Həmçinin Azərbaycan ilə Belarus arasında hərbi-texniki sahədə çox sıx əməkdaşlıq var. Səfər çərçivəsində hərbi-texniki əməkdaşlığın inkişafı ilə əlaqədar da Anlaşma Memorandumu imzalandı. Bu Memorandumdan irəli gələrək hava hücumlarından müdafiə sistemlərinin, müxtəlif hücum vasitələrinin, o cümlədən atəş-idarəetmə sistemlərinin alınması üzrə kontraktlar həyata keçiriləcək".

Hikmət Hacıyev bildirib ki, bu səfər Azərbaycan-Belarus əlaqələrinin strateji tərəfdaşlıq xarakteri daşıdığını bir daha təsdiq etdi. İmzalanmış sazişlər, aparılan danışıqlar Azərbaycan-Belarus əlaqələrinin hərtərəfli inkişafı üçün yeni perspektiv imkanlar açıb. Hesab edirik ki, qarşıya qoyulan məqsəd və məramların hökumətlərarası komissiya və digər işçi qruplar vasitəsilə həyata keçirilməsi üçün intensiv işlər bundan sonra da davam etdiriləcək.

2019-cu ildə Belarus ikinci Avropa Oyunlarına ev sahibliyi edəcək. Bildiyiniz kimi, Avropa Oyunları konsepsiyasının müəllif və təşəbbüskarı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdir. Azərbaycan birinci Avropa Oyunlarına uğurla ev sahibliyi etdi. Azərbaycan Olimpiya hərəkatının məqsəd və məramlarına sadiqliyini nümayiş etdirdi, bu məqsəd və məramların Avropa qitəsində inkişafına öz töhfəsini verdi. Azərbaycan bu sahədə öz təcrübəsini dost və tərəfdaş ölkə olan Belarus ilə açıq şəkildə bölüşür. Belarus da öz növbəsində, Azərbaycanın bu dəstəyini, aparılan təcrübə mübadiləsini yüksək qiymətləndirir. Bu məqamlar Belarusun dövlət başçısı tərəfindən də qeyd olunub.

**AZƏRTAC**

# Baş nazir Novruz Məmmədov ATƏM-in Minsk konfransının ilk sədri ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov noyabrın 20-də italiyalı diplomat və ATƏM-in (hazırkı ATƏT) Minsk konfransının ilk sədri Mario Raffaelli ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Mario Raffaellinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətindəki fəaliyyətini xatırladan Novruz Məmmədov Ermənistanın qeyri-konstruktiv mövqeyi nəticəsində problemin hələ də həllini tapmamasını təəssüflə qeyd edib. Baş nazir Novruz Məmmədov münaqişənin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri, ərazi bütövlüyü və suverenliyi çərçivəsində həll edilməli olduğunu vurğulayıb, məsələnin ədalətli həllinə beynəlxalq ictimaiyyətin diqqətinin daha da artırılmasının zəruriliyini diqqətə çatdırıb.

Mario Raffaelli "Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-qanuni fəaliyyət və üçüncü tərəflərin məsuliyyəti" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak etmək üçün Bakıda səfərdə olduğunu söyləyib. O, ölkəmizlə, eyni zamanda, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kifayət qədər məlumatlı olduğunu bildirib, 25 il sonra yenidən Azərbaycanda olmasından məmnunluğunu ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# İzmirdə Türkdilli Ölkələrin Parlament Assambleyasının Şura iclası keçirilib

*Azərbaycan Milli Məclisi sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti iclasda iştirak edib*




**Türkiyənin İzmir şəhərində Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) 8-ci Şura iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanı Milli Məclisin sədri Oqtay Əsədovun rəhbərliyi ilə parlament nümayəndə heyəti təmsil edib. Nümayəndə heyətinin tərkibinə Milli Məclisin səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, deputatlardan Hikmət Məmmədov, Nizami Cəfərov, İlham Əliyev, Sevinc Hüseynova, Sədaqət Vəliyeva, Ağalar Vəliyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildir.

Şura iclasına TÜRKPA-nın baş katibi və təşkilata digər üzv ölkələrin - Türkiyə, Qazaxıstan və Qırğızıstan parlamentlərinin nümayəndə heyətləri qatılıb.

İclasdakı çıxışında ötən on il ərzində TÜRKPA-nın ciddi siyasi çəkiyə malik olan beynəlxalq təşkilat kimi formalaşdığını diqqətə çatdıran Milli Məclisin sədri Oqtay Əsədov qeyd edib ki, türkdilli ölkələrin ortaq parlament məclisinin fəaliyyəti dövlətlərimiz və xalqlarımız arasında dostluq və qardaşlıq münasibətlərinin dərinləşməsinə kömək göstərməyə yönəlib. Siyasi, iqtisadi, mədəni və digər əlaqələrimizin həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə inkişafına TÜRKPA-nın verdiyi töhfənin ildən-ilə artması təşkilatın fəaliyyətinin səmərəli şəkildə qurulduğunu sübut edir. Təşkilatımız dünyanın 152 ölkəsinin üzv olduğu Parlamentlərarası İttifaqda, İslam Əməkdaşlıq Təşkilatının Parlament İttifaqında, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisində, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə, Asiya Parlament Assambleyasında müşahidəçi statusu alıb, ATƏT-in Parlament Assambleyasının fəaliyyətində xüsusi qonaq kimi iştirak etməsi barədə razılıq əldə edilib. Coğrafi-siyasi cəhətdən çox önəmli bölgələri əhatə edən Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılması türk dünyasının beynəlxalq aləmdə artan nüfuzundan xəbər verir. Üzv ölkələrin parlamentləri bu təşkilat çərçivəsində sıx əməkdaşlıq edərək bir sıra uğurlara imza atıblar. Azərbaycan parlamenti bu uğurlara sevinir və təşkilata ən yüksək səviyyədə dəstək verir. TÜRKPA-nın Beynəlxalq Katibliyinin Bakı şəhərində səmərəli fəaliyyəti üçün hər cür şərait yaradılıb.

Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırım, Qazaxıstan Parlament Məclisinin sədri Nurlan Niqmatulin və Qırğızıstan Joqorku Keneşinin sədri Dastanbek Cumabekov TÜRKPA-nın on illik şərəfli inkişaf yolundan, əməkdaşlığın daha da dərinləşdirilməsi istiqamətində görülən işlərdən, qarşıda duran vəzifələrdən danışıblar.

Sonra baş katib Altınbek Mamayusupovun təşkilatın 2018-ci ildəki fəaliyyətinə dair hesabat məruzəsi dinlənilib.

Assambleya Şurasının 8-ci iclasında təşkilata sədrlik Qırğızıstandan Türkiyəyə keçib.

* * *

Daha sonra Türkdilli Ölkələrin Parlament Assambleyasının yaranmasının 10 illik yubileyi ilə əlaqədar "TÜRKPA-nın ilk 10 ili və parlamentlərarası əməkdaşlığın gələcəyi: əməkdaşlığa dair yeni yanaşmalar" mövzusunda üç paneldən ibarət konfrans keçirilib.

Konfransda rəsmi şəxslər, deputatlar, tanınmış elm və mədəniyyət xadimləri, türkoloq alimlər, beynəlxalq təşkilatların rəhbər şəxsləri iştirak ediblər.

Əvvəlcə TÜRKPA-nın yaranması və inkişaf yolunu əks etdirən film nümayiş olunub. Filmdə TÜRKPA-nın Bakı şəhərində yerləşən Mərkəzi Qərargahının təməlinin qoyulması, binanın açılışı, o cümlədən qurumun ölkəmizdə keçirdiyi tədbirlərdən, paytaxtımızın tarixi və müasir mənzərəli yerlərindən kadrlar əks olunub.

Konfransın açılışında Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədovun, Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırımın, Qazaxıstan Parlament Məclisinin sədri Nurlan Niqmatulinin, Qırğızıstan Joqorku Keneşinin sədri Dastanbek Cumabekovun və Macarıstan Milli Assambleyasının sədri Laszlo Köverinin çıxışları dinlənilib.

Çıxışında türkdilli ölkələrin ortaq parlament məclisinin yaranmasının tarixi zərurətdən irəli gəldiyini söyləyən Milli Məclisin sədri Oqtay Əsədov bildirib ki, əsrlərboyu türk dünyasının mütəfəkkir insanlarını düşündürən türk birliyi ideyasının həyata keçməsi üçün real şərait yalnız XX əsrin sonlarında formalaşıb. Sovetlər Birliyinin dağılması, dünyanın siyasi xəritəsinə Türkiyə Cümhuriyyəti ilə yanaşı, beş yeni türkdilli dövlətin əlavə olunması xalqlarımızın tarixi taleyinin öz məcrasına qayıtmasına təkan verib. Türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşlərinin keçirilməyə başlanılması, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması, Türkdilli Ölkələrin Parlament Assambleyasının, eləcə də TÜRKSOY-un, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun, Beynəlxalq Türk Akademiyasının və digər təşkilatların qurulması göstərdi ki, dost və qardaş xalqlarımız inteqrasiya üçün yaranan yeni imkanları lazımınca dəyərləndirə biliblər.

Türkdilli xalqları bir-birinə bağlayan dəyərləri böyük mənəvi sərvət kimi qiymətləndirən parlamentin sədri məmnunluqla qeyd edib ki, müstəqil dövlətlərimiz bütün sahələrdə uğurla əməkdaşlıq edir və bir-birinə dəstək olurlar. Şübhə yoxdur ki, möhkəm təməl üzərində qurulan iş birliyimiz ölkələrimizin yerləşdiyi bölgələrin tərəqqi və çiçəklənmə zonasına çevrilməsinə gətirib çıxaracaq.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin regional və beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhdid olduğunu diqqətə çatdıran Milli Məclisin sədri əminliyini ifadə edib ki, dünyadakı bütün münaqişələr hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normaları və prinsipləri, xüsusən onların arasında başlıca prinsip olan dövlətlərin sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyü prinsipi əsasında tez bir zamanda həll edilməlidir. İnanıram ki, bölgədə möhkəm sülhün bərpa edilməsi burada yaşayan bütün xalqların mənafelərinə cavab verər.

İzmir bölgəsinin strateji imkanlara malik olduğunu söyləyən TBMM-in sədri Binəli Yıldırım diqqətə çatdırıb ki, bölgənin dəmir yolu şəbəkəsinin Bakı-Tbilisi-Qars yoluna birləşdirilməsi və bununla da Qafqaz ilə Orta Asiya arasında daha etibarlı nəqliyyat bağlantısının qurulması hədəflənir. TÜRKPA-nın on illik fəaliyyətini yüksək dəyərləndirən Türkiyə parlamentinin sədri vurğulayıb ki, türkdilli xalqlar tarixin heç bir dövründə indiki qədər yaxın münasibətdə və geniş əməkdaşlıq imkanında olmayıblar. O, əminliklə qeyd edib ki, türkdilli dövlətlərin gələcək inkişafına TURKPA daha böyük töhfələr verəcək.

TÜRKPA-nın yaranmasını və əldə etdiyi uğurları tarixi missiya kimi dəyərləndirən Qazaxıstan Parlament Məclisinin sədri Nurlan Niqmatulin vurğulayıb ki, təşkilat ötən dövrdə üzərinə düşən vəzifələri uğurla həyata keçirib. Mədəni, humanitar, iqtisadi və digər sahələrdə üzv dövlətlər arasında əlaqələrin genişlənməsi və əməkdaşlığın yüksəlişi naminə köklü layihələr həyata keçirilib. Əməkdaşlıq, əlaqələrin genişlənməsi, sülhə və inkişafa töhfə vermək bütün tərəflərin maraqlarını təmin edir.

Ölkəsinin təşkilata sədrliyi dövründə TÜRKPA-nın qazandığı nailiyyətləri ortaq sərvət kimi dəyərləndirən Qırğızıstan Joqorku Keneşinin sədri Dastanbek Cumabekov diqqətə çatdırıb ki, müasir dövrdə dünyada baş verən proseslər göstərir ki, xalqlarımızın və ölkələrimizin inkişafı və təhlükəsizliyi əməkdaşlığın genişləndirilməsindən, əlaqələrin daha da sıxlaşdırılmasından keçir. Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin təşəbbüsü ilə təsis olunan TÜRKPA-nın ötən dövrdə böyük inkişaf yolu keçdiyini xatırladan parlament sədri qurumun səmərəli fəaliyyəti üçün Bakıda yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edib.

Macarıstan Milli Assambleyasının sədri Laszlo Köver ölkəsinin türkdilli dövlətlərlə əlaqələrə xüsusi diqqət verdiyini vurğulayıb. Tarixi proseslərə, türkdilli xalqların irsinə və digər mühüm məqamlara toxunan Assambleya sədri bildirib ki, Macarıstan TÜRKPA-ya üzv dövlətlərlə əməkdaşlığa, türkdilli xalqlarla münasibətlərin inkişafına böyük önəm verir.

Çıxışlarda TÜRKSOY, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu və Beynəlxalq Türk Akademiyası kimi təşkilatların fəaliyyətinin əhəmiyyəti qeyd edilib. Vurğulanıb ki, ölkələrimizin sürətli inkişafının təmin olunmasında qarşılıqlı faydalı əməkdaşlıq böyük gücə malik olduğu kimi, yüksək elm və təhsilin də mühüm əhəmiyyəti var. Odur ki, bir sıra sahələrdə, həmçinin elm və təhsildə standartların müəyyən olunması böyük əhəmiyyət daşıyır.

Sonra Qırğızıstan Joqorku Keneşinin sədri Dastanbek Cumabekov "TÜRKPA-nın xidmətlərə görə" medalı ilə təltif olunub.

Daha sonra konfrans panellər üzrə davam etdirilib. Birinci panelə professor Zeki Kaymaz, ikinci panelə professor Fikret Türkmen, üçüncü panelə isə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva sədrlik edib.

**AZƏRTAC**

# DOST Agentliyinin konsepsiyasının təqdimatı olub




**Noyabrın 20-də Prezident İlham Əliyevin 2018-ci il 9 avqust tarixli Fərmanına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılmış Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin - DOST Agentliyinin konsepsiyasının, ölkə başçısının 2018-ci il 5 sentyabr tarixli Fərmanı ilə yaradılmış "e-sosial" internet portalının, nazirliyin yeni loqosunun və rəsmi internet səhifəsinin (www.sosial.gov.az) təqdimatı olub.**

AZƏRTAC xəbər verir ki, tədbirdə hökumət rəsmiləri, Milli Məclisin deputatları, beynəlxalq təşkilatların, müxtəlif ölkələrin səfirliklərinin, elm-təhsil qurumlarının, QHT-lərin, biznes strukturlarının nümayəndələri iştirak ediblər.

Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov tədbirdə çıxış edərək ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsinin Prezident İlham Əliyevin sosial siyasətinin mühüm istiqamətini təşkil etdiyini bildirib. O, ötən dövr ərzində bu istiqamətdə nəzərəçarpan irəliləyişlər olduğunu qeyd edib. Dövlət sosial xidmətlər sisteminin innovativ həllərin tətbiqi üzərində təkmil şəkildə qurulması və şəffaflaşdırılması üçün aparılan islahatlardan danışan Əli Əhmədov DOST Agentliyi və mərkəzlərinin bu istiqamətdə mühüm keyfiyyət dəyişikliyinə imkan yaradacağını diqqətə çatdırıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dövlət sosial xidmətləri sahəsində vətəndaş məmnunluğuna nail olunmasının ölkə başçısının sosial sahə ilə bağlı islahatlar proqramının başlıca xətti olduğunu vurğulayıb. O, Prezident İlham Əliyevin 2018-ci il 9 avqust tarixli "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı ilə yaradılan DOST Agentliyinin və mərkəzlərinin bu məqsədə nail olunmasına imkan verəcəyini deyib. Bildirilib ki, DOST layihəsinin həyata keçirilməsi əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə xidmətlərin tam şəffaf, vətəndaşlarla açıq iş şəraitində, nəzakətli şəkildə, sadə və əlçatan prosedurlarla təqdim edilməsinə imkan verməklə ölkəmizin bu sahə üzrə yeni brendini formalaşdıracaq. Layihənin icrası yerli və beynəlxalq ekspertlərin iştirakı ilə, mütərəqqi dünya praktikasının öyrənilməsi şəraitində aparılır. Görülən işlərin mühüm tərkib hissəsi kimi artıq DOST Agentliyinin konsepsiyası hazırlanıb. Nəticədə 124 xidmət "vahid pəncərə"də vətəndaşlara təqdim olunub.

Qeyd edilib ki, vətəndaşların ənənəvi və ya elektron formada dövlət sosial xidmətləri ilə bağlı nazirliyə müraciətləri əsasında onlarla bağlı toplanmış məlumatları əhatə edən "e-sosial" internet portalı da yaradılıb. Bu işlərlə bərabər, nazirliyin müasir iş prinsiplərini və innovativ yeniliklərə açıq olmasını, cəmiyyətlə münasibətlərdə əsas yanaşma və hədəflərini özündə əks etdirən yeni loqotipi hazırlanıb, həmçinin rəsmi internet saytı yenidən qurulub.

Sonra "e-sosial" internet portalının, DOST Agentliyinin konsepsiyasının, nazirliyin yeni loqosunun və rəsmi internet səhifəsinin (www.sosial.gov.az) təqdimatı olub.

Təqdimatlar zamanı qeyd olunub ki, "e-sosial" internet portalı sosial reyestr xarakteri daşıyır. Portal vətəndaşlara ənənəvi və ya elektron formada dövlət sosial xidmətləri ilə bağlı nazirliyə müraciətləri əsasında onlarla bağlı toplanmış məlumatlara çıxış imkanı verir. Portalda vətəndaşa "proaktiv xəbərdarlıqlar", "məsləhətlər" bölməsi fəaliyyət göstərir. Bir sıra hallar üçün vətəndaşa əvvəlcədən mütəmadi xatırlatmalar edilməklə hüquqları barədə məlumat veriləcək. Nazirlik müvafiq hallarda portal vasitəsilə vətəndaşlarla bağlı artıq onların müraciətini gözləmədən, intellektual analizlər apararaq interaktiv təşəbbüslərlə çıxış edəcək. Portala istifadəçi adı və şifrə əldə etməklə e-imza və ASAN imza ilə daxil olmaq mümkündür.

Növbəti təqdimat çərçivəsində DOST Agentliyinin konsepsiyasının prioritetləri, yol xəritəsi, DOST Agentliyi və mərkəzlərinin fəaliyyətinin təşkili üçün müvafiq hüquqi çərçivə, qanunvericilik layihələri, 124 xidmət üzrə pasportlar, 116 vəzifə təlimatı, xidmətlərin göstərilməsi qaydaları, "Gənc DOST" proqramı, eləcə də mərkəzlərin elektron infrastrukturunun formalaşdırılması istiqamətində aparılan işlər və onların nəticələri barədə məlumat verilib. DOST regional proqramından bəhs olunub, 2019-2025-ci illərdə Bakıda və respublikanın regionlarında 31 DOST mərkəzinin yaradılacağı bildirilib. DOST-un əsas missiyasının ölkə əhalisinin DOST mərkəzləri şəbəkəsi və müasir texnologiyaların tətbiqi ilə əmək, məşğulluq və sosial müdafiə xidmətlərinə rahat çıxışına imkan yaradılması olduğu diqqətə çatdırılıb. E-sosial, e-pensiya, e-məşğulluq və digər alt sistemlər üzrə təqdim olunacaq xidmətlər, əyani müraciət edənlərlə yanaşı, səyyar formada əhaliyə göstəriləcək xidmətlər, məsləhət və məlumat xidmətlərinin təşkili üzrə görüləcək işlər və s. barədə məlumat verilib.

Tədbir iştirakçıları nazirliyin yeni loqosu və saytı ilə tanış olublar. Bildirilib ki, loqoda istifadə olunan komponentlər nazirliyin məram və hədəflərini ifadə edir, "İnsan amili ölkəmizdə aparılan siyasətin ana xəttidir" mesajını çatdırır. Bu komponentlər sosial müdafiədə aktiv dəstəyi, demoqrafik inkişafı, etibarlı sosial müdafiə sistemi ilə əhatə olunmanı, sosial rifahı və cəmiyyətlə münasibətlərdə şəffaflığı ifadə edir. Yeni sayt - www.sosial.gov.az istifadəçiyə nazirlik, nazirliyin fəaliyyət sahələri, aidiyyəti xidmətlər, habelə müvafiq qanunvericilik barədə məlumat verir, bu xidmətlərə müraciət üçün prosedurları sadə şəkildə izah edir, həmçinin e-xidmətlərə birbaşa çıxışa imkan yaradır.

Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev çıxış edərək əhalinin sosial rifahının və xidmətlərə əlçatanlığın təmin edilməsi istiqamətində görülən işləri yüksək qiymətləndirib, təqdimatlarla bağlı fikirlərini bölüşüblər.

**AZƏRTAC**

# Nyu-Yorkda Amerika Azərbaycanlılarının Koordinasiya Şurası təsis edilib

**Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndə heyəti ABŞ-a səfər çərçivəsində Nyu-Yorkda Amerika Azərbaycanlılarının Koordinasiya Şurasının təsis yığıncağında da iştirak edib.**

Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, yığıncağa Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov, BMT yanında daimi nümayəndə Yaşar Əliyev, 60-dan çox diaspor nümayəndəsi və rəhbəri də qatılıb.

Komitə sədri Fuad Muradov çıxış edərək xaricdə yaşayan soydaşlarımıza diqqət və qayğı göstərilməsinin Azərbaycan dövlətinin siyasətində prioritet olduğunu deyib. Son dövrlər diaspor sahəsində görülən işlər, soydaşlarımızın birgə fəaliyyəti haqqında razılaşmaların əldə edilməsi, koordinasiya şuraları və perspektivlər barədə məlumat verib.

Sonra Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətinə dair videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən soydaşlarımız Amerikada yaşayan azərbaycanlıların problemlərindən danışıb, ana dili məktəblərinin sayının artırılmasının zəruriliyi bildirib, Amerikada yaşayan istedadlı gənclərimizə diqqətin artırılması istiqamətində təkliflər səsləndiriblər. Eyni zamanda, Amerikadakı soydaşlarımızın və diaspor təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsinin vacibliyi vurğulanıb.

Toplantıda Amerika Azərbaycanlılarının Koordinasiya Şurası təsis edilib və Şuranın tam şəkildə fəaliyyətə başlaması üçün müvafiq işçi qrupu yaradılıb.

Soydaşlarımızın fikir və təkliflərinin nəzərə alınacağını bildirən Dövlət Komitəsinin sədri qarşıya qoyulan məsələlərin həll edilməsi üçün koordinasiyalı fəaliyyətin vacib olduğunu deyib. Yalnız bir ölkədə, bir qitədə deyil, bütün dünyada soydaşlarımızın müəyyən bir şəbəkələşməsinin zəruriliyini vurğulayıb.

**AZƏRTAC**

# YAP Qubadlı rayon təşkilatında partiyanın yaranmasının 26 illiyi qeyd olunub





**Noyabrın 20-də Sumqayıt şəhərində yerləşən Yeni Azərbaycan Partiyası (YAP) Qubadlı rayon təşkilatının akt zalında partiyanın yaranmasının 26 illiyi qeyd olunub. Əvvəlcə tədbir iştirakçıları YAP-ın yaradıcısı, ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.**

AZƏRTAC xəbər verir ki, tədbir Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayıb. Yeni Azərbaycan Partiyasının banisi, ümummilli lider Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra YAP-ın yaranmasına və fəaliyyətinə həsr olunmuş videoçarx göstərilib.

YAP Qubadlı rayon təşkilatının sədri Allahverdi Haxverdiyev məruzə ilə çıxış edərək bildirib ki, Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə ziyalıların təşəbbüsü və fəal iştirakı ilə yaranıb. O ağır günlərdə Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə xalqın sınanmış lideri və müdrik oğlu Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər. Məhz belə bir ağır vaxtda böyük şəxsiyyət, əvəzolunmaz siyasi xadim Heydər Əliyevin rəhbərliyi altında 1992-ci ilin noyabr ayının 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilərək partiyanın əsası qoyuldu.

Qeyd olunub ki, YAP Qubadlı rayon təşkilatı fəaliyyətində partiyanın Nizamnamə və Proqram müddəalarını, YAP-ın qurultaylarının qərarlarını, icra katibliyinin tapşırıq və tövsiyələrini rəhbər tutur. Hazırda rayonda 80 ərazi ilk partiya təşkilatı və 3600 üzv var. Üzvlərdən 1982-si qadın, 1618-i kişilərdir. Onların da 1696 nəfəri gənclərdir.

Çıxışının sonunda Allahverdi Haxverdiyev deyib: "Ümummilli Liderimizin layiqli davamçısı olan Prezident İlham Əliyevin apardığı məqsədyönlü və uzaqgörən siyasət bizi öz doğma torpaqlarımıza qaytaracaq. Dövlət bayrağımız Şuşada, Xankəndidə, Qubadlıda və digər işğal olunmuş rayonlarımızda dalğalanacaq".

Sonra YAP Qubadlı rayon gənclər təşkilatının sədri Aqil Quliyev bildirib ki, öz işini Rayon Gənclər və İdman İdarəsi ilə əlaqəli şəkildə quran təşkilat rayon gənclərinin zərərli vərdişlərdən çəkindirilməsi ilə bağlı maarifləndirici tədbirlər həyata keçirir. Prezident İlham Əliyevin gənclərlə bağlı apardığı məqsədyönlü siyasət respublikanın hər yerində olduğu kimi, Qubadlı rayonunda da uğurla həyata keçirilir. "Hər il beynəlxalq yarışlarda iştirak etmək üçün idmançılarımıza kömək göstərilir. Elə bunun nəticəsidir ki, beynəlxalq və respublika əhəmiyyətli yarışlarda fəxri kürsüdə yer tutan idmançılarımızın sayı ilbəil artır. Gənclərə rayonda göstərilən qayğı təşkilatın Gənclər Birliyinin fəaliyyətini genişləndirir və gənclərin partiyaya axınına təkan verir. Bunun nəticəsidir ki, son illərdə partiyaya üzv qəbul edilənlərin əksəriyyəti gənclərdir", - deyə Aqil Quliyev vurğulayıb.

Daha sonra YAP Qubadlı rayon Qadınlar birliyinin sədri Badam Hüseynova çıxış edib. O qeyd edib ki, Yeni Azərbaycan Partiyasının Proqramında irəli sürülmüş əsas vəzifələr dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsidir. Partiya məfkurəsinin əsasını təşkil edən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, yaradıcı təkamül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri YAP-ın qarşısında duran vəzifələrin həyata keçirilməsinin ideya təminatı olaraq, mahiyyətcə Azərbaycanın siyasi gələcəyinin də ideya bazasını şərtləndirib.

Qubadlı rayon Xıdırlı kənd tam orta məktəbinin direktoru, Şura üzvü Savalan İmanov, YAP Qubadlı rayon Çaytumas ərazi təşkilatının sədri, Şura üzvü Malik Atakişiyev və digərləri çıxışlarında bildiriblər ki, respublikanın və rayonun ictimai-siyasi həyatında YAP Qubadlı rayon təşkilatı hər zaman fəal iştirakı ilə seçilən təşkilatlarındandır. Diqqətə çatdırılıb ki, ərazi ilk partiya təşkilatlarında aparılan işin vəziyyəti İdarə Heyətinin iclaslarında müzakirəyə çıxarılır, qəbul olunan qərarların icrasına nəzarət təmin olunur. Bildirilib ki, YAP-ın ictimai-siyasi həyatında göstərdikləri səmərəli fəaliyyətə görə partiyanın 90 üzvünə təşkilat tərəfindən fəxri fərman və müxtəlif qiymətli hədiyyələr verilib. Rayon təşkilatı tərəfindən partiya üzvü olan imkansız şəxslərə maddi kömək edilib və onların qarşılaşdığı problemlərin aradan qaldırılması üçün müvafiq işlər görülüb.

Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup YAP üzvünə fəxri fərman təqdim olunub, partiyanın sıralarına yeni qəbul olmuş şəxslərə isə üzvlük vəsiqələri təqdim edilib.

**AZƏRTAC**

# Paytaxtın Səbail və Qaradağ rayonlarında iməcilik keçirilib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Bakı şəhərində yaşıllıqların salınması və onların genişləndirilməsinə olan diqqət və qayğısının bariz nümunəsidir ki, hər il paqtaxtın rayonlarında minlərlə yeni ağaclar əkilir, onlara qulluq göstərilir, yeni-yeni yaşıllıq zonaları yaradılır, istirahət parkları salınır.**

Bu işlər çərçivəsində paytaxtın bütün rayonlarında iməciliklər keçirilir. Belə ki, növbəti iməcilik paytaxtımız Bakı şəhərinin Səbail və Qaradağ rayonlarında təşkil olunmuşdur. Hər iki rayonun rəhbərliyi, ictimaiyyət, idarə yə təşkilatların nümayəndələri, təsərrüfat xidmətləri, gənclərin iştirakı ilə Səbail rayonunda Şıx yaşayış massivindəki "Dostluq parkı"nda 200 nəfərin, Qaradağ rayonunda isə Lökbatan dairəsindən Yeni Yasamal yaşayış massivi istiqamətində gedən avtomobil yolunun qərb hissəsində və Lökbatan qəsəbəsində 300 nəfərin iştirakı ilə iməcilik keçirilmişdir.

İməcilik zamanı ərazidə təmizlik işləri görülmüş, mövcud ağacların dibi quru otlardan təmizlənmiş, yeni əkiləcək ağacların damcı üsulu ilə suvarılması üçün su xətləri çəkilmiş, köhnələri yeniləri ilə əvəz olunmuşdur.

Hər iki rayonda keçirilən iməcilikdə Abşeron yarımadasının iqliminə uyğun 1500 ədəd yeni zeytun və badam ağacları əkilmiş, əvvəl əkilən ağaclara qulluq göstərilmişdir. İlboyu göstərilən qulluq nəticəsində ötən il əkilmiş ağacların çox böyük əksəriyyətinin boy atdığı müşahidə olunmuşdur. Bununla da rayonlarda badam ağacları əkilmiş zolaqların və ərazilərin yaradılmasına başlanmışdır.

Paytaxtımızda keçirilən iməcilik və ağacəkmə aksiyaları ekoloji tarazlığın bərpası və ətraf mühitin təhlükəsizliyinin, insanların sağlamlığının təmin edilməsi, şəhərimizin daha da gözəlləşməsi istiqamətində görülən işlərin davamı olmuşdur.

Mövsüm ərzində Bakı şəhərində ərazinin yaşıllaşdırılması, yeni ağacların əkilməsi, yaşıllıqların salınması və abadlıqla bağlı iməciliklər davam etdiriləcəkdir.

**Məhəmməd VƏLİYEV,**
**"Respublika".**

# Daxili İşlər Nazirliyində geniş kollegiya iclası keçirilib

**Noyabrın 20-də Daxili İşlər Nazirliyində (DİN) "Şəhər, rayon polis orqanlarında vətəndaşların müraciətlərinə baxılması və qəbulu işi"nin və "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə"nin vəziyyətinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**





DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, daxili işlər naziri, general-polkovnik Ramil Usubov kollegiya iclasını açaraq, müzakirəyə çıxarılan hər iki məsələnin aktual olduğunu və əməliyyat-xidməti fəaliyyətdə mühüm əhəmiyyət kəsb etdiyini xatırladıb. Nazir vətəndaşların müraciətlərinə baxılmasının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daim xüsusi diqqətində və nəzarətində olduğunu, məhz dövlətimizin başçısının tapşırığına əsasən, son illər mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda mütəmadi olaraq vətəndaşların qəbulunu keçirdiklərini, problemlərini şəxsən dinlədiklərini vurğulayıb.

Qeyd olunub ki, bu mühüm işin məqsədyönlü təşkili, eyni zamanda, vətəndaşların polis orqanlarına inam və etimadının güclənməsinin, vətəndaş məmnunluğunun təmin edilməsinin başlıca şərtlərindən biridir. Həmçinin insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan, cəmiyyətin mənəvi dəyərlərinə böyük zərbə vuran, bir çox ağır cinayətlərin törədilməsinin əsas səbəblərindən olan narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə görülən işlərin vəziyyətinin müzakirə edilməsinin və qarşıda duran vəzifələrin müəyyənləşdirilməsinin vacibliyi də vurğulanıb.

Gündəlikdəki birinci məsələ ilə bağlı DİN katibliyinin rəisi, polis general-mayoru Səfər Əliyev məruzə ilə çıxış edib. O bildirib ki, bütövlükdə "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli Fərmanın və "Açıq hökumətin təşviqinə dair" Milli Fəaliyyət Planının aidiyyəti müddəalarının icrası uğurla davam etdirilir. Son üç ilə yaxın müddətdə nazirliyin rəhbərliyi tərəfindən 6569, o cümlədən kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə respublikanın bölgələri üzrə 2812, habelə ərazi polis orqanlarında 178 mindən çox vətəndaş qəbul edilib. Görülmüş tədbirlərlə cari ilin doqquz ayında Azərbaycan Respublikası Prezidenti Administrasiyasından daxil olan şikayətlərin sayı 23,7 faiz, nazirliyə daxil olan şikayətlərin sayı 17,7 faiz, o cümlədən təkrar şikayətlərin sayı 25,7 faiz azalıb. Ümumilikdə 55 şəhər və rayonun sakinlərindən polis əməkdaşları barədə daxil olan şikayətlərin sayında nəzərəçarpacaq azalma qeydə alınıb. Həmin dövrdə nazirliyə 2 minə yaxın həm fərdi, həm də kollektiv minnətdarlıq məktubları daxil olub.

Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, polis general-mayoru Həzi Aslanov gündəlikdəki ikinci məsələ barədə məruzə edərək bildirib ki, respublikada narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərinin məqsədyönlü təşkilinə, bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsinə nazirlik tərəfindən böyük önəm verilir və davamlı tədbirlər görülür. Yeniyetmə və gənclər arasında narkotik vasitələrdən istifadənin qarşısının alınması, hüquqi maarifləndirmə, sağlam həyat tərzinin təbliği mövzularında təkcə cari ilin doqquz ayında 78 şəhər və rayonda 695 görüş keçirilib. Bu tədbirlərin yarıdan çoxunda polis rəisləri digər hüquq-mühafizə və səhiyyə orqanlarının nümayəndələri ilə birlikdə iştirak ediblər. Həmin müddətdə narkotiklərlə əlaqədar cinayətlər törətmiş 67 nəfərdən ibarət 28 cinayətkar qrup zərərsizləşdirilib, 117,5 kiloqram narkotik vasitənin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı alınıb. Qanunsuz dövriyyədən 960 kiloqrama yaxın müxtəlif növ narkotik vasitə, habelə 3 kiloqramdan çox sintetik tərkibli psixoaktiv maddələr çıxarılıb. Narkotik tərkibli bitkilərin qanunsuz kultivasiyasının və yabanı halda yayılmasının profilaktikası sahəsində həyata keçirilmiş tədbirlərlə 132 ton çətənə və xaş-xaş kolu aşkarlanaraq məhv edilib.

Gündəlikdəki məsələlər ətrafında çıxış edənlər görülmüş işləri, əldə olunmuş nəticələri qeyd etməklə yanaşı, fəaliyyətdə buraxılan bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində kəsərli tədbirlərin həyata keçiriləcəyini bildiriblər.

İclasa yekun vuran daxili işlər naziri, general-polkovnik Ramil Usubov müzakirəyə çıxarılan hər iki məsələ üzrə fəaliyyətin bütövlükdə qənaətbəxş olduğunu vurğulayıb. Nazir qeyd olunan nöqsan və çatışmazlıqların aradan qaldırılmasını tələb edib, konkret tapşırıq və tövsiyələrini verib.

General-polkovnik Ramil Usubov "Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 noyabr tarixli Sərəncamının icrası istiqamətində zəruri tədbirlərin görülməsini tələb edib. Nazir, həmçinin güclü təsirə malik olan narkotiklərin qanunsuz dövriyyəyə girmədən aşkarlanmasının, onları qaçaqmalçılıq yolu ilə ölkəyə gətirən şəxslərin müəyyən edilməsinə yönəlmiş əməliyyat-axtarış tədbirlərinin, eləcə də yeniyetmə və gənclər arasında antinarkotik təbliğatın effektivliyinin daha da artırılmasının vacibliyini diqqətə çatdırıb.

Daxili işlər naziri əminliklə bildirib ki, şəxsi heyət ölkənin qanunlarından, dövlətimizin başçısının fərman və sərəncamlarından irəli gələn tələbləri layiqincə yerinə yetirəcək, xalqa və dövlətə sədaqətlə xidmət edəcək, asayişin, əmin-amanlığın, habelə dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən etibarlı qorunması üçün qüvvə və bacarığını əsirgəməyəcək, həmişə olduğu kimi cari ili də yaxşı nəticələrlə başa vuracaq.

**AZƏRTAC**

# Fövqəladə hallar naziri Gəncədə partlayışın baş verdiyi əraziyə gəlib

**Noyabrın 20-də səhər saatlarında Gəncə şəhərinin Kəpəz rayonundakı yaşayış binasında baş vermiş uçqunla əlaqədar fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov və nazirliyin digər rəhbər şəxsləri hadisə yerinə gəliblər.**



Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, Kəmaləddin Heydərov qəza-xilasetmə işlərinin gedişi ilə yaxından tanış olub, xilasetmə tədbirlərinin daha operativ həyata keçirilməsi üçün müvafiq tapşırıqlar verib.

Nazir jurnalistlərə açıqlamasında bildirib ki, vəziyyət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tam nəzarətindədir. Yəqin ki, binanın sakinləri haqqında müəyyən qərar qəbul ediləcək. Təmizləmə işləri başa çatandan sonra binadakı 36 ailənin hamısı təxliyə ediləcək və müvafiq yerlərdə yerləşdiriləcəklər. Bu ailələr bina sökülüb tikilənə və ya bərpa olunana qədər tam dövlətin qayğısı altında yaşayacaqlar.

Kəmaləddin Heydərov qeyd edib ki, hadisə zamanı dağıntılar altında qalan 3 nəfər həlak olub, 1-i isə ağır xəsarət alıb. Xəsarət alan şəxsin müalicəsi davam etdirilir. Hüquq-mühafizə orqanlarının əməkdaşları araşdırmanı tam yekunlaşdırmaq üzrədirlər. Binanın vəziyyəti və partlayışın səbəbləri barədə rəylər hazırlanır. Bu barədə mətbuata da xəbər veriləcək.

**AZƏRTAC**

# Dövlət Komitəsində məcburi köçkünlərlə növbəti görüş keçirilib

**Noyabrın 20-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində məcburi köçkünlərlə növbəti görüş keçirilib. Bu barədə AZƏRTAC-a Dövlət Komitəsinin mətbuat xidmətindən məlumat verilib.**

Komitə sədri Rövşən Rzayev, sədr müavinləri, aparat rəhbəri, şöbə və departament rəhbərləri görüşdə iştirak ediblər. Məcburi köçkünlərin müraciətləri, əsasən mənzil-məişət şəraitinin yaxşılaşdırılması, statusun verilməsi, kommunal xidmətlər, məşğulluq və digər məsələlərlə əlaqəli olub.

Məlumat verilib ki, Prezident İlham Əliyev məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasını



və məşğulluğunun təmin edilməsini daim diqqətdə saxlayır. Bunun nəticəsidir ki, məcburi köçkünlərlə bağlı məsələ ölkədə uğurla həyata keçirilən sosial siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edilib. Birinci vitse-prezident xanım Mehriban Əliyeva ağır vəziyyətdə, qəzalı və yararsız binalarda məskunlaşan məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tapşırıq verib və onun icrasına şəxsən nəzarət edir. Məcburi köçkünlərin müraciətləri müvafiq qaydada qeydə alınıb.

Komitə sədri müraciətləri diqqətlə dinləyib, məsələlərlə bağlı şöbə və departamentlərə tapşırıq verilib.

**AZƏRTAC**

# Azərbaycan BMT-nin Sivilizasiyalar Alyansı ilə əməkdaşlığı davam etdirir



**Mədəniyyət naziri Əbülfəs Qarayev Nyu-Yorkda BMT Sivilizasiyalar Alyansının ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir ilə görüşüb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Alyansın dünya miqyasında həyata keçirdiyi fəaliyyətlər, xüsusilə Prezident İlham Əliyevin "Bakı prosesi" təşəbbüsünün və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun tərəfdaşı olması barədə fikir mübadiləsi aparılıb.

Nasir Əbdüləziz Əl-Nasir ölkə rəhbərliyinin bu istiqamətdə təşəbbüslərini yüksək qiymətləndirdiyini, tərəfdaşlığın əhəmiyyətini, eləcə də 2016-cı ildə Bakıda keçirilən BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun beynəlxalq səviyyədə müsbət əks-səda yaratdığını qeyd edib.

Nazir Əbülfəs Qarayev 2019-cu ildə ölkəmizdə keçiriləcək 5-ci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna hazırlıq işlərinin başlanıldığını və forumun işində BMT-nin Sivilizasiyalar Alyansı ilə əməkdaşlığın davam etdiriləcəyini diqqətə çatdırıb.

**AZƏRTAC**

# BAKI NEFTİ VƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN SİYASİ TALEYİ

XIX əsrin II yarısı - XX əsrin əvvəllərində Şimali Azərbaycan iqtisadiyyatının əsasını, heç şübhəsiz ki, neft sənayesi təşkil edirdi. Bu da səbəbsiz deyildi. Çünki məhz bu dövrdə Rusiya imperiyasının müstəmləkəsi olan Şimali Azərbaycanın Bakı şəhəri 1872-ci ildə çar hökumətinin qərarı ilə 1807-ci ildə neftlə bağlı tətbiq edilən iltizam sisteminin ləğvindən sonra neftçıxarma işinin mərkəzinə çevrildi. Neftli torpaqlarının müsadirə (hərrac və ya auksiona çıxarmaqla - C.B.) yolu ilə satışının təşkili çox qısa bir müddət ərzində buraya çox böyük miqdarda daxili və xarici kapitalın axınına səbəb oldu. 1873-1898-ci illər ərzində Bakı neft sənayesində Azərbaycan milli kapitalının H.Z.Tağıyev, A.M.Nağıyev, A.M.Muxtarov, A.Ş.Əsədullayev, İ.Hacınski, Aşurbəyovlar qardaşları və başqaları ilə yanaşı, Avropa və Çar Rusiyası kapitalının Rotşild, Nobel qardaşları, Ceyms Vişaunun başçılığı ilə Britaniya kapitalı təmsil olunmuşdu. Böyük Britaniya kapitalının nümayəndələri 1885-ci ildə Bakıya gəldikdən sonra burada yeni səhmdar cəmiyyətləri yaratmaqla bərabər, onlar hələ də neft müəssisələrinin alışı ilə məşğul idilər. İngilis kapitalını burada bir neçə maliyyə qrupları təmsil edirdilər. Bu qruplardan birinə Böyük Britaniya Bankının direktoru E.Hubbard, digər qrupa isə A.Styuart və F.Zeyn başçılıq edirdi. E.Hübbartın rəhbərlik etdiyi qrupa H.Qladston, D.Kiston, C.Mur, V.Conson, K. və V.Vernerlər daxil idilər və onlar Azərbaycan milli kapitalının tanınmış nümayəndəsi H.Z.Tağıyevdən kerosin yağı, sulfat turşusu istehsal edən zavodu, neft kəmərini, neftdaşıyan donanmanı, dəmiryol sisternləri parkını və neft-kerosin anbarını 5 milyon rubla satın almışdılar. Qeyd etmək lazımdır ki, iltizam sisteminin ləğvindən sonra neftlə zəngin sahələrin böyük hissəsi rus, yəhudi və erməni kapital nümayəndələri tərəfindən ələ keçirilmişdi. Bu dövrdə neftli torpaqları olan şəxslər içərisində yalnız H.Z.Tağıyevin adı var idi.

Avropa kapitalı isə Nobel qardaşlarının timsalında artıq 1873-cü ildə neftli torpaqların hərrac satışında iştirak edərək Balaxanı, Sabunçu və digər ərazilərdə neftli torpaq sahələri almışdı. Neftli torpaq sahələrinin hərrac yolu ilə satışından sonra Bakı neft sənayesində neftin çıxarılması, emalı, satışı, daxili və xarici bazarlara çıxarılması işi ilə məşğul olan şirkətlərin sayı çox sürətlə artmağa başladı. İltizam sisteminin ləğvindən keçən bir ildən sonra, yeni 1873-cü ildə Bakıda 12 şirkət fəaliyyət göstərdiyi halda, onların sayı 1879-cu ildə 79, 1900-cu ildə isə 146-ya çatmışdı. Qeyd etmək lazımdır ki, qoyulan kapital öz bəhrəsini verməyə başlamışdı. Belə ki, Nobel qardaşlarının əldə etdikləri gəlirin miqdarı 1874-cü ildə 3 milyon rubl olduğu halda, 1885-ci ildə bu rəqəm 15 milyona çatmışdı. Bakı neft sənayesində neftçıxarma işində müxtəlif texniki üsullar tətbiq olunurdu. Neft quyusuna zərbə vurmaq və uzunsov vedrə (jelonka) tətbiq etmək üsulları neftçıxarma işində üstünlük təşkil edirdi. XIX əsrin 70-ci illərinin II yarısından başlayaraq neftçıxarma işində əl əməyini buxar mühərrikləri ilə əvəz edilməsi neft sənayesində bir çevriliş idi. Bu yeniliyin tətbiqi nəticəsində əgər 1875-ci ildə Bakı neft sənayesində 35 qazma quyusu olduğu halda, 1900-cü ildə onların sayı artıq 1710-a çatmışdı. Buna müvafiq olaraq Bakı neft sənayesində neftin hasilatı 1870-ci ildə 1.482.100 pud (1 pud - 16 kiloqrama bərabərdir - C.B.) olduğu halda, bu rəqəm 1898-ci ildə 489.000 pud olmuşdu. 1918-ci ilin iyunun 5-də cəllad S.Şaumyanın sağ əli Bakı Soveti Neft Komitəsinin sədri Ter-Qabrelyana neft şəhərini nəyin bahasına olursa-olsun saxlamaq, mümkün "olmadığı təqdirində şəhəri yandırın" əmrini verən, "cənab milyard" ləqəbini daşıyan C.Rotfellerin ayırdığı milyonlar hesabına Rusiyada hərbi çevriliş edərək hakimiyyəti ələ keçirən V.İ.Lenin, Bakı neft rayonunda 1895-ci ildə 384 mln. pud, 1902-ci ildə isə 637,7 mln. pud neft hasil edildiyini və "demək olar ki, bütün neft Bakı quberniyasında çıxarılır" ifadəsini işlətmişdi. Bu ifadənin "Sovet hakimiyyətinin banisi" tərəfindən işlətməsi təsadüfi deyildi. Çünki XIX əsrin 70-90-cı illərində Bakı nefti beynəlxalq münasibətlərdə, xüsusilə də böyük dövlətlər arasında olan münasibətlərdə xüsusi yer tuturdu. Belə bir fakt da təsadüfi xarakter daşımır ki, dünyanı yenidən bölüşdürmək üzrə XX əsrin əvvəlində yaranma prosesi başa çatmış iki hərbi siyasi bloka daxil olan birliyin üzvləri - Böyük Britaniya, Fransa və çar Rusiyasına məxsus neft şirkətləri 25 ildən artıq bir dövr ərzində Bakı neft sənayesində təmsil olunmuşdular. 1917-ci ilin aprelində I Dünya müharibəsinə "Antanta" bloku tərəfindən qoşulan ABŞ-ın "Standart Oyl" şirkətinin nümayəndəsi Herbert Tvidlt hələ 1880-ci ildə Bakıya gəlmiş və burada təmsil etdiyi şirkət üçün konsessiya almağa da səy göstərmişdi. Bakı neft rayonunda neft hasilatı üzrə pay almağa nail olmayan ABŞ-ın neft maqnatı burada fəaliyyət göstərən Avropa neft şirkətlərinin məxfi şəkildə səhmlərini almağa başlamışdı. Burada əsas məqsəd öz inkişaf sürətinə görə ABŞ-ı geridə qoyan Bakı neft rayonunun imkanlarının genişlənməsinin qarşısını almaq idi. Bu məqsədlə ABŞ deyil, həm də Avropa ölkələrinin neft şirkətlərinin məxfi nümayəndələri də səyyah adı ilə Bakıya gəlir, özlərini tədqiqatçı kimi təqdim edərək neftli torpaqlarla maraqlanırdılar. Belə "səyyah"lardan biri isveç mənşəli Stiven Hedin idi. Öz casusluq fəaliyyəti ilə çoxdan diqqəti cəlb edən bu şəxs 1885-ci ildə Bakıya gəldikdən sonra Cənubi Azərbaycan və Mərkəzi Asiya ölkələri ilə "maraqlanır" və missionerlik fəaliyyəti ilə məşğul olmuşdu. Burada XX əsrin 40-50-ci illərində keçmiş SSRİ Neft Sənayesi Naziri N.K.Baybakovun refereniti işləmiş Avqust Qermanoviç Helkvristin bu gün müstəqil Azərbaycan dövlətinin öz siyasi, iqtisadi və hərbi qüdrətinin yaradılmasında müstəsna yeri olan Azərbaycan Xəzər dəniz neft sənaye sahəsinin yaradılmasına hər vasitə ilə mane olmaq üçün atdığı əvvəlcədən düşünülmüş və gələcək çirkin niyyətli məqsədlər üçün göstərdiyi fəaliyyəti də xatırlatmaq yerinə düşür. N.Baybakovun tapşırığı ilə tanınmış Azərbaycan alimi, Sosialist Əməyi Qəhrəmanı, AMEA-nın müxbir üzvü, geologiya-mineralogiya elmləri üzrə elmlər doktoru, professor Baba Babazadəni nə Abşeron yarımadasında, nə də Xəzər dənizində neftin olmaması ilə bağlı SSRİ neft sənayesi naziri adına rəsmi ərizə yazmağa məcbur edən bu mənfur şəxsin o zaman hansı çirkin niyyətlər güddüyü indi artıq bizə məlumdur.

Bu hadisələr arasında yalnız zaman fərqi var, amma Azərbaycan xalqının təbii sərvətlərinə daima göz dikən düşmən qüvvələr indi də öz cinayətkar planlarını qurmaqda davam edirlər. Bütün bunlara baxmayaraq, qeyd etmək lazımdır ki, 1898-1903-cü illərdə Bakı neft sənayesinə qoyulan bütün kapitalın 56%-i xarici kapitalın payına düşürdü. Bu da bir danılmaz həqiqətdir ki, bütün bunlarla yanaşı, əldə edilən gəlirdən götürülən onun əsl sahibi olan Azərbaycan xalqının deyil, Rusiya imperiyasının yırtıcı maraqlarının təmin edilməsinə sərf edilirdi. Çar Rusiyasının və onun müttəfiqlərinin maraqlarının təmin edilməsinə yönəldilməsini təşkil etmək üçün hökumətin yeritdiyi siyasət neft sənayesində inhisarların - bank kapitalı ilə sənaye kapitalının birləşməsi ilə nəticələndi. 1888-ci ildə "Bakı neft sənayeçiləri qurultayı" adlı təşkilatın yaradılması bu prosesin bariz nümunəsi idi. Əsrin sonunda Bakı nefti dünyada çıxarılan neftin 52 faizini, Çar Rusiyasında isə çıxarılan neftin 95 faizini verirdi. 1900-1905-ci illərdə Bakı neft mədənlərindən hər il orta hesabla 10 milyon ton neft çıxarılırdı. 1914-cü ildə isə, yəni I Dünya müharibəsi başlayan zaman neftçıxarmanın həcmi 7,5 milyon tona enmişdi.

Bundan əlavə, neftin satışında da çox böyük dəyişikliklər baş vermişdi. 1900-cü illə müqayisədə, Bakı neftinin qiyməti, 1911-ci ildə 50%, 1912-ci ildə isə 86 faiz bahalaşmışdı. Bunun səbəbi isə Bakı neft sənayesində təşkil olunan və əsas məqsədləri Azərbaycan xalqına məxsus bu qiymətli təbii sərvətin talan edilməsi olan Avropa və çar Rusiyası neft şirkətlərinin yeritdikləri talan, qarət siyasətinin nəticəsi idi. Burada daha çox üç böyük şirkətin ruslara məxsus "Produql", isveçəsilli, lakin Rusiya təbələri olan Nobel qardaşlarına məxsus "Nobel Mazut" və ingilislərə məxsus "Royal Datc Sell"in qarətçi fəaliyyəti diqqəti cəlb edir. "Nobel Mazut" şirkəti hazır kerosinin 77%-nin, artıq qalan neft məhsullarının isə 56%-nin satışını öz əlində cəmləşdirmişdi. I Dünya müharibəsi ərəfəsində Bakı neft mədənlərindən 489 milyon pud neft çıxarılmış və buradan dünya ölkələri bazarlarına satış üçün 322,2 milyon pud müxtəlif neft məhsulları çıxarılmışdı.

Bakı neft rayonunda çıxarılan və ixrac edilən neftin həcmi göstərir ki, 1914-1918-ci illərdə öz coğrafi miqyasına görə insanlıq tarixində dünyanı yenidən bölüşdürmək üçün başladılmış I Dünya müharibəsində vuruşan dövlətlərin öz cinayətkar hərbi-siyasi məqsədlərinə çatmaq üçün bu strateji məhsulun beynəlxalq münasibətlərdə hansı rol oynadığını bir daha sübut edir. Qeyd etmək lazımdır ki, başqa enerji resurslarından fərqli olaraq, neft, hərbi siyasətdə həlledici əhəmiyyət kəsb edir. Buna görə də I Dünya müharibəsində benzin, kerosin və digər məhsulların istehsalı üçün neft emalını təmin edən strukturların olmadığı halda hər hansı başqa bir səbəbdən danışmaq yersiz idi. Çar Rusiyasının müstəmləkəsi olan Şimali Azərbaycanın dünyanın neft mərkəzi rolunu oynayan Bakı neft rayonu bütün bu imkanlara malik idi və buna görə də Bakı neft rayonu böyük dövlətlər üçün sonsuz qarət mənbəyi, Azərbaycan xalqı üçün isə talan olunmaq və yoxsullaşmaq faktı ilə üz-üzə qalmaq aqibəti idi.

I Dünya müharibəsi illərində Böyük Britaniyanın hərbi-dəniz donanması naziri məşhur: "əgər neft krallıqdırsa, Bakı onun tacıdır" cümləsinin müəllifi Uinston Çorçill tərəfindən donanmanın kömürlə deyil, neftlə işləməsi üzrə qanunu Böyük Britaniya parlamentində qəbul edilmişdi. I Dünya müharibəsi ərəfəsində ingilis geoloqları tərəfindən Yaxın Şərq ölkələrində neft yataqlarının aşkar edilməsi və 1909-cu ildə "İngilis-İran neft şirkəti"nin yaradılması faktı bu fikri söyləməyə əsas verir ki, Böyük Britaniya imperiyasının Ön Asiya siyasətində neft amili xüsusi yer tuturdu. Məhz həmin Uinston Çorçill təkidilə hökumətdən "İngilis - İran neft" şirkətinin səhmlərinə dair nəzarət paketlərinin alınmasını tələb etmişdi. Bu isə onu göstərir ki, bu dövrdə Yaxın Şərq nefti təkcə iqtisadi deyil, həm də ilk növbədə siyasi xarakter daşımağa başlayır. 1914-cü ildə Böyük Britaniya parlamentində U.Çörçillin təklifi qəbul edildikdən sonra I Dünya müharibəsi başlamışdı. Neftin dövlətlərarası və beynəlxalq münasibətlərdə həlledici amilə çevrilməsi, I Dünya müharibəsini "motorlar müharibəsi"nə çevrildi. Aviasiya və tankların istehsalı hərbi-strateji zərurətə çevrildi və Almaniyanın hərbi-siyasi dairələri müharibədə öz məğlubiyyətlərinin əsas səbəbini neft yanacağı ilə işləyən tankın və aviasiyanın orduda bütün gücü ilə işlədilməsində görürdülər. Neft təkcə yanacaq, sürtkü yağları deyil, həm də döyüş sursatları - partlayıcı maddələr istehsalı üçün də istifadə olunurdu. Məhz I Dünya müharibəsi zamanı vuruşan dövlətlərin ordularında yanacaqla işləyən tank, avtomobil və təyyarələrlə yanaşı, neftdən hazırlanmış döyüş sursatlarından istifadə olunmuşdu. Tank hərbi əməliyyatların əsas atributuna çevrilmişdi. I Dünya müharibəsinin başlanması Çar Rusiyası üçün ağır zərbə olsa da, özünü Bakı neftinin hesabına o dövrdə çox qüdrətli dövlət hesab edirdi. Müharibənin başlanması və bu müharibə Böyük Britaniya, Fransa, Çar Rusiyası, Almaniya və 1917-ci ildə ABŞ-ın müharibəyə qoşulması ilə neftə olan tələbatı artması onun dünya bazarında qıtlığına səbəb oldu. Nəticədə neft hasilatının həcminə görə Bakı, ABŞ, Qacarlar İranı və Meksikanı da ötüb keçmişdi. 1914-1917-ci illər ərzində Bakı neft rayonunda 28683 min ton neft çıxarılmışdı ki, bu da ümumdünya neft hasilatının 75 %-ni təşkil edirdi.

Buna görə də Antanta ölkələrinin əsas rəqibi olan Almaniya ilə müqayisədə hərbi üstünlüyü özünü açıq şəkildə göstərirdi. Elə bu səbəbdən də Böyük Britaniyanın Baş naziri Lloyd Corc Azərbaycan neftinin Almaniyaya satışının dayandırılmasını təkidlə tələb edirdi. 1917-ci ildə Rusiya imperiyasının süqutu Qafqaz cəbhəsində çox böyük boşluqların yaranmasına səbəb oldu. Hər iki hərbi-siyasi bloka daxil olan dövlətlərin ordularının Bakıya yürüşə başlandı.

Neftin I Dünya müharibəsində həlledici vasitə olduğunu əyani olaraq görən və məğlubiyyətə düçar olan Almaniya və onun müttəfiqi olan Osmanlı dövlətinin də Bakı ilə bağlı planları mövcud idi. I Dünya müharibəsi illərində Osmanlı dövlətinin iqtisadiyyatı ağır vəziyyətə düşmüşdü və onun neft məhsullarına böyük ehtiyacı var idi. Buna görə də 1918-ci ilin payızında Osmanlı dövləti ilə AXC arasında imzalanmış müqaviləyə əsasən AXC hökuməti Osmanlı dövlətinə 1 milyon lirə dəyərində neft və neft məhsullarını satmaq öhdəliyini götürmüşdü. Buna görə də 15 oktyabr 1918-ci il tarixdə Osmanlı dövlətinin Şərq Orduları Qrupunun komandanı Xəlil paşanın müdafiə naziri Ənvər Paşaya vurduğu şifrəli teleqram Bakı neft mənbələri ilə bağlı hansı planların nəzərdə tutulduğu aydın görünür: "Bu gün Bakıdakı anbarlarda toplanmış olan neft və mazutun bugünkü fiyatlara görə qiyməti yüz milyonlarla lirə təşkil edir. Tanrının bir lütfü olaraq əldə etdiyimiz bu qaynaq bütün maliyyə sıxıntımızı qarşılayacaq mahiyyətdədir Bakı uğrunda apardığımız iki-üç müharibədə üç minə yaxın can kayb etdik. Bundan dolayı Bakı vətənin ən böyük hissəsindən fetih hansı olaraq bizim və Azərbaycanın yararlanması lazımdır". Bundan əlavə, Osmanlı dövlətinin Turançı siyasəti baxımından da Bakı şəhəri türk dünyası üçün həm də bir açar rolunu oynamalı idi. Qeyd etmək lazımdır ki, 1918-ci ilin noyabrın sonunadək Bakıda olan Osmanlı dövləti hərbi komandanlığı tərəfindən neft məhsullarının daşınması üçün Bakı-Batum ağ neft (Kerosin - C.B.) kəmərinin təmiri üçün tədbirlər görüldü və Bakıdan Batum terminalına Türkiyə və Almaniya üçün hər gün ən azı 23 sistern neft daşınırdı. Amma Almaniya Bakı nefti məsələsində öz müttəfiqi olan Osmanlı dövlətinə heç də etibar etmirdi. Alman komandanlığı Ukrayna və Qara dəniz vasitəsilə Gürcüstana çıxmaq və oradan Bakı istiqamətində irəliləməyi planlaşdırmışdı.

Almanların təzyiqi ilə Gürcü fraksiyasının Cənubi Qafqaz Seymindən çıxaraq öz "dövlət müstəqilliklərini elan etmələri" də Bakı nefti ilə bağlı idi. Buna görə də Yaxın Şərq hərbi teatr meydanından Alman komandanlığının qərarı ilə general fon Kressin hərbi hissələrinin Gürcüstana göndərilməsi də təsadüfi deyildi. Almaniya Baş Qərargah rəisinin müavini E.Lyüdendorfun "...ordunun yanacağa olan ehtiyaclarını yalnız Bakı nefti hesabına təmin etmək mümkün olar" sözü yuxarıda deyilən fikri təsdiq edir. Lakin almanların planlarından xəbərdar olan Böyük Britaniya hərbi komandanlığı general L.Denstrivilin 1000 nəfərlik hərbi desant qrupunun Qacarlar İranının Ənzəli şəhərindən Bakıya yeridilməsinə razılıq verdi. Burada bir tarixi siyasi məqama xüsusi diqqət yetirmək yerinə düşərdi. Müasir dövrədək I Dünya müharibəsi tarixinə həsr olunmuş elmi ədəbiyyatın tam əksəriyyətində vuruşan dövlətlərin əsas məqsədlərinin Osmanlı imperiyası mülklərinin bölüşdürülməsi olduğu göstərilir. Lakin nə üçün və hansı "etdiyi günahlara" görə Osmanlı dövlətini və bu dövləti yaradan türk xalqını cəzalandırmaqda məqsəd nə idi? Bu göstərilmir. Osmanlı imperiyası, Qacarlar İranı və Cənubi Qafqazın Bakı neft rayonunun tükənməz enerji resursları ilə zəngin olduğunu bilən Böyük Britaniya və Çar Rusiyasının hərbi-siyasi dairələri 1828-ci il Türkmənçay, 1907-ci ildə isə bütün Qacarlar İranını öz nüfuz dairələrinə bölən yırtıcı xislət sahibi olan bu dövlətlər Fransanı da cəlb etməklə Osmanlı imperiyası ərazilərinə daxil olan enerji resursları ilə zəngin Yaxın və Orta Şərq ölkələrini öz aralarında bölüşdürməyi planlaşdırmışdılar.

1915-1916-cı illərdə Çar Rusiyası-İngiltərə, Çar Rusiyası - Fransa və İngiltərə-Fransa iki tərəfli keçirilən məxfi görüşlərdə əldə edilən razılaşmalar da bunu təsdiq edir. Osmanlı dövlətini məhv etmək və onun ərazilərini bölüşdürmək üçün müxtəlif qondarma "səbəb və bəhanələr" axtarıb tapan və yaxud öz yırtıcı xislətlərinin məhsulu olan xristian təəssübkeşliyi pərdəsi altında dağıdıcı planlar quran bir vəhşi avropalıların vəhşi övladları guya müsəlman dininin hakim olduğu bu dövlətdə xristianların, xüsusilə də xristian kilsəsinin bidətçi saydığı qriqoryan ermənilərinin incidildiyi, insani haqlarının pozulduğunu bəhanə edərək onlardan Osmanlı dövlətini dağıtmaq üçün bütün mümkün olan və olmayan vasitələrdən istifadə etməyə başladılar. 1914-cü ildə olan I Dünya müharibəsinin təşəbbüskarı olan Kayzer Almaniyasının zorən "müttəfiqi" olan Osmanlı imperiyası hökumətini və bütün türk xalqını 1915-ci il aprelin 22-də vətəndaşları olduqları dövlətə xəyanət etdiklərinə görə 2345 erməni terrorçunun həbs edilməsini "soyqırımı" cinayəti kimi qələmə verən başda Böyük Britaniya və ABŞ olmaqla Antanta ölkələri Osmanlı dövlətinin məhv edilməsi qərarını artıq vermişdilər. I Dünya müharibəsinə 1917-ci ilin aprelində qoşulmasına baxmayaraq, hələ müharibənin əvvəlinə yaxın bir dövrdə ABŞ-ın yeni seçilən prezidenti Vudro Vilsona, hökumətin "Antanta" hərbi blokunda hərbi attaşesi olan polkovnik Xausun "cənab prezident Osmanlı dövləti ilə birbaşa münasibətləri biz səfir Morgentau vasitəsi ilə qura bilərik" sözünə Vudro Vilson "tezliklə Türkiyə adlandırılacaq bir şey olmayacaq" - deyə cavab vermişdi. ABŞ prezidentinin verdiyi bu birmənalı cavab yuxarıda söylənilən fikri bir daha təsdiq edir. Bu hadisədən 107 il keçsə də, ABŞ-ın türk xalqına və Türkiyə dövlətinə münasibəti mahiyyət etibarilə dəyişməmişdir.

Yuxarıda qeyd olunduğu kimi, I Dünya müharibəsində vuruşan dövlətlərin əsas hədəflərindən biri ikiyə bölüşdürülmüş Azərbaycan və onun dünya neftçıxarma mərkəzi olan Bakı idi.

Bu dövrdə Yaxın Şərqdə böyük hərbi qüvvə saxlayan Böyük Britaniya imperiyası heç bir dövləti bu regiona buraxmaq istəmirdi. Böyük Britaniyanın Baş naziri Lloyd Corc öz memuarlarında yazırdı ki, "Biz o vaxt əli qoynunda oturmamışdıq". 1926-cı ildə İngiltərənin "Tayms" qəzeti 1918-ci ildə ingilislərin Bakıya qoşun yeritdikdən sonra buraya hansı məqsədlə gəldiklərinin: "Biz gəlmişdik ki, Bakının neft mədənlərini zəbt etdik" - olduğunu öz səhifələrində açıq şəkildə etiraf etmişdi. Bu faktı da qeyd etmək lazımdır ki, neft Bakısını işğal etmək üçün ingilisləri buraya dəvət etmək üçün Qacarlar İranının Ənzəli şəhərinə birinci qaçaraq gəlib öz xidmətlərini təklif edən ermənilər olmuşdu. Lakin qeyd etmək lazımdır ki, bütün bu qısa müddət ərzində baş verən hadisələrdən ən dəhşətlisi o idi ki, Cənubi və Şimali Azərbaycan ərazilərini öz aralarında bölüşdürən Böyük Britaniya və Rusiya imperiyaları Bakını əllərindən vermək istəmirdilər. İlk növbədə onu qeyd etmək lazımdır ki, Bakı neft sənayesində Böyük Britaniya və Çar Rusiyasının neft şirkətlərinin xüsusi yerləri var idi.

**(davamı 6-cı səhifədə)**

# Məhkəmə və ədliyyə sistemində islahatlar beynəlxalq miqyasda yüksək qiymət alır

**Noyabrın 22-si Azərbaycanda ədliyyə orqanlarının yaranmasının 100-cü ildönümü tamam olur. XX əsrin əvvəllərində müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə Azərbaycan ədliyyəsinin şərəfli tarixi başlamışdır. Cumhuriyyət dövründə ədliyyə fəaliyyətinə xüsusi əhəmiyyət verilmiş, 1918-ci ilin noyabr ayının 22-də onun əsasnaməsi qəbul edilmişdir.**

Müasir dövlətimizin qurucusu, ümummilli lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə ədliyyə işçilərinə yüksək etimad göstərilərək Azərbaycan Xalq Cümhuriyyəti Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi gün - 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü elan olunmuşdur. Bu tarixi sərəncam ədliyyə və məhkəmə fəaliyyətinin mənəvi stimullaşdırılmasına, onların tarixi varisliyinin təsbit olunmasına, cəmiyyətdə nüfuzunun artırılmasına xidmət etmişdir.

1918-ci il may ayının 28-də - Azərbaycan Xalq Cümhuriyyəti elan edildiyi gün Ədliyyə Nazirliyinin də təsis edilməsi, onun fəaliyyəti üçün hərtərəfli şəraitin yaradılması ilə əlaqədar mühüm qərarların qəbulu ədliyyə fəaliyyətinə verilən xüsusi əhəmiyyəti göstərirdi. Həmin dövrdə bilavasitə Ədliyyə Nazirliyinin təşəbbüsü ilə parlamentin müzakirəsinə çıxarılmış "Azərbaycan vətəndaşlığı haqqında", "Məhkəmə işçiləri vəzifələrinə namizədlər haqqında", "Andlı iclasçılar məhkəməsinin təsis edilməsi barədə", "Xarici dövlətlərin məhkəmə qərarlarının icrası qaydası haqqında", "Amnistiya haqqında" və digər qanunlara nəzər salarkən Azərbaycan ədliyyə sisteminin demokratik ənənələrinin bir daha əyani şahidi oluruq.

Təəssüf ki, sonrakı dövrlərdə ədliyyə sisteminin inkişafı heç də rəvan olmamış, Azərbaycan Xalq Cümhuriyyətindən fərqli olaraq keçmiş sovetlər birliyində Ədliyyə Nazirliyinin fəaliyyətinə ciddi əhəmiyyət verilməmiş, hətta nazirlik ləğv edilərək, uzun müddət ərzində onun təşkilinə ehtiyac bilinməmişdir. Nazirliyin yenidən təşəkkülü yalnız 1970-ci ilə - ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişindən sonraya təsadüf etmiş, dahi rəhbərin ədliyyə və məhkəmə sisteminin inkişafına xüsusi diqqəti sayəsində ədliyyə fəaliyyəti tamamilə yenidən qurulmuşdur.

Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra aparılan məhkəmə-hüquq islahatı nəticəsində Ədliyyə Nazirliyinin fəaliyyəti daha da təkmilləşdirilərək müasir tələblərə uyğunlaşdırılmış, nazirliyin funksiya və səlahiyyətləri genişləndirilmişdir. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra ədliyyə orqanlarına yüksək diqqət və qayğı ilə yanaşmış, bu sahədə yeni dövrün tələblərindən irəli gələn islahatların aparılmasını təmin etmişdir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında aparılmış məhkəmə-hüquq islahatları çərçivəsində qəbul edilmiş çoxlu sayda qanunlara, imzalanmış fərmanlara əsasən Ədliyyə Nazirliyinin üzərinə yeni vəzifələr qoyulmuşdur. Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidməti təsis edilməklə yanaşı, keçmiş MDB-də ilk olaraq Azərbaycanda istintaq təcridxanaları nazirliyin tərkibinə verilmişdir. Ədalət mühakiməsi əleyhinə olan və bəzi digər cinayətlərin ibtidai istintaqının aparılması, bütün qeyri-tibbi məhkəmə ekspertizalarının həyata keçirilməsi, Azərbaycan Respublikası adından xarici dövlətlər və beynəlxalq təşkilatlarla huquqi sahədə əməkdaşlıq üzrə müqavilələrin bağlanması və onların icrasının təmin edilməsi, cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi, o cümlədən ekstradisiya və digər məsələlərin həlli Ədliyyə Nazirliyinə tapşırılmışdır.

Ölkəmizdə aparılan hərtərəfli islahatların səmərəli iqtisadi sistemin bərqərar olmasına gətirib çıxarması əhalinin hüquq və mənafelərinin daha etibarlı qorunması, onlara göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsi zərurətini yaradırdı. 2000-ci ildə iqtisadi və hüquqi proseslərin tənzimlənməsində mühüm əhəmiyyəti nəzərə alınaraq, notariat və vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı orqanlarında da köklü dəyişikliklər və əsaslı tədbirlər həyata keçirilmiş, yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə metodoloji yardımın göstərilməsi Ədliyyə Nazirliyinin funksiyalarına aid edilmişdir.

Ulu öndər Heydər Əliyev ədliyyə islahatları ilə paralel şəkildə məhkəmə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi və müasirləşdirilməsi məsələlərini də diqqət mərkəzində saxlamışdır. Aparılan məhkəmə-hüquq islahatları çərçivəsində Konstitusiya Məhkəməsi təsis olunmuş, 2000-ci ildən yeni, əvvəlki məhkəmə sistemindən köklü surətdə fərqlənən, insan haqlarının müdafiəsinə daha etibarlı təminat verən üçpilləli müstəqil məhkəmə sistemi fəaliyyətə başlamışdır. Həmin vaxtdan etibarən keçmiş sovet respublikaları arasında, demək olar ki, ilk dəfə Azərbaycanda həbs və insan hüquqlarını məhdudlaşdıran digər prosessual məcburiyyət tədbirlərinin tətbiqi məhkəmələrin müstəsna səlahiyyətinə aid edilmişdir. Həmçinin məhkəmələr üzərində prokurorduq və ədliyyə orqanlarının nəzarəti ləğv olunmuş, demokratik məhkəmə nəzarəti institutu formalaşdırılmışdır.

2000-ci ildə dövlətçilik tariximizdə ilk dəfə olaraq hakimlər şəffaf prosedurlar əsasında, o cümlədən test üsulu ilə imtahanla seçilmiş, nəticədə hakim korpusunun 60 faizi təzələnmişdir. Ümummilli lider Heydər Əliyev sonrakı mərhələdə də hakimiyyətinin bütün sahələrində çevik və işlək mexanizmlər üzərində çoxşaxəli islahatları təmin etmişdir.

Ulu öndər Heydər Əliyevin şəxsiyyət kimi böyüklüyü həm də əsasını qoyduğu siyasəti yeni dövrün tələblərinə uyğun davam etdirə biləcək qüdrətli lider və etibarlı davamçını yetişdirməsindədir. 2003-cü ildən ədalət mühakiməsinin səmərəsinin və məhkəmə hakimiyyətinin müstəqilliyinin artırılmasına xüsusi diqqət yetirən dövlət başçısı cənab İlham Əliyevin siyasi iradəsi ilə məhkəmə sisteminin modernləşməsi prosesi cəmiyyətin inkişafına adekvat olaraq uğurla davam etdirilmişdir. Bu məqsədlə hələ 2004-cü ildə Azərbaycan-Avropa Şurası birgə işçi qrupları yaradılaraq onun tərkibinə nüfuzlu beynəlxalq ekspertlər daxil edilmiş, çoxşaxəli fəaliyyət planı hazırlanaraq həyata keçirilmişdir. Görülmüş tədbirlər nəticəsində "Məhkəmələr və hakimlər haqqında" Qanun əsaslı şəkildə yenilənmiş, "Məhkəmə-Hüquq Şurası haqqında" yeni Qanun, "Hakimlərin Seçki Komitəsi haqqında Əsasnamə", "Hakim vəzifələrinə namizədlərin seçimi Qaydaları", Hakimlərin Etik Davranış Kodeksi, məhkəmələrdə işin şəffaf təşkili ilə bağlı digər mühüm sənədlər qəbul edilmişdir.

19 yanvar 2006-cı il tarixli "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" fərman respublikanın məhkəmə sistemində fundamental yeniliklər üçün baza rolunu oynamışdır. Regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilmiş bir sıra təşkilati-hüquqi, sosial tədbirlərin mahiyyətindən irəli gələn həmin fərman əsasında bölgələrdə yeni apelyasiya və iqtisad məhkəmələri yaradılmışdır. Fərman əsasında, həmçinin, Ədliyyə Akademiyası yaradılmış, Hakimlərin Etik Davranış Kodeksi hazırlanaraq təsdiqlənmiş, məhkəmələrdə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi, məhkəmə təcrübəsində nəzərə alınması təmin olunmuşdur.

Məhkəmələrin iş yükünün azaldılması, işlərə vaxtında nəzərdə tutulmuş qaydada və vaxtında baxılması məqsədilə məhkəmələrdə hakimlərin sayının artırılması da xüsusi diqqət mərkəzində olmuşdur. Dövlətimizin başçısı cənab İlham Əliyevin 17 avqust 2006-cı il tarixli "Azərbaycan Respublikası məhkəmələri hakimlərinin sayının artırılması və məhkəmələrin ərazi yurisdiksiyasının müəyyən edilməsi haqqında" fərmanı ilə respublika məhkəmələri hakimlərinin sayı 153 ştat artırılmışdır.

Ümumilikdə, son illərdə hakimlərin sayı 2 dəfə, məhkəmə işçilərinin sayı 75 faiz artırılmış, hər bir hakimə köməkçi ayrılmışdır. Respublika üzrə hakimlərin sayının 600 nəfər müəyyən olunması da ədalət mühakiməsinin keyfiyyətinin daha da yüksəldilməsinə xidmət etmişdir. Bundan başqa, son illər hakimlərin müddətsiz - son yaş həddinədək təyinatı, fəaliyyətlərinin qiymətləndirilməsi və intizam məsuliyyətinə cəlb edilməsinin şəffaf və demokratik əsasları təsbit olunmuşdur.

Şübhəsiz, məhkəmə hakimiyyətinin nüfuzlu və müstəqil təsisat kimi təşəkkül tapması həm də bu hakimiyyəti realizə edən hakimlərin peşəkarlığı, onların mənəvi keyfiyyətləri ilə bilavasitə bağlıdır. Bununla əlaqədar məhkəmə hakimiyyətinin hazırlıqlı və mənəvi cəhətdən saf hakimlərlə komplektləşdirilməsi üzrə ardıcıl tədbirlər davam etdirilmiş, bütün məhkəmələrin tərkibi təzələnmişdir. Həmçinin hakimliyə namizədlərin ən şəffaf üsullarla seçilməsi qaydası müəyyən edilmişdir. Çoxsaylı imtahan və müsahibələrdən, namizədlərin hakim vəzifələrinə hazırlanmaları üçün uzunmüddətli kurs və təcrübədən ibarət olan bu seçim proseduru müstəqil qurum - tərkibi əsasən hakimlərdən ibarət olan Hakimlərin Seçki Komitəsi tərəfindən həyata keçirilir.

Son illər Avropada ən mütərəqqi və şəffaf hesab edilən bu qaydalar əsasında 2600 namizəd sırasından seçilmiş 400-ə yaxın yüksək hazırlıqlı hüquqşünas hakim vəzifələrinə təyin edilmişdir. Hakim vəzifəsinə yeni təyin olunmuş şəxslər uzunmüddətli nəzəri kurslarda iştirak etmiş, məhkəmələrdə təcrübə keçmiş, xarici ölkələrə tədris səfərlərinə göndərilmiş, beləliklə çətin hakim vəzifəsi üçün tam hazırlanaraq müxtəlif məhkəmələrə təyinatlar almışlar.

Ölkədə ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə görülən mütərəqqi tədbirlər nüfuzlu beynəlxalq qurumların da diqqətini cəlb etmiş, Avropa Şurası Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası (CEPEJ) Azərbaycanda hakimlərin seçimi prosesini bilavasitə izləməklə ölkəmizin təcrübəsini digər Avropa dövlətlərinə örnək kimi göstərmişdir. Bu proses Avropa İttifaqı tərəfindən də eyni yüksək qiymətə layiq bilinərək digər dövlətlərə tövsiyə olunmuşdur.

Bundan başqa, əhalinin məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması üçün son 5 ildə 20-dək yeni regional məhkəmələr - o cümlədən apelyasiya, ağır cinayətlər, inzibati-iqtisadi, hərbi məhkəmələr yaradılmış, məhkəmə infrastrukturunun yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Vətəndaş-məmur münasibətlərində yaranan mübahisələrin qısa zaman çərçivəsində çevik həllinə imkan verən inzibati-iqtisadi məhkəmələrin yaranması və 2011-ci il yanvarın 1-dən inzibati işlərə məhz yeni yaradılmış həmin məhkəmələrdə baxılması Azərbaycan məhkəmə sistemi üçün tamamilə yeni hadisədir.

Məhkəmələr üçün yeni inzibati binaların inşası, mövcud binaların əsaslı təmir olunması, hakimlərin müasir informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərindən istifadə imkanlarının yaradılması ümumən, ölkədə ədalət mühakiməsinin səmərəliliyinin daha da yüksəldilməsinə, korrupsiyaya qarşı mübarizəyə xidmət etmişdir. Son illərdə Bakının Yasamal, Sabunçu və Nərimanov rayonlarında, habelə Gəncə, Oğuz, Qəbələ, İmişli, Gədəbəy, Şəki və Zaqatalada müasir məhkəmə kompleksləri istifadəyə verilmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev Şəki Məhkəmə Kompleksinin açılış mərasimindəki təntənəli çıxışı zamanı demişdir: **"Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi sürətlə gedir. Əlbəttə ki, məhkəmələrin şəffaflığı, məhkəmələrin işi burada xüsusi rol oynayır. Verilən məlumata görə, son vaxtlar məhkəmə qərarları ilə bağlı daxil olan şikayətlərin sayı azalır. Bu onu göstərir ki, qərarların böyük əksəriyyəti ədalətli qərarlardır. Deməyə əsas var ki, son vaxtlar bu sahədə müsbətə doğru dəyişikliklər göz qabağındadır".**

Dövlətimizin başçısının 2014-cü il 13 fevral tarixli "Elektron məhkəmə informasiya sisteminin yaradılması haqqında" sərəncamı bu sahədə ötən illərdən başlanmış işlərin keyfiyyətcə yeni mərhələdə daha da genişlənməsinə, məhkəmələrdə İKT-nin ən son nailiyyətlərinin tətbiqinə imkan verən əlahiddə əhəmiyyətli sənəddir. Məqsəd ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın, insan və vətəndaşların hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təminidir. Yeni sistem məhkəmələrə müraciətlərin, iddia ərizələrinin, müxtəlif məhkəmə instansiyalarına şikayətlərin elektron formada qəbuluna imkan yaradır, nəticədə vətəndaşların şəxsən məhkəmələrə gəlmələrinə, poçt xidmətlərindən istifadələrinə ehtiyac qalmır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamı isə keyfiyyətcə yeni mərhələdə məhkəmə-hüquq islahatlarının səmərəliliyinin daha da yüksəldilməsinə xidmət edir. Sərəncamla Ədliyyə Nazirliyinin nəzdində Probasiya Xidmətinin yaradılması göstərir ki, demokratik idarəetmə prinsiplərinə sadiqlik nümayiş etdirən Azərbaycan bu siyasətin mühüm tərkib hissəsi kimi ədalət mühakiməsinin səmərəliliyinin yüksəldilməsi və cəza siyasətinin humanistləşdirilməsi məsələlərinə ciddiliklə yanaşır. Bunda strateji məqsəd də məhz cinayət-hüquq siyasətinin liberallaşdırılması, böyük ictimai təhlükə törətməyən, az ağır cinayətlərə görə həbs və azadlıqdan məhrumetmə tədbirlərinin tətbiqinin məhdudlaşdırılmasıdır.

Son 15 ildə cəmiyyət həyatının ən müxtəlif sahələrində islahatları yüksək dinamizmlə davam etdirən dövlət başçısı İlham Əliyev ədliyyə sisteminin müasirləşdirilməsi və bu orqanın cəmiyyətin hüquq sistemindəki yerinin möhkəmləndirilməsi məqsədilə də bir sıra zəruri fərman və sərəncamlar imzalamışdır. 2006-cı il 18 aprel tarixli "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə", 26 may 2006-cı il tarixli "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanunu, 17 avqust 2006-cı il tarixli "Ədliyyə orqanlarının inkişafı haqqında" Fərman və s. sənədlərin qəbulu bu baxımdan mühüm əhəmiyyətə malikdir. Sonuncu fərman əsasında bölgələrdə regional ədliyyə şöbələrinin və rayon (şəhər) qeydiyyat şöbələrinin yaradılması yerli əhalinin bu orqanlara müraciət imkanlarını asanlaşdırmış, habelə regionların sosial-iqtisadi inkişafına, xüsusilə yerli hüquqşünasların işlə təmin olunmasına xidmət etmişdir.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin imzaladığı fərman və sərəncamların uğurla həyata keçirilməsi prosesində Məhkəmə-Hüquq Şurasının sədri, ədliyyə naziri Fikrət Məmmədovun yüksək təşkilatçılığı, dövlət mənafelərinə sadiqliyi də əhəmiyyətli rol oynamışdır. Məhz Məhkəmə-Hüquq Şurasının təqdimatı əsasında möhtərəm Prezidentimiz mütəmadi olaraq bir çox hakimlərə yüksək etimad göstərir, test, müsabiqə və tədris mərhələsini keçən hakimliyə namizədlər bu vəzifəyə təyin edilirlər.

**Bütün bunlar təsdiqləyir ki, Azərbaycan ədliyyəsi və məhkəmə orqanları son 15 ildə cənab İlham Əliyevin rəhbərliyi ilə uğurlu inkişaf yolu keçmişlər. Ədliyyə və məhkəmə orqanlarının əməkdaşları ürəkdən inanırlar ki, 2018-ci il aprelin 11-də xalqın iradəsi ilə yenidən Azərbaycan Prezideni seçilmiş cənab İlham Əliyev bundan sonra da hüquqi dövlət quruculuğuna xidmət edən mütərəqqi məhkəmə və ədliyyə islahatlarını davam etdirəcəkdir.**

**Abbas RZAYEV,**
**Binəqədi Rayon Məhkəməsinin hakimi.**

# Dövlətçilik tariximizin bir əsrlik parlaq səhifəsindən

**Xalqımızın azadlıq və müstəqillik mübarizəsi tarixinə qızıl hərflərlə həkk olunmuş 1918-ci il mayın 28-i hər bir Azərbaycan vətəndaşının milli qürur hissi duyduğu, arzularının çiçək açdığı bir gündür. Əsrlərlə azadlıq və müstəqillik arzusu ilə yaşayan Azərbaycan xalqı ötən əsrin əvvəllərində bu işıqlı may günündə arzusuna qovuşdu. Şərqdə ilk dəfə azad, demokratik, dünyəvi dəyərlərə söykənən müstəqil bir respublikanın yarandığı dünyaya bəyan edildi. Xalqımız 1918-ci il mayın 28-də çar Rusiyasının bir əsrdən artıq davam edən müstəmləkə əsarətindən azad oldu, Şərqin ilk demokratik respublikasının təməlini qoydu. Həmin gün Azərbaycan Milli Şurasının iclasında İstiqlal Bəyannaməsi qəbul edildi. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması XX əsrdə xalqımızın həyatında yeni bir mərhələ, tarixi hadisə oldu. AXC xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi. Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdır.**

AXC Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi idi. Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdi. Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların bərabər hüquqlarının tanınması, hətta bir çox Avropa ölkəsindən daha əvvəl qadınlara seçki hüququnun verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, nizami milli ordunun, təhlükəsizlik strukturlarının qurulması və sair işlər Xalq Cümhuriyyəti hökumətinin yürütdüyü siyasətin miqyasını, mahiyyət və mənasını əyani şəkildə səciyyələndirir.

Müsəlman Şərqində ilk demokratik Cümhuriyyəti 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurasının müstəqillik haqqında "İstiqlal bəyannaməsi"ni qəbul etməklə yarandı. Beləliklə, Azərbaycan dövlətçiliyi tarixində ilk Konstitusiya Aktı - "İstiqlal bəyannaməsi"nin qəbulu ilə Azərbaycan dövlətçiliyi Xalq Cümhuriyyəti formasında elan olundu. Bu hüquqi və siyasi sənəddə müstəqil Azərbaycan dövlətinin yarandığı bəyan edildi, onun hakimiyyətinin şamil olunduğu ərazinin hüdudları müəyyənləşdirildi, həmçinin dövlətin əsas fəaliyyət prinsipləri öz əksini tapdı. "İstiqlal bəyannaməsi"ndə demokratik dövlətə məxsus atributların - hakimiyyətin xalqa mənsub olması, vətəndaşların mülki və siyasi hüquqlarının təmsil edilməsi, bütün xalqların və hər bir kəsin milli, dini, sinfi, irqi və cinsi mənsubiyyətindən asılı olmayaraq, azad inkişafı üçün şərait yaradılması, ən nəhayət hakimiyyətin bölünməsi kimi prinsiplərin dövlət fəaliyyətinin əsası kimi bəyan edilməsi Azərbaycan xalqının suveren, demokratik, hüquqi dövlət yaratmaq əzmində olduğunu bütün bəşəriyyətə nümayiş etdirdi. Bu sənəd Azərbaycan millətinin millət-mədəniyyət statusundan tamamilə fərqli siyasi-hüquqi və mənəvi-psixoloji statusa - millət-dövlət statusuna qədəm qoyduğunu göstərdi.

Azərbaycanın istiqlaliyyətinin elan edilməsi xalqımızın tarixində və taleyində çox mühüm siyasi hadisə idi və milli tariximiz üçün çox əhəmiyyətlidir. O zaman Rusiyada baş vermiş inqilablar imperiyanı dağıtmışdı. Belə bir şəraitdə ya öz müstəqilliyini elan edib milli dövlətini yaratmalı, ya da hansısa dövlətin müstəmləkəsinə çevrilməli idik. Xalqın azadlığı üçün yeganə yol Azərbaycan Demokratik Respublikasının elan edilməsi idi.

Beləliklə, ADR bütün Şərqdə, islam və türk dünyasında ilk demokratik respublika oldu. XIX əsrin əvvəllərində itirilmiş milli dövlətçiliyin bərpası faktı millətin taleyində mühüm hadisə kimi təqdirəlayiq idi. Milli dövlətçiliyin bərpası kimi yaradılmış ADR qısa vaxtda öz parlamenti, hökuməti, ordusu və pul vahidi olan demokratik respublikaya çevrildi. Tarixi faktlar da təsdiqləyir ki, Azərbaycan Demokratik Respublikası bu dövrdə yaranmış milli respublikalar içərisində ən demokratik dövlət idi. Azərbaycanda yaşayan bütün xalqlar və bütün siyasi partiyalar parlamentdə təmsil olunurdu. Digər tərəfdən ADR ənənəvi tarixi ərazilərimizə sahib durmuşdu. Eyni zamanda Azərbaycanın milli sərvətlərindən xalqımızın mənafeyinə uyğun istifadə edilirdi.

ADR-in müstəqilliyinin elan olunmasından 23 ay sonra - 1920-ci ilin aprelində xarici təcavüz nəticəsində beynəlxalq münasibətlərə və beynəlxalq hüquqa zidd olaraq dünya ölkələri tərəfindən tanınmış suveren dövlət - Azərbaycan Demokratik Respublikası zorla, silah gücünə devrildi. Hakimiyyət rus imperiyası tərəfindən qəsb edildi. Buna baxmayaraq, Şərqdə ilk müstəqil müsəlman dövlətinin yaradılması xalqımızın yaddaşına əbədi həkk oldu.

Azərbaycan ikinci dəfə müstəqillik qazanandan sonra, dünyada yaranmış yeni geosiyasi vəziyyətdə dövlətçiliyimiz ciddi təhlükələrlə üzləşmişdi. 1993-cü ilin may-iyun aylarında hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarananda xalqın çağırışı ilə ümummilli lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəlməsilə Azərbaycan müstəqilliyinin yeni mərhələsinə qədəm qoydu. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaradıb. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1993-cü ilin yayında bu tarixi xilaskarlıq missiyasını öz üzərinə götürməsi və müdrikliklə reallaşdırması müstəqillik tariximizin öz dəyərini heç zaman itirməyəcək səhifələrindən birini təşkil edir. Bir tərəfdən ölkə daxilində ictimai-siyasi sabitliyin böhran halına çatması, erməni hərbi təcavüzünün genişlənməsi, digər tərəfdən də Azərbaycanın ərazi bütövlüyünün qarantı olacaq milli ordu daxilində özbaşınalıq, parçalanmalar və digər məqamlar müstəqil dövlət quruculuğunu, ən başlıcası, müstəqilliyin özünün qorunmasını çox ciddi çətinliklər qarşısında qoymuşdu. Belə bir mürəkkəb şəratidə böyük siyasi xadim, müdrik dövlət rəhbəri yorulmaz səmərəli fəaliyyəti ilə ölkəni bu ağır vəziyyətdən çıxardı, Azərbaycanın müstəqilliyini dönməz və əbədi etdi.

Azərbaycanın dövlətçilik tarixində son yüz ildə digər sahələrlə yanaşı Azərbaycan ədliyyəsi də inkişaf etmiş, bugünkü dünya standartlarına cavab verən sistem halını almışdır. Dövlətçilik tariximizdə şərəfli yeri olan Azərbaycan ədliyyəsi ötən illər ərzində mühüm uğurlu nəticələrə nail olmuşdur. Bir əsr inkişaf yolu keçən Azərbaycan ədliyyəsinin şanlı tarixi 1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gündən Ədliyyə Nazirliyinin təsis edilməsi ilə başlamışdır. Həmin il noyabr ayının 22-də nazirliyin Əsasnaməsi təsdiq edilmiş, onun funksiya və səlahiyyətləri müəyyən edilmişdir. Təəssüflər olsun ki, 1920-ci ildə ölkə işğal edildikdən sonra milli dövlətçiliyin əsas sütunlarından olan Ədliyyə Nazirliyi ləğv edilərək əvəzində Xalq Ədliyyə Komissarlığı yaradılmış, səlahiyyətləri xeyli məhdudlaşdırılmış, iki dəfə ləğv olunaraq yenidən təsis edilmiş, funksiyaları ayrı-ayrı vaxtlarda prokurorluq, məhkəmə orqanlarına verilmişdir.

Ədliyyə Nazirliyinin yenidən əsaslı surətdə təsis edilməsi, ədliyyə işinin təkmilləşdirilməsi məhz 1970-ci ilə - ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəldiyi dövrə təsadüf edir. Müstəqillik illərində ədliyyə və məhkəmə-hüquq sisteminin inkişafına müstəsna əhəmiyyət verən ümummilli lider Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə yeni milli Konstitusiyamız qəbul olunmuş və hüquqi sahədə islahatların mütəşəkkil qaydada aparılması məqsədilə Hüquqi İslahat Komissiyası yaradılmış, qısa müddət ərzində mühüm qanunlar qəbul edilmiş, məhkəmə və hüquq-mühafizə orqanlarının funksiya və səlahiyyətlərinə yenidən baxılmışdır.

2006-cı ildə Ədliyyə Nazirliyinin yeni Əsasnaməsi qəbul edilərək, ona hüquq mühafizə orqanı statusu verilmiş, nazirliyin yeni müasir görünüşlü rəsmi emblemi təsdiq edilmişdir. Ədliyyə orqanlarının inkişafı, məhkəmə sisteminin müasirləşdirilməsi haqqında fərmanlar imzalanmış, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" yeni Qanun və Ədliyyənin inkişafına dair ayrıca Dövlət Proqramı qəbul edilmiş, Ədliyyə Nazirliyində Ədliyyə Akademiyası, regional ədliyyə şöbələri və müxtəlif reyestrlər yaradılmışdır.

Azərbaycan ədliyyəsinin müasir tarixində baş vermiş mühüm hadisələrdən biri də respublikamızda ilk dəfə olaraq Ədliyyə Nazirliyinin regional şöbələrinin yaradılmasıdır. Ədliyyə orqanlarına işə qəbul proseduru daim təkmilləşdirilmiş, 2006-cı ildən isə qulluğa qəbulun şəffaf müsabiqə yolu ilə aparılmasına başlanılmış, sənədlərin təqdim olunması qaydası xeyli sadələşdirilmişdir. Şəffaf prosedurlarla və aşkarlıq şəraitində keçirilmiş müsabiqə və müsahibələr əsasında yüzlərlə layiqli gənc mütəxəssis ədliyyə orqanlarına qulluğa qəbul olunaraq bu gün onun müxtəlif sahələrində uğurla fəaliyyət göstərirlər.

Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan hərtərəfli uğurlu islahatlar respublikamızın beynəlxalq hüquqi inteqrasiya prosesini də sürətləndirmişdir. Nazirlik tərəfindən həmçinin BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, Dünya Bankı, Beynəlxalq Qırmızı Xaç Komitəsi, Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatı, Avropa Ümumi Hüquq Təşkilatı, Avropa Yerli və Regional Hakimiyyətlər Konqresi, Avropa Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası (CEPEJ) və s. beynəlxalq təşkilatlar ilə səmərəli əməkdaşlıq aparılır.

Məlum olduğu kimi, dövlətimizin başçısı cənab İlham Əliyevin siyasi iradəsi ilə ümumbəşəri sosial bəla olan korrupsiya ilə sərt mübarizə aparılır. Təsadüfi deyil ki, ölkəmizdə institusional və qanunvericilik tədbirləri həyata keçirilmiş, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Açıq Hökumətin təşviqinə və Korrupsiyaya qarşı mübarizəyə dair Milli Fəaliyyət planları qəbul olunmuş, yeni şəffaf və innovativ xidmətlər yaradılmışdır. Prezidentin təşəbbüsü ilə yaradılmış və Azərbaycanın brendi sayılan, ədliyyə orqanlarının da müxtəlif mühüm xidmətlər göstərdiyi "ASAN xidmət" mərkəzlərinin uğurlu fəaliyyəti bu sahədə görülən tədbirlərin əyani təzahürüdür.

Respublikamızda son illər İKT sektorunun inkişafı çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən xeyli işlər görülmüş, ölkə başçısının dövlət orqanlarında elektron xidmətlərin göstərilməsinə dair 2011-ci il 23 may tarixli Fərmanına uyğun olaraq nazirliyin internet saytında elektron xidmət bölməsi yaradılmış, elektron sənəd dövriyyəsinin tətbiqinə başlanılmışdır.

Bu məqsədlə Azərbaycan-Avropa Şurası (AŞ) birgə işçi qrupları yaradılaraq əməkdaşlıq şəraitində "Məhkəmələr və hakimlər haqqında" qanun əsaslı şəkildə yenilənmiş, "Məhkəmə-Hüquq Şurası haqqında qanun", "Hakimlərin Seçki Komitəsi haqqında Əsasnamə", "Hakim vəzifələrinə namizədlərin seçimi Qaydaları", "Hakimlərin Etik Davranış Kodeksi", məhkəmələrdə işin şəffaf təşkili ilə bağlı digər mühüm sənədlər qəbul olunmuşdur.

Aparılmış islahatlar nəticəsində yeni təsisat - məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası yaradılmış, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi və onların fəaliyyəti ilə bağlı digər məsələlər bu orqanın səlahiyyətinə aid edilmişdir.

Bu məqsədlə hakimlərin sayının artırılması və məhkəmə sisteminin müasirləşdirilməsi ilə bağlı dövlət başçısının 17 avqust 2006-cı il və 9 avqust 2010-cu il tarixli fərmanlarının ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında mühüm rolu olmuş, ölkənin sürətli iqtisadi inkişafı ilə əlaqədar məhkəmələrin iş yükünün dəfələrlə çoxalması nəzərə alınaraq hakimlərin sayı 2 dəfə artırılaraq 600-ə çatdırılmış və hər bir hakimə köməkçi ştatı ayrılmışdır.

Avropa Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası (CEPEJ) Avropa hüquq sistemləri üzrə hesabatında respublikamızda məhkəmə islahatlarına göstərilən diqqətin, o cümlədən maliyyə ayırmalarının səviyyəsini, hakimlərin sayındakı artım tempini Avropa dövlətləri sırasında yüksək göstəricilərlə xarakterizə etmiş, həmçinin məhkəmələrdə informasiya və kommunikasiya texnologiyalarının tətbiqi sahəsində səyləri yüksək dəyərləndirmişdir.

Dünya Bankı ilə birgə həyata keçirilən "Ədliyyə sisteminin müasirləşdirilməsi" Layihəsi çərçivəsində ən müasir tələblərə cavab verən konsepsiya əsasında yeni məhkəmə kompleksləri istifadəyə verilmişdir. Bu binalarda müasir İKT-lər tətbiq edilməklə hazırda bütün məhkəmələr arasında, o cümlədən Məhkəmə-Hüquq Şurası və Ədliyyə Nazirliyi ilə elektron sənəd dövriyyəsi və sənədlərin avtomatlaşdırılmış idarəetmə sistemi üçün zəruri infrastruktur quraşdırılmışdır. Qürur hissi ilə deyə bilərik ki, möhkəm bünövrə üzərində formalaşmış müasir Azərbaycan dövləti sürətli inkişaf dövrünü yaşayır. Müstəqil Azərbaycan möhtərəm Prezidentimiz İlham Əliyevin dövlətimizin və xalqımızın gələcəyinə hesablanmış uzaqgörən və düşünülmüş siyasəti sayəsində son illərdə bütün sahələrdə, o cümlədən ədliyyə sisteminin inkişafında da uğurla irəliləyərək, mühüm nailiyyətlər əldə etmişdir.

**İsmayıl QULİYEV,**
**Sumqayıt İqtisadi-İnzibati Məhkəməsinin hakimi.**

# Respublikamızdakı dinamik inkişafın təmin olunması üçün əzmlə çalışırıq



**Azərbaycan Dövlət Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası Elmi-Tədqiqat İnstitutunun yaranmasından 90 il keçir. Yubileylə əlaqədar institutun direktoru, texniki elmlər üzrə fəlsəfə doktoru, Əməkdar mühəndis Rüşti Səfərovdan aldığımız müsahibəni oxucularımıza təqdim edirik.**

**– Rüşti müəllim, Sizi və bütün kollektivinizi yubiley münasibətilə təbrik edir, bu vacib işinizdə müvəffəqiyyətlər arzulayırıq.**

– Çox sağ olun. Bu yubiley ərəfəsində bizə diqqət yetirdiyinizə görə kollektiv adından ölkəmizin aparıcı mətbu orqanından biri olan qəzetinizin rəhbərliyinə minnətdarlığımı bildirirəm.

**– 90 il əvvəl bu elm ocağı hansı zərurətdən yaradılmışdır?**

– Tarixçilərin topladıqları təkzibolunmaz dəlillər sübut edir ki, Bakının yerləşdiyi Abşeron yarımadasında neftin ilk çıxarılması ən azı 250 illik tarixə malikdir. Məşhur italyan səyyahı Marko Polonun yazdığına görə, XIII əsrdə Abşerondakı quyulardan hasil edilən neftdən binaların işıqlandırılması, xəstələrin müalicəsi və eləcə də hərbi məqsədlər üçün istifadə edilirdi. Abşeronda 1806-cı ildə 50, 1821-ci ildə 120, XIX əsrin altmışıncı illərinin ortalarında isə 218 neft quyusu var idi. XX əsrin əvvəllərində "Neft Klondayki" adlandırılan Abşeronda neftin kəşf olunması, neft quyularının qazılması, neftin nəqli və emalı ilə əlaqədar aparılan işlərdə bir sıra təhlükəli məqamlar baş verməkdə idi. Neftçıxarma Sənayesinin inkişafı Azərbaycanda digər sənaye sahələrinin, o cümlədən maşınqayırma sənayesinin inkişafı ilə üzvi surətdə bağlıdır. XX əsrin əvvəllərində xaricdən idxal edilmiş avadanlıqlar, sonrakı dövrlərdə Nobel qardaşlarının, Rotşildin, Tağıyevin, Muxtarovun, Bekendorfun emalatxanalarında təmir olunurdu. Bu emalatxanalar gələcək maşınqayırma zavodlarının əsasını təşkil etmişdir.

Neft quyularının qazılması zamanı quyuların sökülüb-dağılması, neft quyularını qazan fəhlələrin quyularda zəhərlənməsi, mədənlərdə yanğınların baş verməsi sahibkarları düşünməyə vadar edirdi. Neftin əhəmiyyətinin artması ilə yanaşı, onun əldə edilməsi templəri də sürətlə artmaqda davam edirdi. Bu artım istehsalat sahələrində baş verən xəsarətlərin və insan tələfatlarının artmasına səbəb olurdu. Baş verən hadisələrin qarşısının alınmasının gündəmə gəlməsi və zəruri tədbirlərin görülməsi lazım idi.

Çıxış yolu haradadır? Bu sual uzun müddət sənayenin bütün sahələrində işləyən mühəndis texniki personalı, müəssisə rəhbərlərini və ictimaiyyəti gərginlikdə saxlayırdı. Sənayenin ayrı-ayrı sahələrində təhlükəsizlik məsələlərinə fərdi yanaşma, hər hansı qərar və ya tapşırıq real nəticə verə bilməzdi. O dövrdə kortəbii olsa da, baş verən hadisələri təhlil edərək, onların qarşısını almaq üçün yeni bir qurumun yaradılması zəruriyyəti ortaya çıxdı. Sadalanan bu problemləri həll etmək məqsədi ilə SSRİ Xalq Komissarları Şurasının 23 noyabr 1928-ci il tarixli qərarına əsasən təhlükəsizlik texnikası üzrə Bakı Elmi-Tədqiqat İnstitutu yaradılmışdır. İlk direktor 1880-ci ildə anadan olmuş milliyyətcə rus, sosial mənşəyi fəhlə, orta təhsilli İvan İvanoviç Anaşkin olmuşdur.

**– Təhlükəsizlik texnikası üzrə Bakı Elmi-Tədqiqat İnstitutu necə oldu ki, keçmiş İttifaq tabeliyinə verildi?**

– Neft sənayesində əmək xəsarətinin qarşısının alınması məqsədi ilə texniki təhlükəsizlik məsələlərinin elmi cəhətdən işlənilməsi və istehsalata gündəlik praktiki yardım göstərilməsi üçün Xalq Komissarlığının 1944-cü il 24 iyun tarixli əmrinə əsasən Bakı Elmi-Tədqiqat İnstitutu bazasında Ümumittifaq Təhlükəsizlik Texnikası Elmi-Tədqiqat İnstitutu (ÜTTETİ) yaradıldı. Onun ən mühüm fəaliyyət istiqamətlərindən biri neft hasilatı və emalı müəssisələrinin təhlükəsizlik qaydalarının, neft sənayesində elektrik qurğu və cihazlarının istismarı üzrə qaydaların tərtib edilməsi olub. Bu qaydaların tətbiqi qəzaların qarşısını almağa, travmatizmin səviyyəsinin aşağı düşməsinə böyük təsir göstərirdi. İnstitut bir qədər sonra maşınqayırma zavodlarında və dağ-mədən müəssisələrində təhlükəsizlik texnikası məsələləri ilə də məşğul oldu. Ötən əsrin 50-60-cı illərində ÜTTETİ bir sıra qurumların, o



cümlədən Azərbaycan SSR Neft Sənayesi Nazirliyi, Xalq Təsərrüfatı Şurası, SSRİ Nazirlər Sovetinin Yanacaq Sənayesi üzrə Dövlət Komitəsi, Kimya və Neft Sənaye Dövlət Komitəsi, Neft hasilatı sənayesi Dövlət Komitəsi və SSRİ Neft Hasilatı Sənayesi Nazirliyinin tabeliyində fəaliyyət göstərib. İnstitutda sərgilər və yarmarkalar üzrə daim fəaliyyət göstərən Şura, patentləşdirmə qrupu yaradılıb, onun təsərrüfathesablı filialı kimi Xüsusi Konstruktor bürosu təşkil edilib.

1964-cü ildə İnstitut SSRİ-də, həmçinin Qarşılıqlı İqtisadi Yardım Şurasının xətti ilə bütün neft sənayesində elmi-tədqiqat işlərini əlaqələndirən texniki təhlükəsizlik məsələləri üzrə baş təşkilat olub. Onun fəaliyyəti sayəsində neft-maşınqayırma sahəsində avadanlığın unifikasiya edilməsinin əsası qoyulub, "Neftqazçıxarma avadanlıqlarının əsas növlərinin istismarı üzrə vahid təhlükəsizlik texnikası normaları" hazırlanıb. "Tengiz-neft-qaz", "Emba-neft", "Kaspianqazmaneft" və digər istehsalat birlikləri üçün 50-dən artıq normativ sənəd işlənilib. Elmi-tədqiqat, eksperimental işlərə baxılması, müzakirəsi və qiymətləndirilməsi üçün direktorun yanında Elmi şura fəaliyyət göstərirdi.

**– Bəs SSRİ dağıldıqdan sonra institutun aqibəti necə oldu?**

– Müstəqillik dövründə elm ocağı Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Komitəsinin tabeliyində olmaqla Azərbaycan Dövlət Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası Elmi-Tədqiqat İnstitutu (AzDƏMTTETİ) adı altında fəaliyyət göstərməyə başlayıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 16 dekabr 2005-ci il tarixli sərəncamı ilə yaradılmış **Fövqəladə Hallar Nazirliyinin** tərkib hissəsi olan Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ Mədən Nəzarəti Dövlət Agentliyi və Azərbaycan Dövlət Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası Elmi-Tədqiqat İnstitutu nazirliyin strukturuna daxil edilmişdir. Beləliklə, institutun həyatında yeni bir inkişaf dövrü başlanılmışdır.

**– Rüşti müəllim, bir az da institutun son illərdəki fəaliyyətindən və uğurlarından oxucularımıza məlumat verməyinizi xahiş edirik.**

– İnstitutun əməkdaşları ixtiraya görə 260-dan artıq müəlliflik şəhadətnaməsi və patentlər alıblar. Onlar tərəfindən hazırlanmış 600-ə yaxın monoqrafiya, kitab, kitabça və məqalələr xaricdə maraqla qarşılanır. İnstitutun bir çox layihələri Əlcəzair, Əfqanıstan, Yəmən, Somali, İraq, Monqolustan, Banqladeş, Kuba və Maliyə ixrac edilib, qazma işlərində təhlükəsiz (dağıdıcı olmayan) sınaq üsulu isə Hindistanda və Vyetnamda müvəffəqiyyətlə tətbiq olunub.

İnstitutun çoxillik və səmərəli fəaliyyəti sənayedə təhlükəsiz əmək şəraitinin yaradılmasına, istehsalat zədələnmələrinin və peşə xəstəliklərinin minimuma endirilməsinə imkan yaradır. İnstitutda kadr hazırlığı və yerləşdirilməsi üzrə kompleks tədbirlər hazırlanaraq mərhələlərlə həyata keçirilir.

Elmi-tədqiqat işləri üçün Fövqəladə Hallar Nazirliyi tərəfindən müasir tələblərə cavab verən avadanlıq və cihazlar alınıb. İnstitut ilə bağlanılmış müqavilələr çərçivəsində neft və qazçıxarma sahəsində, xüsusilə də dəniz obyektlərində baş verə biləcək bütün qəza növlərinə dair operativ xəbərdarlıq, qəzanın ləğvi və işçilərin təxliyyə edilməsi üzrə əlaqələndirilmiş və operativ fəaliyyət, rəhbərlik və təşkilatçılıq funksiyalarının dəqiq yerinə yetirilməsi qaydalarının işlənilməsi üzrə işlər davam etdirilir. İnstitutda maarifləndirmə işlərinə diqqət artırılır. Müəssisə, təşkilat və obyektlərdə rəhbər işçi və mütəxəssislərin texniki təhlükəsizlik barədə biliklərinin təkmilləşdirilməsi və yoxlanması üzrə tədris kursları təşkil edilib.

Aparılan araşdırmalar sayəsində məlum olub ki, beynəlxalq təcrübəyə əsasən texniki təhlükəsizliyin təmin olunması üçün yanacaq və mayeləşdirilmiş qaz məhsullarının daşınmasında istifadə olunan avtoçənlərin yuyulması, deqazasiya olunması və zəruri diaqnostik işlərinin aparılmasında yumadeqazasiya kompleksləri fəaliyyət göstərir. İnstitutun mütəxəssisləri daxili imkanlar hesabına kənar təşkilatların mütəxəssisləri ilə birgə apardığı işlərin nəticəsində belə bir kompleks layihə olunub, dəstləşdirici hissələr alınaraq qısa müddətdə tikinti-quraşdırma işləri aparılıb.

Hər il 30-dan çox 2-ci sinfə aid mayeləşdirilmiş təbii qaz və 400-dən çox 3-cü sinfə aid neft məhsulları daşıyan avtonəqliyyat vasitələrinin texniki müayinəsi aparılır. Beləliklə, təhlükəli yüklərin daşınmasında beynəlxalq normaların tələbinə uyğun texniki təhlükəsizliyin təmini istiqamətində mühüm addım atılıb. Son 10 ildə elmi-tədqiqat, elmi-texniki ekspertiza, araşdırma işləri üzrə ümumi iş həcmi 3,5 dəfədən çox və institutda çalışan əməkdaşların sayı 2 dəfə, orta əməkhaqqı 4,3 dəfə artmışdır.

**– Yubileylə əlaqədar olaraq hansı tədbirlər həyata keçirəcəksiniz?**

– Mövcud olduğu 90 il ərzində institut bir neçə laboratoriyadan başlayaraq, neft sənayesində, eləcə də sənayenin digər sahələrində əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə elmi mərkəzə qədər uzun və mürəkkəb inkişaf yolu keçib. İnstitutun kollektivi insanların sağlamlığının və əmək qabiliyyətinin qorunub saxlanması üzrə əsas vəzifəsini yerinə yetirərək sənaye sahələrinin elmi-texniki inkişafına layiqli töhfə verib. 90 illik yubileylə əlaqədar olaraq institut bir sıra silsilə tədbirlər işləyib hazırlamışdır. Əməyin mühafizəsi və təhlükəsizlik texnikası barədə geniş elmi-praktiki konfrans keçirilməsi, təhlükəsizlik texnikası üzrə işlər və sınaq diaqnostika işləri konkret olaraq iştirakçıların diqqətinə çatdırılacaqdır. İnstitutun elmi-texniki strategiyası sənaye təhlükəsizliyinin ekspertizası, əmək şəraitinin qiymətləndirilməsi, avadanlıqların diaqnostikası, qüsurların aşkarlanması, avadanlıqların pasportlarının, istismar təlimatlarının bərpası, təhlükəli yükləri daşıyan avtonəqliyyat vasitələrində audit, texnoloji nəqliyyat vasitələrində audit, texniki təhlükəsizlik normalarının təşviqi və maarifləndirilməsi kimi işlərdir.

Onu da vurğulamaq istərdim ki, bu gün kollektivdə çalışanların 70%-dən çoxu gənclərdir. Bu bizim gələcəyə qoyduğumuz ən qiymətli investisiyadır. Onların verəcəyi əmək töhfələrinin əsasında gələcəkdə təhlükəsiz sənayenin yaradılması mümkün olacaqdır. Xüsusilə qeyd etməliyəm ki, əldə olunmuş nailiyyətlər kollektivimizi arxayınlaşdırmır. Respublikada gedən dinamik inkişafdan ruhlanaraq sənaye təhlükəsizliyinin təmin olunması üçün əzmlə çalışırıq.











**Müsahibəni apardı:
M.MİRZƏ,
"Respublika".**

# BAKI NEFTİ VƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN SİYASİ TALEYİ

**(əvvəli 4-cü səhifədə)**

Buna görə də Rokfellerdən maliyyə yardımı alaraq Rusiyada hərbi çevriliş yolu ilə hakimiyyəti ələ alan V.İ.Lenin, L.Trotski, F.Dzerjinski və digər bolşeviklər Bakını əldə saxlamaq üçün 1917-ci il dekabrın 16-da bolşevik və "Daşnaksütyun" partiyalarının üzvü S.Q.Şaumyanı Qafqazın fövqəladə və səlahiyyətli komissarı təyin etdilər. Geniş səlahiyyətlər alan S.Q.Şaumyan, həm də Bakı Sovetinin sədri olduğu üçün ona V.İ.Leninin birbaşa göstərişi ilə 500 min rubl vəsait ayırmışdı. Bakıda hakimiyyəti ələ alan S.Q.Şaumyan Sovet Rusiyasının rəhbəri V.İ.Lenindən yeni tapşırıqlar alır. 1918-ci il fevralın 14-də V.İ.Leninin ona ünvanladığı teleqramda bu öz əksini tapmışdı. Mərkəzi hökumətdə Qafqaz məsələləri ilə məşğul olan İ.V.Stalin isə 19 mart 1918-ci ildə S.Q.Şaumyana yazdığı məktubunda: "Bakını hərbi və maliyyə cəhətdən möhkəmləndirmək lazımdır" fikrini ifadə etməkdə məqsədi Bakı neft rayonunu nəyin bahasına olursa olsun əldə saxlamaq idi. Bu məqsədlə V.İ.Leninin göstərişi və İ.V.Stalinin bilavasitə iştirakı ilə Bakı Sovetinə 30 milyon 800 min rubl maliyyə vəsaiti ayrılmış və Moskva hərbi dairəsindən neft şəhərinə 14 aeroplan, 2 zirehli qatar, 5 min tüfəng və hərbi dəstə göndərilmişdi. Sovet Rusiyasından hərbi və maliyyə yardımı olan Stepan Şaumyan 1918-ci ilin martın sonunda Bakı şəhərini əsl sahibi olan azərbaycanlılardan təmizləmək üçün soyqırımı cinayəti törətdi.

Moskva hərbi dairəsindən alınan silahlar, o cümlədən 5 min tüfəng Qafqaz cəbhəsinin müxtəlif bölgələrindən Bakıya gətirilmiş erməni əsgərlərinə paylanmışdı. Qeyd etmək lazımdır ki, 10-12 minlik Bakı Sovetinin tabeliyində olan qondarma "qırmızı qvardiya"nın 70 faizi ermənilərdən ibarət idi.

Sovet Rusiyası Bakını əldə saxlamaq üçün ermənilərdən dəhşətli silah kimi istifadə edəcək Şimali Azərbaycan ərazisinin İrəvan, Naxçıvan, Zəngəzur, Qarabağ, Şamaxı, Quba, Lənkəran bölgələrində 300 000 nəfərdən çox azərbaycanlının soyqırımını təşkil etmişdir. Bu məsələdə ermənilər i öz tərəflərinə çəkmək istəyən Böyük Britaniya, ABŞ və hökumətləri də onlara maliyyə yardımı ilə bərabər, həm də hərbi təlimlər keçirdilər. Sovet Rusiyası 1918-ci ilin iyunun əvvəlində Bakıda vəziyyətin ağırlaşdığından xəbər tutduqdan sonra Şaumyanın ünvanına bir sıra müraciətlər ünvanlayır. Bu müraciətlərdən biri onun Bakı Neft Komitəsinə sədr təyin etdiyi Ter-Qabrelyana ünvanlanmışdı. V.İ.Lenin tərəfindən vurulan teleqramda: "Bundan əlavə siz Terə əgər hücum təhlükəsi olarsa, o Bakını tamamilə yandırmaq üçün hər şeyi hazır etsin və bunu mətbuatda çap etdirsin". Bu teleqramdan sonra Lenin tərəfindən S.Şaumyanın ünvanına 50 milyon rubl maliyyə vəsaiti də göndərilmişdir ki, ondan istifadə edərək Bakının yandırılmasını həyata keçirsin. Bakıda törədilən türk-müsəlman soyqırımı cinayətini gizlədərək ona "Vətəndaş müharibəsi" donu geyindirən də məhz Stepan Şaumyan 1918-ci il aprel ayının 13-də Moskvaya, Sovet Rusiyasının rəhbəri V.İ.Leninə göndərdiyi məktubda 30-31 mart və 1 apreldə Bakı şəhərində şiddətli vuruşma olmuşdur Bir tərəfdən Sovet Qırmızı Qvardiyası, bizim təşkil etdiyimiz Beynəlmiləl Qızıl Ordu, Qırmızı Donanma və erməni milli hissələri, o biri tərəfdən "Müsavat" partiyasının başçılıq etdiyi müsəlman "Vəhşi diviziyası" və silahlı **müsəlman quldur** dəstələr vuruşdular. Biz də Aviasiya məktəbinin hidroaeroplanları da kömək etdi. Düşmən tamamilə darmadağın edilmişdir. Onlar Bakıda üstün gəlsəydilər, səhəri Azərbaycanın paytaxtı elan edər, bütün qeyri-müsəlman ünsürlər tərk-silah edilib qırılardı". Məktubun məzmunu belə bir fikri söyləməyə əsas verir ki, Sovet Rusiyasından xüsusi tapşırıq alan bu cəlladın əsas məqsədi Azərbaycan xalqına divan tutaraq onu öz doğma torpağından məhrum etmək və sərvətlərini ələ keçirmək idi. Onun şəhərin müsəlman əhalisinə divan tutarkən Moskva hərbi dairəsindən göndərilən aeroplanlardan istifadə edildiyini etiraf etməsi faktı belə bir fikri qəti surətdə təsdiq etməyə əsas verir ki, bu cəllad azərbaycanlıların soyqırımını təşkil etmək sifarişini Sovet Rusiyası rəhbərliyindən almışdı. Digər bir təkzibedilməz fakt odur ki, Bakının milli qüvvələr tərəfindən gələcək Azərbaycan dövlətinin paytaxtı elan etməsindən qorxuya düşən bu cəlladlar buna yol verməmək üçün Azərbaycan xalqına qarşı soyqırımı cinayəti törətdilər. Cinayətkar sovet hökumətinin nəyin bahasına olursa-olsun, Bakını əlində saxlamaq istəyini təsdiq edən fakt Almaniyanın İstanbuldakı konsulunun 1918-ci il iyul ayının əvvəlində öz hökumətinə təqdim etdiyi hesabatında da öz əksini tapmışdır. Konsul bolşeviklər tərəfindən Bakını güclü mühafizə edildiyini qeyd edir və "Bakı məsələsi" ilə bağlı Sovet Rusiyası ilə danışıqlar aparmağı təklif edərək yazırdı: "Əgər biz bolşeviklərlə sazişə gələ bilsək, onda Bakının neft mədənləri və neft ehtiyatları bütövlükdə əlimizə salamat keçəcək. Əgər bunun əksinə olaraq, bolşeviklər şəhəri tərk etməyə məcbur olsalar, mədənləri yandıracaqlar, onda nə biz, nə də türklər neft ehtiyatlarından istifadə edə biləcəyik. Onlarsız isə Qafqaz dəniz yollarının istisması tezliklə dayanacaq". Bu fikri daha başqa bir fakt da təsdiq edir. 1918-ci ilin iyulunda İstanbulda konfransda iştirak edən Azərbaycan XC nümayəndə heyətinin rəhbəri M.Ə.Rəsulzadənin M.H.Hacınskiyə məktubunda qeyd edirdi: "Sizə məlumdur ki, neft haqqında məsələ Azərbaycandan çox Türkiyə-Almaniya məsələsidir". Məsələnin maraqlı tərəfi odur ki, I Dünya müharibəsində vuruşan dövlətlərin, o cümlədən Böyük Britaniya hökumətinin də planlarında Bakını işğal etmək xüsusi əməliyyat planı var idi və onu həyata keçirməyi Qacarlar İranının Ənzəli limanında yerləşən ingilis hərbi dəstəsinin komandanı general Lionel Denstrillə tapşırmışdı.

Qeyd etmək lazımdır ki, Bakı Sovetindən hakimiyyəti təhvil alan qondarma Sentrokaspi hökumətinin üzvləri olan eserlər, menşeviklər və erməni daşnakları Bakı şəhərini əllərində saxlamaq üçün Böyük Britaniya qoşunlarının dəvət olunması məqsədi ilə erməni daşnaklarından ibarət nümayəndə heyətini Qacarlar İranının Ənzəli şəhərinə göndərmişdilər. Ermənilər general G.Denstvillin komandanlığı altında 20 min nəfərlik Böyük Britaniya qoşununun Bakıya gələcəyini gözləyirdilər. Lakin avqustun 4-də Bakıya cəmi 1000 nəfərlik hərbi dəstə daxil oldu və şəhərdəki vəziyyətlə tanış olduqdan sonra, həmin ayın 24-də general G.Denstrivill şəhəri tərk etmək haqqında qərar qəbul etdi. Sentrokaspi qondarma hökumətinin zəifliyi və xüsusilə də erməni daşnaklarının özbaşınalığının geniş miqyas alması ingilis komandanlığını belə bir qərar qəbul etmək qənaətinə gətirmişdi. Digər əsas səbəb isə Birləşmiş Qafqaz İslam Ordusunun Bakı şəhərini azad etmək istiqamətində həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar idi. Artıq 1918-ci ilin avqustun sonunda ingilis komandanlığı müqavimət göstərməyin heç bir əsası olmadığını anlamışdılar. Buna görə də onlar Ənzəli limanına dönərkən ermənilərin müqaviməti ilə rastlaşdılar və onların hərbi hücumuna məruz qalaraq 47 nəfər itki verdilər. Lakin bu, heç də uzun sürmədi.

L.Denstervill Bakıdakı eser, menşevik və daşnaklarla əlaqə yaratdı ki, şəhərin işğalı planını hazırlamaqda və həyata keçirməkdə onlardan yardım alsın.

İngilis komandanlığının fəaliyyəti nəticəsində neftçıxarma sahəsinə vurulan zərər 45 milyon rubl, o cümlədən neftdaşımada dəyən zərər 157,55 milyon rubl təşkil etmişdi. Bütövlükdə isə ümumi hasilatda dəyən zərər isə 220,57 milyon təşkil etmişdi. İngilis komandanlığının 1918-ci ilin dekabrından 1919-cu ilin iyulunadək Azərbaycan Xalq Cümhuriyyəti Dəmir Yolu İdarəsinə sərnişin, yükdaşıma və o cümlədən maye yanacaq daşınması üzrə yığılan borcu 26465929 rubl 75 qəpik idi. Bütövlükdə isə əldə olan rəsmi sənədlərə əsasən İngilis komandanlığının AXC hökumətinə olan ümumi borcunun 25734220 rubl 64 qəpiyi hökumətin 354 saylı cari hesabına köçürüldükdən sonra, qalan borcun miqdarı 52 200 150 rubl 39 qəpik təşkil edirdi. Bütünlüklə isə 1918-ci ilin dekabrından 1919-cu ilin avqustunadək olan müddət ərzində 113,5 milyon rubl dəyərində 30 milyon pud neft ingilis hərbi komandanlığı tərəfindən Azərbaycandan aparılmışdır.

Bundan əlavə, İngilis komandanlığının sifarişi ilə göstərilən müddət ərzində ağ neft kəməri və dəmir yolu ilə Bakıdan göndərilən bütün növ neft məhsullarının ümumi həcmi 29830989 pud 37 funt olmuşdur ki, onun da 19552316 pud 33 funtunun hansı ünvana göndərildiyi məlum deyildir. Bütün bunlar 1918-1920-ci illərdə mövcud olmuş AXC hökumətinə və Azərbaycan xalqına Böyük Britaniya imperiya nümayəndələrinin ilk növbədə dövlət və hərbi xidmətlərinin hansı münasibət göstərdiklərini bir daha təsdiq edir.

Böyük Britaniya Osmanlı dövlətinin məğlub olaraq 30 oktyabr 1918-ci ildə imzaladığı Mudros müqaviləsindən sonra türk qoşunlarının Cənubi Qafqaz, ilk növbədə isə neft Bakısını tərk etməyi tələb etdi. Böyük Britaniya qoşunlarının komandanı general Tomson Bakı limanında AXC-nin dövlət bayrağını təhqir edərək bu "əsgi parçası"nı çıxarıb atmağı tələb etdi. Şəhəri ələ keçirdikdən sonra AXC hökumətinə etinasızlıq göstərən general Tomson ondan Müdafiə Nazirliyinin Bakı şəhərindən çıxarılmasını tələb etdi və şəhərin özünün və onun neft mədənlərinin Böyük Britaniya dövlətinin mülkü olduğunu elan etdi. Lakin 1918-ci il dekabrın 28-də yenidən təşkil olunmuş hökumətin başçısı Fətəli xan Xoyskininin gərgin səyləri nəticəsində ingilis komandanlığı ilə normal münasibətlər qurmaq mümkün oldu və general Tomson onu Azərbaycanda yeganə qanuni hakimiyyət olduğunu qəbul etdi.

Qeyd etmək lazımdır ki, ingilis işğalı nəticəsində Azərbaycan neft sənayesinə ağır zərbə vuruldu. Bakı Soveti qoşunlarının bombardımanı və ingilislərin hərbi müdaxiləsi nəticəsində neft sənayesinə dəyən ümumi zərərin miqdarı 21 milyon 548 min rubl təşkil edirdi.

1918-ci il noyabrın 17-də "Bakı və onun neft mədənlərini işğal etmək" niyyəti ilə Böyük Britaniya qoşunları yenidən Bakıya daxil oldu.

Bakı neftini ələ keçirmək niyyəti o zaman yanacağa və digər neft məhsullarına kəskin ehtiyacı olan I Dünya müharibəsinin başlanmasının təşəbbüskarı Almaniya hökumətinin planlarında da xüsusi yer tuturdu. Alman generalı Ludendorf hesab edirdi ki, Qafqazı ələ keçirməklə iqtisadi cəhətdən gücləndirmək üçün onun açıqcasına etiraf etdiyi kimi, almanlara "Bakıya gəlib çıxmaq" lazım idi. Almaniyanın Qafqazı, o cümlədən Bakını ələ keçirmək cəhdlərinin ciddiliyi və ona böyük əhəmiyyət verdiyini Almaniya Baş qərargahının 1918-ci ilin iyul ayında Belçikanı Spa şəhərində keçirilmiş məxfi müzakirələrinin sənədləri də aşkar şəkildə tənqid edir. Müzakirələrdə Kayzer II Vilhelm, Hindenburq, Lüdendorf və digər hərbçilər iştirak etmişdilər. 1918-1920-ci ilin aprelin sonunadək AXC hökumətinin göstərdiyi bütün səylərə baxmayaraq, Sovet Rusiyası Bakı neftinə sahib olmaq niyyətindən əl çəkməyərək onu de-jure tanımaqdan imtina etdi və 1920-ci il aprelin 28-də Bakı Sovet Rusiyasının XI Qırmızı Ordusu tərəfindən işğal olundu.

Bundan əlavə, 1919-cu il Paris Sülh Konfransında iştirak edən AXC nümayəndə heyətinin sədri Ə.M.Topçubaşovun göstərdiyi bütün səylərə baxmayaraq, AXC və digər Avropa ölkələri tərəfindən də de-jure tanınmadı. AXC-nin siyasi taleyinin həllində Bakı neftində güclü mövqelərə malik "Nobel qardaşları" şirkəti və onun səhmlərini alan Rokfellərə məxsus "Standart Oyl" Rotşildlərə məxsus "Xəzər-Qara və Dəniz neft-sənaye və ticarət cəmiyyəti", ingilis kapitalına məxsus "Royal Datc Şell" şirkətlərinin tutduqları mövqe isə xüsusi yer tutur. Bu mövqe AXC-nin siyasi taleyində həlledici rol oynadı.

Qeyd etmək lazımdır ki, AXC-nin bütün rəhbərləri neftin ölkənin siyasi taleyində tutduğu yeri dərindən dərk edir və bundan maksimum dərəcədə istifadə etməyə çalışırdılar. AXC-nin Xarici İşlər naziri M.H.Hacınskinin 1918-ci il iyul ayının əvvəlində İstanbula M.Ə.Rəsulzadəyə ünvanladığı məktubunda Almaniya və Osmanlı dövlətinin Bakı nefti ilə bağlı maraqlarının Azərbaycan hökuməti tərəfindən nəzərə alınacağını söyləməyi xahiş etmişdi. O, yazırdı: "Türkiyə, Azərbaycan və Almaniyanın maraqlarının uzlaşdırılması üçün zəmin tapır. Bu zəmin Bakı nefti haqqında iqtisadi razılaşmadan ibarətdir. Burada güzəştlərə getmək olar".

Göründüyü kimi, AXC təmsilçilərinin keçirdikləri bütün diplomatik görüşlərdə, yazdıqları rəsmi məktublarda, apardıqları danışıqlarda Bakı nefti məsələsi əsas məsələ olaraq Cümhuriyyətin siyasi taleyində xüsusi yer tutduğu aydın görünür.

Bakı neftinin AXC-nin siyasi tabeliyində oynadığı roldan bəhs edərkən burada ABŞ dövlətinin mövqeyini barədə fikir söyləməyə mütləq ehtiyac vardır. Belə ki, ABŞ şirkətləri XIX əsrin sonu-XX əsrin 1920-ci ilə qədərki dövrdə Bakı neft sənayesində rəsmi olaraq təmsil olunmasalar da, göstərilən müddət ərzində həmişə buraya maraq göstərmişlər. Bu baxımdan ABŞ-ın Rokfellerə məxsus "Standart Oyl" şirkətinin fəaliyyəti diqqəti cəlb edir. ABŞ hökumətinə çox güclü təsir gücünə malik Rokfellerin atdığı addımlar, 1918-ci ildə "Nobel qardaşları yoldaşlığı" şirkətinin səhmlərinin "Standart Oyl" şirkəti tərəfindən alınması, 1919-cu ildə ABŞ hökuməti tərəfindən Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı həyata keçiriləcək siyasətin formalaşdırılmasına dair arxiv sənədləri ilə tanışlıq ABŞ dövlətinin 1920-ci ilin yayına qədər bu regionda yeritdiyi siyasətin mahiyyətini anlamağa imkan verir. Qeyd etmək lazımdır ki, Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı məsələ qalib dövlətlərin, ilk növbədə ABŞ prezidenti Vidro Vilsonun təklifi ilə 1919-cu ilin mayın 2-də Dördlər Şurasının iclasında müzakirə olunmuş və AXC nümayəndə heyətinin Parisə buraxılması tələb olunmuşdu. Qeyd etmək lazımdır ki, Vudro Vilson Parisə yola düşərkən O, "Standart Oyl"un sahibi Rokfeller tərəfindən qəbul edilir, ona AXC nümayəndə heyəti ilə görüşmək təlimatı verilsə də, ABŞ hökuməti tərəfindən onun de-yure tanınması qadağan edilir. Məsələnin maraqlı tərəfi odur ki, burada məqsəd, nəyin bahasına olursa-olsun, Bakı neftini ələ keçirmək istəyən Rokfellerin təklifi ilə gerçəklikdə əsas rəqibi olan Böyük Britaniya neft şirkətlərini təmsilçisi H.Deterdinqə qarşı mübarizə aparmaq üçün XX əsrin əvvəlində dünya maliyyəsi məsələləri üzrə məşhur saxtakar və fırıldaqçı Harri Tsinkler bu işə cəlb olunur. 1920-ci ildə İstanbula gələrək Çar generalı Frangell ordusunda xidmət etmiş ehtiyatda olan zabitlər də daxil olmaqla 8000 nəfər şəxsi öz ətrafında toplayan Henri Sinfeler buradakı Bakı istiqamətində hərəkət etmək və neft mərkəzini Sovet Rusiyasının hərbi sənayesi caynağından qoparmaq kimi xəyali bir plan hazırlayır. Lakin bu planın qarşısı Osmanlı dövləti tərəfindən alınmışdı.

1919-cu ilin mayında Parisə gələn AXC-nin nümayəndə heyətinin Ə.M.Topçubaşov başda olmaqla üzvləri ABŞ Prezidenti Vudro Vilsonun tövsiyəsi ilə ABŞ-ın Osmanlı dövlətindəki keçmiş səfiri Henri Morgentan ilə görüşür. 28 may 1918-ci ildə keçirilən bu görüş bir neçə saat çəkir. Nümayəndə heyətinin rəhbəri AXC parlamentinin de-jure tanınmasını və ikitərəfli münasibətlərin qurulmasını təklif etsə də, Rokfellerin mövqeyi də işini görür. ABŞ hökuməti regionu dərindən öyrənmək üçün "Qafqazda Amerika adminstrasiyasının yardım Komitəsi" yaradıldı və öz nümayəndələri olan V.N.Haskel, Con Rondolf və Ceyms Rey kimi şəxsləri olan V.N.Haskel sentyabrın 1-də Naxçıvanda ABŞ dövlətinə tabe olan general-qubernatorluğunun yaradılmasına böyük ehtiyac olduğunu söylədi. Əldə qalan arxiv sənədləri belə bir fikri söyləməyə səs verir ki, AXC-yə məxsus əraziləri nəzarətə götürən ABŞ dövlətinin hərbi-siyasi missiyasının əsas məqsədi Ermənistana hərbi-siyasi və maliyyə yardımı göstərilməklə bərabər, guya Cənubi Qafqaz xalqları arasında baş verə biləcək münasibətlərin qarşısının alınması idi, lakin əslində bu belə deyildi. 1919-cu il sentyabrın 5-də Ermənistan parlamentində çıxış edən V.H.Haskel iki ölkə arasında yaranmış hərbi-siyasi gərginliyin artmasında AXC hökumətini ittiham edir və ABŞ hökuməti tərəfindən Ermənistana yardım ediləcəyini vəd etdikdən sonra, AXC hökuməti üzvləri ilə keçirdiyi görüşdə isə onun adından deyilənlərin yalan və böhtan olduğunu söyləyir. Bütün bunlar ABŞ dövlətinin AXC-yə qarşı hansı siyasi mövqe nümayiş etdiyini açıq-aydın göstərir. Tarixdə varislik prinsipinə istinad edərək, birmənalı şəkildə söyləmək olar ki, AXC-nin yaradılmasından 100 il ötsə də, 70 illik sovet işğalından sonra çox ağır itkilər və məhrumiyyətlər hesabına öz dövlət müstəqilliyini bərpa edən Azərbaycan xalqı, 1992-ci ildən bu günədək Qərb ölkələri, o cümlədən ABŞ, Fransa, Böyük Britaniya, RF və digər böyük xristian ölkələri tərəfindən həyata keçirilən ikili standartlar siyasəti ilə hər addımda qarşılaşmaqda davam edir. Lakin bütün bunlara baxmayaraq, ümummilli lider Heydər Əliyevin memarı olduğu müasir Azərbaycan dövləti, bütün maneələri dəf edərək, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında öz beynəlxalq mövqelərini möhkəmləndirmiş və Cənubi Qafqaz regionunun lider dövlətinə çevrilmişdir.

**Cəbi BƏHRAMOV,
t.ü.f.d., dosent.**

# Azərbaycan Ədliyyəsi demokratik dövlət quruculuğunda böyük rol oynayır

**Bu il Azərbaycan Ədliyyəsi 100-cü ildönümünü və peşə bayramını qürur hissi ilə qeyd edir.**

Cümhuriyyətin süqutundan sonra Ədliyyə Nazirliyinin mükəmməl struktur kimi əsaslı surətdə formalaşdırılması, ədliyyə işinin təkmilləşdirilməsi, onun gələcək inkişafı üçün əlverişli şəraitin yaradılması məhz ötən əsrin 70-80-ci illərinə — ümummilli lider Heydər Əliyevin respublikamıza birinci rəhbərliyi dövrünə təsadüf edir. Ötən əsrin sonlarında Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra da ulu öndər Ədliyyə Nazirliyinin inkişafı, hüquqi dövlətdə onun layiq olduğu yeri tutması üçün ədliyyə orqanlarının fəaliyyətinin gücləndirilməsini son dərəcə zəruri saymışdır.

1995-ci ilin 12 noyabrında ilk milli Konstitusiyanın qəbulundan sonra respublikamızda məhkəmə-hüquq islahatları və ədliyyə orqanlarının fəaliyyətinin keyfiyyətcə yeni dövrün tələblərinə uyğun təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Əsas Qanunda əksini tapmış müddəaların üçdə birinin sırf insan hüquq və azadlıqları ilə bağlı olması ədliyyə sistemində əsaslı islahatların aparılmasını, bu orqanın bəzi funksiyalarının təkmilləşdirilməsini və fəaliyyət dairəsinin genişləndirilməsini vacib məsələlər kimi önə çıxarmışdır. Müdrik liderin rəhbərliyi ilə aparılmış hüquq islahatları çərçivəsində qəbul edilmiş çoxsaylı qanunlara, imzalanmış fərmanlara əsasən Ədliyyə Nazirliyinin üzərinə yeni vəzifələr qoyulmuşdur. Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidməti təsis edilməklə yanaşı, keçmiş MDB-də ilk olaraq Azərbaycanda istintaq təcridxanaları nazirliyin tərkibinə verilmişdir. Ədalət mühakiməsi əleyhinə olan və bəzi digər cinayətlərin ibtidai istintaqının aparılması, bütün qeyri-tibbi məhkəmə ekspertizalarının həyata keçirilməsi nazirliyə həvalə edilmişdir. Azərbaycan Respublikası adından xarici dövlətlər və beynəlxalq təşkilatlarla hüquqi sahədə əməkdaşlıq üzrə müqavilələrin bağlanması, onların icrasının təmin edilməsi, cinayət işləri üzrə hüquqi yardım göstərilməsi, o cümlədən ekstradisiya və digər məsələlərin həlli Ədliyyə Nazirliyinə tapşırılmışdır.

2000-ci ildə iqtisadi və hüquqi proseslərin tənzimlənməsində mühüm əhəmiyyəti nəzərə alınaraq, notariat və vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı — notariat və vətəndaş vəziyyəti aktlarının dövlət qeydiyyatı orqanlarında köklü dəyişikliklər həyata keçirilmiş, yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə metodoloji yardımın göstərilməsi Ədliyyə Nazirliyinin funksiyalarına aid edilmişdir.

Azərbaycanı daha da inkişaf etdirərək bugünkü qüdrətli bir dövlət səviyyəsinə nail olmuş Azərbaycan Prezidenti cənab İlham Əliyev hüquqi dövlət quruculuğu prosesində müstəsna xidmətləri olan Ədliyyə Nazirliyinin fəaliyyət dairəsinin, statusunun, cəmiyyətdəki rolunun və mövqeyinin əhəmiyyətli dərəcədə yüksəlməsini praktik addımları ilə təmin etmişdir. Bu baxımdan, Azərbaycan Respublikası Prezidentinin "Ədliyyə orqanlarının inkişafı haqqında" 17 avqust 2006-cı il tarixli Fərmanının əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Fərmanla Nazirliyin strukturunda ciddi dəyişikliklər edilmiş, bir sıra qurumların funksiyaları dəqiqləşdirilmiş, digərlərinin statusu genişləndirilmişdir. Fərman əsasında bölgələrdə regional ədliyyə şöbələrinin və rayon (şəhər) qeydiyyat şöbələrinin yaradılması yerli əhalinin bu orqanlara müraciət imkanlarını asanlaşdırmış, habelə regionların sosial-iqtisadi inkişafına, xüsusilə yerli hüquqşünasların işlə təminatına xidmət etmişdir. Ali hüquq təhsilli şəxslərin ixtisasları üzrə peşə səviyyəsinin yüksəldilməsi, habelə ədliyyə orqanları işçilərinin, hakimlərin və digər hüquqşünasların peşə hazırlığının artırılması məqsədilə Ədliyyə Nazirliyi yanında Hüquq-Tədris Mərkəzinin əsasında Ədliyyə Akademiyasının yaradılması da Azərbaycan ədliyyəsinin son illər ərzində əldə etdiyi mühüm uğurlardandır. Belə bir təhsil ocağının yaradılması ilə ölkədə ilk dəfə olaraq peşə fəaliyyətinə buraxılış institutu tətbiq olunmuş, ədliyyə işçilərinin, prokurorların, vəkillərin və digər hüquqşünasların ixtisasının artırılması yeni yaradılmış Ədliyyə Akademiyasına həvalə edilmişdir.

Bundan əlavə, 18 aprel 2006-cı il tarixli "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə", 26 may 2006-cı il tarixli "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanunu, 2009-cu il 6 fevral tarixdə təsdiqlənmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı" və digər sənədlər Azərbaycan ədliyyə sisteminin müasirləşdirilməsini, onun cəmiyyət həyatında mühüm dövlət təsisatına çevrilməsini təmin etmişdir.

"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"yə uyğun olaraq nazirliyə ədliyyə sahəsində vahid dövlət siyasətini və tənzimlənməsini həyata keçirən hüquq-mühafizə orqanı statusu verilmiş, onun fəaliyyət istiqamətləri genişlənmiş, konkret hüquq və vəzifələri müəyyən edilmişdir. Əsasnaməyə görə, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi qanunvericilik aktlarının layihələrini hazırlayır, layihələr üzrə rəy verir, normativ-hüquqi aktların və normativ xarakterli aktların hüquqi ekspertizasını, dövlət uçotunu və dövlət qeydiyyatını aparır. Həmçinin, notariat orqanlarının fəaliyyətini, vətəndaşlıq vəziyyəti aktlarının və hüquqi şəxslərin dövlət qeydiyyatının aparılmasını təmin edir, hüquqi şəxslərin dövlət reyestrini, həmçinin Azərbaycan Respublikası əhalisinin dövlət reyestrini aparır.

Son illər Ədliyyə Nazirliyi tərəfindən informasiya-kommunikasiya texnologiyalarının tətbiqi daim diqqətdə saxlanılaraq bu sahədə xeyli işlər görülmüşdür. O cümlədən, vətəndaşlara keyfiyyətli və rahat xidmət göstərilməsi, inzibati işçilərlə təmasın minimuma endirilməsi məqsədilə elektron köşklər, habelə nəzarətin gücləndirilməsi üçün veb-kameralar quraşdırılmışdır. Nazirliyin saytında xüsusi "e-xidmətlər" bölməsi, habelə məhkəmə sisteminin vahid elektron portalı yaradılmışdır.

Ədliyyə sistemində islahatların mühüm istiqamətlərindən biri kimi məhkəmə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi və təkmilləşdirilməsi tədbirləri də xüsusi qeyd olunmalıdır. Prezident kimi fəaliyyətə başlamasının ilk günlərindən ədalət mühakiməsinin səmərəsinin və məhkəmə hakimiyyətinin müstəqilliyinin artırılmasına xüsusi diqqət yetirən dövlətimizin başçısı cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq ölkədə məhkəmə sisteminin müasirləşdirilməsi, mövcud nöqsanların aradan qaldırılması üzrə ardıcıl tədbirlər görülmüşdür. Məhkəmə fəaliyyətini tənzimləyən qanunvericilik bazası Avropa Şurası ekspertləri ilə birgə ətraflı tədqiq edilmiş və onun daha da təkmilləşdirilərək beynəlxalq standartlara tam uyğunlaşdırılması işinə başlanılmışdır.

Ədliyyə sistemi ilə yanaşı, insan hüquq və azadlıqlarının təmini baxımından ötən müddətdə məhkəmə sistemində yeni dövrün tələblərinə cavab verən islahatların aparılması da Prezident İlham Əliyevin xüsusi diqqət mərkəzində olmuşdur. "Məhkəmə-Hüquq Şurası haqqında", "Məhkəmələr və hakimlər haqqında" qanunlara bir sıra mütərəqqi əlavə və dəyişikliklər edilmiş, yeni dövrün reallıqları ilə şərtlənən bir sıra qanunvericilik aktları qəbul olunmuşdur.

Prezident İlham Əliyev bölgələrin inkişafı tədbirlərinin davamı kimi 19 yanvar 2006-cı il tarixdə Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Qanunun tətbiq edilməsi barədə fərman imzalamışdır. Regionların sosial-iqtisadi inkişafının yeni keyfiyyət mərhələsi ilə şərtlənən bu fərman dövlət başçısının məhkəmə hakimiyyətinin cəmiyyətdə nüfuzlu təsisat kimi təşəkkül tapmasında maraqlı olduğunu bir daha nümayiş etdirmişdir.

Dövlət başçısının 17 avqust 2006-cı il tarixli digər fərmanı ilə məhkəmələrdə hakimlərin sayı 153 ştat vahidi artırılmış, bu da cinayət işlərinə baxılmasında səmərəliliyi və keyfiyyəti əhəmiyyətli dərəcədə təmin etmişdir. Məhkəmələrdə hakimlərin sayının artırılması istiqamətində atılan addımlar da mütərəqqi məhkəmə-hüquq islahatlarının məntiqi davamı kimi dəyərləndirilə bilər. Məhkəmə-Hüquq Şurası tərəfindən həyata keçirilən tədbirlər hakim vəzifəsinə seçkilərin şəffaf və ədalətli keçirilməsinə, bu məsul vəzifəyə ən layiqli insanların seçilməsinə xidmət etmişdir. Seçim prosedurları zamanı hakim vəzifəsini tutacaq şəxsin qanunları mükəmməl bilməsinə, geniş dünyagörüşünə, yüksək insani keyfiyyətlərə malik olmasına, cəmiyyətdə müsbət reputasiya ilə tanınmasına xüsusi diqqət yetirilmişdir.

2010-cu ildə regionlarda və paytaxtda yeni məhkəmələrin yaradılması, həmçinin məhkəmələrdə hakimlərin sayının artırılması istiqamətində mühüm addımlar atılmışdır. Məhkəmələrdə iş yükünün çoxluğu nəzərə alınaraq Məhkəmə-Hüquq Şurasının təklifi ilə bu il hakimlərin sayı 25 faiz, məhkəmə aparatı işçilərinin sayı isə 60 faizədək artırılmış, hər bir hakim üçün əlavə köməkçi ştatı təsis olunmuşdur. Hakimlərin Seçilməsi Qaydalarına müvafiq olaraq şəffaflığın və obyektivliyin təmin olunması məqsədilə test üsulu ilə və yazılı imtahanlar sayı hətta min nəfəri ötən namizədlər üçün vahid zalda təşkil edilir. İmtahan prosesinin bütün mərhələləri, o cümlədən sualların seçilməsi, çoxaldılaraq paylanması namizədlərin, çoxsaylı beynəlxalq və yerli müşahidəçilərin və KİV nümayəndələrinin qarşısında keçirilir, nəticələr onların iştirakı ilə, imtahan keçirilən auditoriyada yoxlanaraq dərhal elan olunur.

Məhkəmə fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması baxımından mühüm vəzifələrdən biri də məhz bu sahədə innovativ xidmətlərin və texnoloji yeniliklərin tətbiqidir. Dövlət başçısının "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" 13 fevral 2014-cü il tarixli Sərəncamı strateji məqsədləri müəyyən edərək məhkəmə fəaliyyətində inqilabi təkamülün əsasını qoymuş, müasir İKT-lərin tətbiqini sürətləndirmişdir. Artıq istifadəsinə başlanılmış bu sistemin tətbiqi nəticəsində insanlar məhkəməyə gəlmədən elektron formada müraciət edəcək, məhkəmə prosesləri, qərarlar, onların icra vəziyyəti və sair məlumatları əks etdirən elektron "şəxsi kabinetə" malik olacaqlar. Nəticə etibarilə məhkəmələrə müraciət imkanları daha da genişlənəcək, süründürməçilik və sui-istifadə hallarının qarşısı alınacaq, şəffaflıq və operativlik təmin ediləcəkdir. Həmçinin, sistem vasitəsilə hakimin işinin effektivliyi yoxlanılacaq, icra mexanizminə nəzarət gücləndiriləcəkdir.

Yeni istifadəyə verilmiş məhkəmə binalarında "Elektron məhkəmə" informasiya sisteminin komponentlərinin tətbiqi, o cümlədən məhkəmə zallarında proseslərin dəqiq və sürətlə protokollaşdırılması və audio-video yazılışların aparılması, elektron sənəd dövriyyəsi və s. ilə bağlı bütün zəruri infrastruktur yaradılmışdır.

Aparılmış islahatlar nəticəsində yeni təsisat - məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan və əsasən hakimlərdən ibarət formalaşdırılmış Məhkəmə-Hüquq Şurası yaradılmışdır. Demokratik cəmiyyətlərdə mühüm yer tutan bu təsisatın yaradılmasında əsas məqsəd məhkəmələr və hökumət arasında yeni qurum yaratmaqla məhkəmə sisteminin müstəqilliyini gücləndirmək, məhkəmələrin özünüidarə funksiyalarını gücləndirmək olmuşdur. Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, iş yerinin dəyişdirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb edilməsi və onların fəaliyyəti ilə bağlı digər məsələlər bu orqanın səlahiyyətinə aid edilmişdir.

Əhalinin məhkəmələrə müraciət imkanlarının yaxşılaşdırılması, bölgələrdə hüquq institutlarının inkişafı məqsədilə yeni məhkəmələr, o cümlədən regional apelyasiya məhkəmələri təsis edilmişdir. Dövlət başçısının 2010-cu il 15 iyul və 9 avqust tarixli fərmanları bu istiqamətdə yeni mühüm mərhələ olmuşdur. Bu fərmanların icrası ilə bağlı ölkədə 4 yerli ağır cinayətlər məhkəmələri, habelə dövlət orqanları tərəfindən vətəndaşların pozulmuş hüquqlarının bərpası məqsədilə 7 inzibati-iqtisadi məhkəmə fəaliyyətə başlamışdır.

Qeyd etmək yerinə düşər ki, son illər Azərbaycandakı sürətli iqtisadi inkişaf, məhkəmə müdafiəsi mexanizmlərinin genişləndirilməsi nəticəsində məhkəmələrə müraciətlərin sayı dəfələrlə çoxalmış, bu da hakimlərin iş yükünün xeyli artmasına gətirib çıxarmışdı. İş yükünün çoxluğu işlərə keyfiyyətlə və vaxtında baxılmasında ciddi çətinliklər yaradırdı. Bununla əlaqədar ölkə Prezidentinin müvafiq fərmanları ilə son illər hakim ştatlarının sayı artırılmışdır. Hakimlərin obyektiv və qərəzsiz olmasının, işlərə daha keyfiyyətlə baxılmasının ən mühüm amillərdən biri də onların seçimi prosesinin şəffaflığı və obyektivliyidir. Azərbaycanda bu məqsədlə ən mütərəqqi qaydalar tətbiq edilir.

Azərbaycan Avropa Şurasına üzv qəbul edilərkən üzərinə götürdüyü öhdəliklər sırasında hakimlərin müstəqilliyinin artırılması məqsədi ilə onların təyinat müddəti və seçim proseduru məsələlərinin nəzərdən keçirilməsi də var idi. Əvvəllər hakimlər birinci instansiya məhkəmələrinə 5 il, yuxarı instansiya məhkəmələrinə 10 il müddətinə təyin edilirdilər. Aparılan məhkəmə islahatları nəticəsində isə hakimlərin ən yüksək həddədək - müddətsiz təyinatı müəyyən olunmuş, habelə seçim prosedurları təkmilləşdirilmişdir. Yeni məhkəmə binalarının inşası, habelə həmin binalarda müasir texnologiyaların tətbiqi də diqqət mərkəzindədir. Dünya Bankı ilə birgə keçirilən layihəyə uyğun olaraq vətəndaşların məhkəmələrə müraciət imkanlarının daha da asanlaşdırılması və hüquqi xidmətin yaxşılaşdırılması məqsədilə məhkəmə sisteminin vahid internet portalı yaradılmışdır. Bu portal ali, apelyasiya və birinci instansiya məhkəmələri, onların yurisdiksiyası, baxılan işlər və çıxarılan qərarlar, müraciətə əlavə edilməsi zəruri olan sənədlər, qəbul günləri və s. barədə ətraflı məlumat almaq, iddia ərizələri və digər məhkəmə sənədlərinin nümunələrini əldə etmək, həmçinin onlayn rejimində müraciət etmək və cavab almaq imkanı yaradır. Portalda bütün hakimlər barədə məlumatlar da əksini tapmışdır.

Ölkə başçısının 2014-cü il 13 fevral tarixli "Elektron məhkəmə informasiya sisteminin yaradılması haqqında" sərəncamı isə bu sahədə ötən illərdən başlanmış işlərin keyfiyyətcə yeni mərhələdə daha da genişlənməsinə, məhkəmələrdə İKT-nin ən son nailiyyətlərinin tətbiqinə imkan verən əlahiddə əhəmiyyətli sənəddir. Bunda məqsəd ədalət mühakiməsinin həyata keçirilməsi zamanı şəffaflığın, insan və vətəndaşların hüquq və azadlıqlarının səmərəli müdafiəsinin təmini, müasir informasiya texnologiyalarının tətbiqi prosesinin sürətləndirilməsidir.

Aparılan islahatlar deməyə əsas verir ki, Azərbaycanda qanunun aliliyinin təminatı, ədliyyə orqanlarının dövlət idarəçilik mexanizmində nüfuzlu təsisat kimi təşəkkül tapması, o cümlədən ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkili, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi və digər konseptual məsələlərin həlli dövlət başçısının xüsusi diqqət mərkəzindədir.

Aparılan hüquqi islahatlar içərisində dövlət başçısının cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli sərəncamı bu xəttin yeni mərhələdə davamı kimi müstəsna əhəmiyyəti vardır.

İnsana xas ən ali duyğulardan olan humanizm hissinin cəza siyasətində öz əksini tapması vacib məsələlərdəndir. Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamı bu baxımdan böyük tarixi-mənəvi dəyəri olan bir sənəddir. Bu sahədə fəaliyyət göstərən dövlət orqanları üçün bir növ "strateji yol xəritəsi" rolunu oynayan sərəncam penitensiar sahənin inkişafı və cəza siyasətinin humanistləşdirilməsi baxımından bir sıra vəzifələri önə çəkir.

Dövlət başçısı tərəfindən insan və vətəndaşların hüquqlarının müdafiəsi üzrə mütəmadi olaraq görülmüş tədbirlərin davamı kimi bu proqram xarakterli sərəncamın icrası ilə bağlı Azərbaycan Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilən kompleks tədbirlər nəticəsində cəzanın humanistləşdirilməsi ilə bağlı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə mühüm dəyişikliklər edilmişdir. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya Xidməti yaradılmışdır ki, bu yeni xidmətin yaradılmasında məqsəd cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına səmərəli nəzarətin təşkili və bu sahədə idarəetmənin təkmilləşdirilməsidir.

Böyük fəxarət hissi ilə deyə bilərik ki, ulu öndər Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısı Azərbaycan dövlətinin Prezidenti İlham Əliyevin uğurlu siyasəti nəticəsində dövlətin Əsas Qanunu olan Konstitusiyada təsbit olunmuş hüquqi, dünyəvi, demokratik dövlət bərqərar olmuşdur. Bu gün Azərbaycan hüquqi dövlət olaraq hər bir insanın hüquqlarının müdafiəsi üçün tam təminat verir. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə hüquqi islahatların gündən-günə yeni qanunlarla tənzimlənməsi qanunçuluğun və hüquq qaydalarının daha da möhkəmlənməsinə nail olunmuşdur.

Ədliyyə sisteminin müasirləşdirilməsi istiqamətində qazanılan bütün nailiyyətlər möhtərəm Prezidentimiz İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatların real təzahürüdür. Bütün bunlar həm də respublikamızda hərtərəfli tərəqqinin və yüksəlişin məntiqi nəticəsi olmaqla xalqımızda iftixar hissi doğurur.

Bəli, biz Azərbaycan Ədliyyəsinin demokratik dövlət quruculuğunda müstəsna rolu barədə bu gün qürur hissi ilə danışırıq. Ədliyyəmizin 100 illiyi məhz bu səbəblərdən haqlı olaraq əsl ümumxalq bayramına çevrilmişdir.

**Ələsgər NOVRUZOV,**
**Şirvan Apelyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədr əvəzi.**

# "Ölkəmizi tanıyaq" tur-aksiya çərçivəsində təntənəli yolasalma mərasimi

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən ölkəmizin tarixinin, mədəniyyətinin, adət-ənənələrinin, müstəqillik illərində əldə edilmiş nailiyyətlərin dərindən öyrənilməsi məqsədi ilə respublikamızın müxtəlif şəhər və rayonlarında yaşayan gənclərin digər bölgələrə "Ölkəmizi tanıyaq" tur-aksiyaları təşkil olunur.**



"Ölkəmizi tanıyaq" tur-aksiyaların növbəti mərhələsində Suraxanı məktəbliləri Lənkəran-Masallı-Lerik rayonlarına yola salındı. "Ölkəmizi tanıyaq" layihəsində fəal iştirak edən Suraxanı rayon məktəbliləri əvvəlcə ümummilli liderin Heydər Əliyev parkında ucalan abidəsini ziyarət etdilər və önünə gül dəstələri düzdülər. Layihə iştirakçıları ilə keçirilən görüşdə Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov bildirdi ki, bu layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır. "Ölkəmizi tanıyaq" tur-aksiyalarında bu günə qədər 353 Suraxanı məktəblisi iştirak etmişdir. Daha 40 məktəbli 10-cu tur-aksiyada iştirak edəcək. Beləliklə, Suraxanı rayonu üzrə 393 məktəbli "Ölkəmizi tanıyaq" tur-aksiyasının iştirakçısı olacaq.

Rayon rəhbəri onu da qeyd etdi ki, bu il oktyabrın 15-də möhtərəm Prezidentimiz cənab İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin 15 ili tamam oldu. Bu illər ərzində daxili ictimai-siyasi sabitlik daha da möhkəmlənmiş, əhalinin təhlükəsizliyi, ölkənin əmin-amanlığı təmin edilmiş, vətəndaşların rifah halının yüksəlməsinə nail olunmuşdur. Azərbaycanın regional və beynəlxalq nüfuzu artmış, müasir texnologiyalara əsaslanan minlərlə yeni müəssisə fəaliyyətə başlamış, 1,9 milyon yeni iş yeri açılmışdır.

İlqar Abbasov onu da qeyd etdi ki, dövlət səviyyəsində həyata keçirilən işlərə Heydər Əliyev Fondu böyük dəstək verir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun həyata keçirtdiyi "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı və digər irimiqyaslı layihələr təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmlənməsinə, təhsilin inkişafına və keyfiyyətinin artırılmasına öz töhfəsini verir.

Yolasalma mərasimində Yeni Azərbaycan Partiyası Suraxanı Rayon Təşkilatının sədri Vüqar Seyidov, 65 nömrəli tam orta məktəbin direktoru Arzu Miriyev, Gəncə-Şəmkir-Göygöl istiqamətində tur-aksiyanın iştirakçısı Zeynəb Vəliyeva, Naxçıvan Muxtar Respublikası istiqamətində tur-aksiyanın iştirakçısı Dünya Ramazanovanın valideyni Leyla Ramazanova çıxış edərək şagirdlər üçün yaradılan bu şəraitə görə dövlət başçısına minnətdarlıqlarını bildirdilər. Tədbir rayonun mədəniyyət kollektivlərinin hazırladıqları konsert proqramı ilə davam etdi.

Tur-aksiyanın iştirakçıları Suraxanı Rayonunun Heydər Əliyev Mərkəzi ilə tanış olduqdan sonra "Ölkəmizi tanıyaq" tur-aksiyaları haqqında filmi izlədilər.

Sonra şagirdlər onlar üçün ayrılan avtobusla Lənkəran-Masallı-Lerik istiqamətində yola düşdülər.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**


**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Mingəçevir Tibb Kolleci 2018-ci il üçün**

**KOTİROVKA SORĞUSU ELAN EDİR**

Dəftərxana və təsərrüfat xərcləri
Mətbəə xərcləri
İdarənin digər xərcləri
İnventarların alınması
Digər alışlar və xidmətlər
Sosial mədəni məişət təyinatlı obyektlərin əsaslı təmiri
Digər maşın və avadanlıqlar

Kotirovkada iştirak etmək üçün sənədlər 26 noyabr 2018-ci il tarixdən qəbul olunur.

**Əlaqə telefonu:** *(024) 276-14-48.*

**Ünvan:** *Mingəçevir şəhəri, Naxçıvan küçəsi 25.*

**Tender Komissiyası.**

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti

LOT 1 - Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin tələbatına uyğun dəftərxana, təsərrüfat ləvazimatlarının;

LOT 2 - Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin tələbatına uyğun təsərrüfat mallarının;

LOT 3 - Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinə mətbəə mallarının;

LOT 4 - Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti əməkdaşları üçün xüsusi geyim dəstlərinin;

LOT 5 - Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinə məxsus olan nəqliyyat vasitələrinin ehtiyat hissələrinin satın alınması üzrə

AÇIQ TENDERƏ DƏVƏT EDİR

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat zərfdə, yazılı surətdə təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, iddiaçının maliyyə və texniki imkanları, istehsalçı və ya onun rəsmi distribyuterinin olması, analoji müqavilələrin icrasına dair təcrübəsi, təklifin texniki tələblərə uyğunluğu, texniki xidmətlərin göstərilməsi, istismara verilən zəmanət müddəti.

Tender predmeti haqqında ətraflı məlumat tenderin əsas şərtlər toplusunda verilir. Maraqlananlar tenderin əsas şərtlər toplusunu (Azərbaycan dilində hazırlanmış) tenderdə iştirak etmək üçün yazılı müraciət etdikdən sonra aşağıda qeyd olunan hesaba Lot 1 üzrə 200 (iki yüz) manat, Lot 2 üzrə 150 (bir yüz əlli) manat, Lot 3 üzrə 250 (iki yüz əlli) manat, Lot 4 üzrə 300 (üç yüz) manat, Lot 5 üzrə 150 (bir yüz əlli) manat məbləğində iştirak haqqı ödəməklə Bakı şəhəri, Binəqədi rayonu 3123-cü məhəllə, Binəqədi şosesi 202 (əlaqələndirici şəxs: Gülsüm İsmayılova, telefon: (+99412) 5656118, daxili 255) ünvanından ala bilərlər.

Hesab:
AZ38CTRE00000000000004518570
VÖEN: 1700760271
Bank: DXA
Filialın kodu: 210005
VÖEN: 1401555071
SWİFT: CTREAZ22
M/h: AZ41NABZ01360100000000003944
Büdcə səviyyə kodu: 7
Büdcə təsnifat kodu: 142340.

Malgödərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blankda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı ərizə;
2. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
3. Tender təklifi (tender təklifləri zərflərinin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);
4. Tender təklifinin birinci əlavəsi kimi tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 60 (altmış) bank günü çox olmalıdır);
5. Malgöndərən (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

- Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;
- Malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti haqqında bank arayışı;
- Malgöndərənin (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır).
- Malgöndərənlər (podratçılar) 1, 2 və 5-ci bəndlərdə qeyd olunan sənədləri 24 dekabr 2018-ci il saat 10.00-a, 3 və 4-cü bəndlərdə göstərilən sənədləri 04 yanvar 2019-cu il, saat 10.00-a qədər yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi zərfləri 07 yanvar 2019-cu il tarixində saat 15.00-da Bakı şəhəri, Binəqədi şosesi 202, Dövlət Miqrasiya Xidmətinin inzibati binası ünvanında açılacaqdır.

Tender Komissiyası.

"Bakı Metropoliteni" QSC Blok Post ve Bakmil stansiyası üçün nəzərdə tutulan mebel avadanlıqlarının satınalınması üzrə

AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 16-dan (Əlaqələndirici şəxs: İlqar Qasımov, telefon: 490-00-91) ala bilərlər.

LOT-1. Blok Post ve Bakmil stansiyasi üçün nəzərdə tutulan mebel avadanlıqlarının satınalınması

İştirak haqqı - 300 manat
Hesabın adı: BAKI METROPOLİTENİ QSC
Hesab nömrəsi (İBAN):
AZ98AZRT38050019440010268002 AZN
VÖEN: 1402871431
Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)
Kod: 501361
VÖEN: 9900006111
Müxbir hesabı:
AZ02NABZ01350100000000022944
SWİFT BİK: AZRTAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün yazılı müraciət;
-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);
-tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır).
-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 25 dekabr 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 07 yanvar 2019-cu il saat 17:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 16, ünvanına "İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 08 yanvar 2019-cu il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

"BAKI METROPOLİTENİ" QSC
TENDER KOMİSSİYASI.

**BİLDİRİŞ**

**KOTİROVKA SORĞUSU**

"Azərbaycan Sənaye Korporasiyası" ASC avadanlığın auditində şəffaflığın, obyektivliyin təmin edilməsi məqsədi ilə ekspert xidmətlərinin göstərilməsi üzrə kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar +994 77 2771106 telefon nömrəsi ilə və ya email fakhri.mammadov@ask.gov.az əlaqə saxlaya bilərlər.

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 26 noyabr 2018-ci il saat 13:00 tarixinədək qəbul olunur.

Ünvan: AZ1065 Bakı şəhəri, Yasamal r-nu, Cəfər Cabbarlı küçəsi, 40C

**"ASK" ASC Tender Komissiyası.**

## Azərbaycan Respublikası Təhsil Nazirliyi
## Azərbaycan Dövlət Neft Akademiyası
## aşağıdakı vakant vəzifələri tutmaq üçün

# MÜSABİQƏ ELAN EDİR

• "Neft-qaz geologiyası" kafedrası - kafedra müdiri, dosent - 4, assistent - 1;
• "Geofizika" kafedrası - dosent - 1;
• "Faydalı qazıntı yataqlarının geologiyası və işlənməsi" kafedrası - dosent - 2, assistent - 1;
• "Xarici dillər - 2" kafedrası - dosent - 2, baş müəllim - 6, müəllim - 7;
• "Neftin qazın nəqli və saxlanması" kafedrası - kafedra müdiri, assistent - 1;
• "Neft-qaz mühəndisliyi" kafedrası - dosent - 9, 0,75 ştat dosent - 1, assistent - 4;
• "Sənaye təhlükəsizliyi və əmək mühafizəsi" kafedrası - kafedra müdiri, dosent - 2;
• "Azərbaycan dili" kafedrası - kafedra müdiri, baş müəllim - 1, müəllim - 1;
• "Kimya-texnologiya fakültəsi - dekan;
• "Kimya və qeyri-üzvi maddələrin texnologiyası " kafedrası - dosent - 12, 0,75 ştat dosent - 1;
• "Üzvi maddələr və yüksək molekullu birləşmələrin texnologiyası" kafedrası - professor - 1, dosent - 4;
• "Neft-kimya texnologiyası və sənaye ekologiyası" kafedrası - professor - 3, dosent - 4, assistent - 1;
• "İctimai fənlər" kafedrası - professor - 1, dosent - 2;
• "Neft-qaz avadanlığı" kafedrası - kafedra müdiri, dosent - 2, 0,5 ştat dosent - 1; assistent - 1;
• "Maşınqayırma və materialşünaslıq" kafedrası - dosent - 3;
• "Mexanika" kafedrası - dosent - 8;
• "Mühəndis və kompüter qrafikası" kafedrası - dosent - 1, assistent - 1;
• "Elektroenergetika" kafedrası - dosent - 1;
• "Elektromexanika" kafedrası - dosent - 2, 0,5 ştat dosent - 1;
• "İstilik energetikası" kafedrası - kafedra müdiri, dosent - 2;
• "Fizika" kafedrası - dosent - 4;
• "İdarəetmə və sistemlər mühəndisliyi" kafedrası - professor - 1, dosent - 5, 0,5 ştat dosent - 2, assistent - 1;
• "Kompüter mühəndisliyi" kafedrası - kafedra müdiri, professor - 1, dosent - 7, assistent - 2;
• "Cihazqayırma mühəndisliyi" kafedrası - kafedra müdiri, dosent - 4, baş müəllim - 1, assistent - 2;
• "Ümumi və tətbiqi riyaziyyat" kafedrası - dosent - 6, 0,75 ştat dosent - 1, 0,5 ştat dosent - 1;
• "Sənaye iqtisadiyyatı və menecment" kafedrası - dosent - 1;
• "Enerji və neft-kimya sahələrinin iqtisadiyyatı və menecment" kafedrası - dosent - 1;
• "Xarici dillər-1 " kafedrası - dosent - 1, baş müəllim - 6, müəllim - 5, 0,5 ştat müəllim - 1.

**Sənədləri təlimata uyğun olaraq, müsabiqə elanı qəzetdə dərc edildiyi gündən bir ay keçənədək rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana göndərmək lazımdır:**

**AZ 1010, Bakı şəhəri, Azadlıq prospekti - 20, otaq - 223, telefon: 598-41-57.**

**REKTORLUQ.**

## BİLDİRİŞ

**Bakı Dövlət Universiteti "Yüksək Texnologiyalar Mərkəzi"nin inşasının başa çatdırılması işlərinin satın alınması üçün təkliflər sorğusu keçirir.**

Təkliflər sorğusu iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində və müqayisəsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: texniki şərtlərin yerinə yetirilməsi, aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün Təkliflər sorğusu iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Maraqlanan təşkilatlar 012 510 08 23 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

İddiaçılar təkliflər sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- Təkliflər sorğusunda iştirak etmək üçün yazılı müraciət;
- Qiymət təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
- Qiymət təklifi dəyərinin 1%-i həcmində bank təminatı (qiymət təklifinin qüvvədə olma müddəti bitdikdən sonra 30 bank günü);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanlarından arayış;
- İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- Rəhbər şəxsin (imza sahibinin) tutduğu vəzifəni təsdiq edən sənədin surəti.
- Tələb olunan digər zəruri sənədlər.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan təkliflər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar prosedurda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 26 noyabr 2018-ci il saat 15:00-dək Yasamal rayonu, Zahid Xəlilov 23 ünvanda yerləşən Bakı Dövlət Universitetinə yazılı formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 27 noyabr 2018-ci il, saat 11:00-da Yasamal rayonu, Zahid Xəlilov 23 ünvanda yerləşən Bakı Dövlət Universitetinə Kiçik Akt zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

## "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti

# AÇIQ TENDER ELAN EDİR

Tikinti mal-materialları, elektrik malları və tikintidə istifadə olunan alət və avadanlıqların təmiri üçün ehtiyat hissələrinin satın alınması ilə əlaqədar tenderdə iştirak etmək üçün müraciət (imzalanmış və möhürlənmiş) və 200 (iki yüz) manat (ƏDV daxil) məbləğində iştirak haqqını "Azərbaycan Dəmir Yolları" QSC-nin bank hesabına ödədikdən sonra satınalma predmeti üzrə əsas şərtlər toplusunu əlaqələndirici şəxsdən iş vaxtı saat 09:00-dan 18:00-a kimi ala bilərlər.

*Hesab nömrələri:*
*AZ57İBAZ38050019449345061205 (AZN);*
*AZ47İBAZ38150018409345061205 (USD);*
*AZ27İBAZ38150019789345061205 (EUR)*
*AZ64İBAZ38150018109345061205 (RUR).*
*VÖEN: 9900007721*
*Bank: Azərbaycan Beynəlxalq Bankı ASC "Nəqliyyat" filialı*
*Kodu: 805711*
*VÖEN: 9900001881*
*Müxbir hesab:*
*AZ03NABZ01350100000000002944*
*S.W.İ.F.T. Code: İBAZAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əsas şərtlər toplusunu aldıqdan sonra aşağıda qeyd olunan ilkin sənədlər 14 dekabr 2018-ci il saat 18:00-dək elanda göstərilmiş ünvana təqdim edilməlidir:

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair ödəniş vaxtı keçmiş öhdəliklərinin olmaması haqqında arayış;*
*-son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-mənşə və uyğunluq sertifikatları;*
*-və tələb olunacaq digər sənədlər.*

*Tender təklifi və təklifin təminatının təqdim olunmasına dair tələblər:*
*-tender təklifi (zərflərin açıldığı gündən sonra azı 30 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifinin məbləğinin 1 %-i həcmində bank təminatı (bank təminatı təklifin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır).*

Təklif və təklifin təminatı möhürlənmiş, ikiqat zərfdə, 2 (iki) nüsxədə (əsli və surəti) 20 dekabr 2018-ci il saat 18:00-a kimi elanda göstərilmiş ünvana təqdim edilməlidir.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

**Satınalan təşkilatın ünvanı: AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Dilarə Əliyeva, 230**

**Əlaqələndirici şəxs: Nilufər İsmayılova, Satınalma şöbəsi mütəxəssisi**

**Telefon nömrəsi: +994 12 499-66-17; e-mail: nil.ismayilova@ady.az**

Tender təklifləri 21 dekabr 2018-ci il tarixdə, saat 11:00-da elanda göstərilmiş ünvanda açılacaqdır.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, müvafiq təcrübə, maliyyə vəziyyəti və s.

Mallar 90 (doxsan) gün müddətində göndərilməlidir.

Tender "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti üzrə satınalmaların təşkili və idarə olunması Qaydaları"na uyğun keçirilir.

Təkliflərin açılışında iştirakçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Satınalma Komissiyası.**

## BİLDİRİŞ

Bakı Nəqliyyat Agentliyi tərəfindən "Bakı şəhəri, Suraxanı rayonu, Zığ şosesi 95 ünvanında yerləşən 300 ədəd avtobus üçün nəzərdə tutulan avtobus parkının layihə-smeta sənədləri"nin hazırlanması üzrə iş və xidmətlərin satın alınması üçün təkliflər sorğusu üsulu ilə satın alınmasını həyat keçirir. Maraqlanan təşkilatlar 404-41-20 (daxili 2183, Xuraman Eyvazova) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

İddiaçılar təkliflər sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-Təkliflər sorğusunda iştirak etmək üçün yazılı müraciət;*
*-Qiymət təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*-Qiymət təklifi dəyərinin 1%-i həcmində bank təminatı (qiymət təklifinin qüvvədə olma müddəti bitdikdən sonra 30 bank günü);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi, vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanlarından arayış;*
*-İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-Rəhbər şəxsin (imza sahibinin) tutduğu vəzifəni təsdiq edən sənədin surəti.*
*-Tələb olunan digər zəruri sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan təkliflər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar prosedurda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 27 noyabr 2018-ci il saat 18:00-dək Bakı şəhəri, Ziya Bünyadov 111 ünvanında yerləşən inzibati binasına yazılı formada təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 28 noyabr 2018-ci il, saat 16:00-da Bakı şəhəri, Ziya Bünyadov 111 ünvanında yerləşən inzibati binasında açılacaqdır. Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

## BİLDİRİŞ

# KOTİROVKA SORĞUSU

"Azərbaycan Sənaye Korporasiyası" ASC Desktop - Lenovo V520S i3-7100/4GB/DDR4/HDD 500GB/DVD/KB+M (7 ədəd) və Monitor - Lenovo Think Vision E2054 (7 ədəd) kompüterlərin kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar +994 77 2771106 telefon nömrəsi ilə və ya email fakhri.mammadov@ask.gov.az əlaqə saxlaya bilərlər.

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 26 noyabr 2018-ci il saat 12:00 tarixinədək qəbul olunur.

**Ünvan:** *AZ1065 Bakı şəhəri, Yasamal r-nu, Cəfər Cabbarlı küçəsi, 40C*

## BİLDİRİŞ

### Hündürlüyü 32 metr olan elektrik dirəklər üzərində Led projektorlarının alınması və quraşdırılması xidmətlərinin satın alınması ilə əlaqədar

"BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyəti hündürlüyü 32 metr olan elektrik dirəklər üzərində Led projektorlarının alınması və quraşdırılması xidmətlərinin satınalınması məqsədi ilə 24 oktyabr 2018-ci il tarixində "Respublika" qəzetində və www.tender.gov.az saytında Lot-1 "BakuBus" MMC-nin Bakı şəhəri, Suraxanı rayonu, Zığ qəsəbəsi, Zığ-Hövsan yolu 1-ci km 1 ünvanında və Nərimanov rayonu, 2037-ci məhəllə, 9-cu Köndələn küçəsi, 106 H ünvanında yerləşən 1 və 2 saylı Deposunun ərazisində istismarda olan 7 ədəd hündürlüyü 32 metr olan elektrik dirəklərində led projektorların alınması və quraşdırılması xidmətlərinin satın alınması ilə bağlı açıq tenderin keçirilməsi üçün verdiyi elan üzrə heç bir təşkilat tərəfindən müraciət daxil olmadığını nəzərə alaraq iddiaçıların tenderdə iştirak etmək üçün elanda qeyd olunan sənədləri tarixini (tender təklifi və bank təminatı istisna olmaqla), tender təklifi və bank təminatınının təqdim olunma tarixlərini, həmçinin təkliflərin açılma tarixini aşağıdakı tarixlərədək uzadır:

İddiaçıların tenderdə iştirak etmək üçün elanda qeyd olunan sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 05.12.2018-ci il saat 11:00 tarixinədək, tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 19 dekabr 2018-ci il 11:00 tarixinədək, tender üzrə təqdim olunmuş zərflərin açılışı isə 20 dekabr 2018-ci il 11:00 tarixinədək uzadılmışdır.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

*Metroloji ölçmə vasitələrinə xidmətlərin satınalınması məqsədilə*

# AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2018-ci il noyabrın 27-si saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı, Heydər Əliyev prospekti 152, "Çinar plaza", 24-cü mərtəbə.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1132.*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

*Yanğınsöndürmə ləvazimatlarının satınalınması məqsədilə*

# AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2018-ci il noyabrın 27-si saat 18.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan:** *Bakı, Heydər Əliyev prospekti 152, "Çinar plaza", 24-cü mərtəbə.*

**Əlaqə telefonu:** *(012) 404-37-00, daxili: 1132.*

## Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Akademik M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxana 2018-ci il üçün

# KOTİROVKA SORĞUSU ELAN EDİR

1. Aşağıda göstərilən mallar və xidmətlər üzrə qiymətlərin elan olunmasına dəvət edilirsiniz:

- İdarənin digər xərcləri (idarədə işlənilən bütün növ mal və materiallar və s.).

Kotirovkalar sorğusunda iştirak etmək üçün tələb olunan sənədlər 25 noyabr 2018-ci il (saat 11.00) tarixinədək qəbul olunur.

Zərflərin açılışı 25 noyabr 2018-ci il (saat 13:00) xəstəxanada heyata keçiriləcəkdir.

**Ünvan:** AZ1001, Bakı şəhəri, Zərgərpalan küşəsi 4. Əlaqələndirici şəxs: Ə.Qasımov, Telefonlar: (+99412) 492-24-11; Fax: (+99412) 492-24-21, e-mail: rux@e-sehiyye.az

**Tender Komissiyası.**

## Hacıqabul Mərkəzi Rayon Xəstəxanası

# KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** Cari təmir işlərinin görülməsi.
**Əlaqə tel.:** *(050) 514-18-10*
**Ünvan:** *Hacıqabul şəhəri, B.M.Litvinçuk küçəsi 8.*

**Tender Komissiyası.**

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatının balansında olan xidməti minik avtomobillərinə texniki-təmir xidmətlərinin göstərilməsinin kotirovkalar sorğusu üzrə satınalınması prosedurunda malgöndərənlər (podratçılar) tərəfindən kotirovkaların təqdim edilməsi üçün müəyyən edilmiş 2018-ci il 22 noyabr tarix, kotirovka təqdim etmiş malgöndərənlərin (podratçılar) sayı üçdən az olduğundan, qiymət kotirovkalarının təqdim edilməsinin son tarixi 2018-ci il 27 noyabr tarixədək uzadılmışdır.

Niftullayev Tural Rafiz oğluna 12.02.2009-cu il tarixdə Yasamal RPİ tərəfindən verilmiş Seriya AZE N 06890465 Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Kreditor "R Palace" MTK, borclu "Fərəh-G" MMC-nin (hüquqi ünvan: Bakı şəhəri, Nərimanov rayonu, ak. Həsən Əliyev, ev 82 C) müflis elan olunması ilə əlaqədar məhkəməyə ərizə ilə müraciət etmişdir. İş üzrə məhkəmə baxışı 23.11.2018-ci tarixə saat 09:45-ə təyin edilmişdir. Debitor və kreditorlar 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə (ünvan: AZ1040, Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Oskar Əfəndiyev küçəsi, hakim Rüstəm Kərimli) müraciət edə bilərlər. Əlaqə telefonu: (012) 452-53-51.

31 avqust 1998-ci il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış "2 N-li TİKİŞ FABRİKİ" Məhdud Məsuliyyətli Cəmiyyətinin (hazırkı dövlət qeydiyyat nömrəsi (VÖEN: 1200083411) iştirakçısının qərarı ilə Cəmiyyətin nizamnamə kapitalı azaldılaraq 119740.80 manat məbləğindən 100 manata endirilir.

Füzuli rayonu Kərimbəyli kənd sakini İsayev Vəzir İsa oğlu və ailə üzvlərinin xüsusi mülkiyyətində olan Füzuli rayonu Kərimbəyli kəndində yerləşən 0,34 ha həyətyanı torpaq sahəsininin torpağın mülkiyyətə verilməsinə dair JN89 A (KOD 60618018 nömrəli) şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının 22 yanvar 1999-cu il tarixli 2 nömrəli qərarı ilə Siyakü ərazi nümayəndəliyinin Binəbəy kənd sakini Maliyeva Gülüstan Şəfəq qızına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 013 A; KOD 80108058) itdiyi üçün etibarsız sayılır.

Astara rayon aqrar islahat komissiyasının 24 dekabr 1997-ci il tarixli 92 nömrəli qərarı ilə Balaca Şahağacı kənd sakini Rzayeva Şabikə Muxtar qızına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 0150 A; KOD 80104038) itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidməti kotirovka sorğusu elan edir. 1) Dəftərxana və təsərrüfat xərcləri; 2) İdarənin xərcləri; 3) Cari təmir; 4) Dərman, sarğı ləvazimatlarının və materiallarının alınması; 5) İnventarın alınması; 6) Avadanlığın alınması; 7) Digər maşın və avadanlıqlar; 8) İstehsalatda istifadə olunmayan qeyri-maddi aktivlər. Təklifləri 28 noyabr 2018-ci il saat 12:00-dan gec olmayaraq aşağıdakı ünvana təqdim etməlidirlər. Ünvan: AZ 0100, Xırdalan şəhəri, Nizami Gəncəvi küçəsi. Telefon (012) 342-00-41. Tender Komissiyası.

## ALLAH RƏHMƏT ELƏSİN

**"Respublika" qəzetinin baş redaktoru professor Teymur Əhmədov və redaksiyanın kollektivi iş yoldaşları İlham Pənahova, anası**

**QƏLƏM xanımın**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

---

**AMEA akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun əməkdaşları akademik Ramiz Məmmədov, Məhərrəm Həsənov, Habil Haqverdiyev, Hüseyn Xəlilov, Zakir Eminov, Nizami Əyyubov, Nəriman Paşayev və Etibar Bədəlov Bakı Dövlət Universitetinin Qazax filialının direktoru, professor Vüsət Əfəndiyevə, anası**

**GÜLSƏFA xanımın**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

---

**Seyfullayeva Nərminə, Hümbətova Şəfiqə, İsmaylova Təranə, Əliyeva Aygün, İsgəndərova Şahsənəm, Babayeva Məhbubə, Hüseynli Şərafət Vüsət və Təranə Əfəndiyevlərə, anaları**

**GÜLSƏFA xanımın**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

---

**Etibar Hümbətov ailəsi ilə birlikdə Həsrətli Nemətə, əzizi**

**ŞAHİN HACI oğlu ƏHMƏDOVUN**

**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: 539-95-51;
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: 538-55-20;
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: 539-26-18;
Humanitar siyasət redaksiyası: 538-25-70;
Xəbərlər redaksiyası: 538-61-02;
İctimai rəy və sosial problemlər redaksiyası: 539-95-51; 538-43-41 tel/faks;
Qəbul otağı: 538-25-70;
Katiblik: 538-25-70;
Reklam və elan xidməti: 441-20-23.




● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
E-mail: resp@azdata.net
www.respublica-news.az
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Kamal İBADOV

● Çapa imzalanmışdır
20.11.2018